kitab elave ile)INSAN TALEYINI ) OZU YAZIR.doc

بسم الله الرحمان الرحيم

**HÜSEYN CAVAD**

# İNSAN – TALEYİNİ ÖZÜ YAZAN, NUR İSTEHSALI ŞƏRAİTİNİ YAXŞILAŞDIRMAQ VƏZİFƏLİ – ZÜLMƏTDƏN NURU AYIRAN NUR İSTEHSALÇISIDIR!



**Bakı – 2007**

**Redaktoru**:

**t.e.n. H.N.Həsənov**

**Rəyçi**:

**f.e.n.F.Qəzənfəroğlu**

**Cavadov Hüseyn Vilayət oğlu.**
**İnsan – taleyini özü yazan, nur istehsalı şəraitini yaxşılaşdırmaq vəzifəli – nur istehsalçısıdır!** Bakı, Nurlan, 2007, 120 s.

Tərtibatçı: **Vidadi Mahmudov**

Kitabda ilk dəfə olaraq Quran ayələrinin mənalarının «açar ayələr» vasitəsilə açılmasından və bu mənalara əsaslanaraq insanın nur istehsalçısı kimi öz taleyinin özü tərəfindən yazılmasından bəhs edilir.

Əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

بسم الله الرحمن الرحيم

İnsanın dünya həyatında qazana biləcəyi ən böyük var-dövlət onu *axirət səadətinə* qovuşdura biləcək *qəlb yazısıdır*.

*Müəllif*

**Tarixi məlum olmayan bir zamandır** ki, insanlar yaranışın səbəbləri, mexanizmi, nəticələri, hər bir yaradılmışın ümumidə rolu (missiyası), yaranma prosesinin qanunları, bu qanunları öyrənib onlardan istifadə etmək, yenilərini yaratmaq və sairə haqqında saysız-hesabsız fikirlər söyləmiş, qanunları kəşf edib onları tətbiq etməklə yeni dəyərlər yaratmışlar. Və bu axtarış elmi-texniki, mənəvi-psixoloji, ictimai-siyasi və s. müstəvilərdə bir an belə dayanmadan davam etməkdədir.

Hər bir yaranmışın zamanla ölçülən əvvəli və sonu vardır. Hər bir səbəb nəticə, nəticə isə səbəb doğurur. Səbəb və nəticə daimi, dövri olaraq bir-birini əvəzləməkdədir. Fizika elmi bunu enerjinin itməməsi qanunu ilə izah edir. Yəni enerji heçdən yaranmır, heç yerə itmir, o, yalnız bir enerji formasından başqasına çevrilir. Beləki, istənilən yaranmışı elmə məlum olan bütün enerji formalarına çevirmək mümkündür. Şərti olaraq demək mümkündür ki, bütün yaranmışlar fizika baxımından enerji çevrilməsinin nisbi dayanıqlı və nisbi dayanıqsız formalarıdır. Bu formaların müxtəlif nisbətlərdə iştirakı ilə ən sadədədn tutmuş ən mürəkkəbədək saysız-hesabsız yaranmışlar mövcuddur. Bu çevrilmələr, təzahür formaları, dövri olaraq zaman-məkan-materiya üçlüyündə ümumiləşir. Onda sual olunur ki, istənilən yaranmışın əvvəli və sonu olduğu üçün, görəsən, ilk olaraq

enerjinin hansı növü, forması və ya şəkli yaranmışdır? Əgər bu ilk yaranan bilinməsə, onda ilkə çevrilən son formanı da tapmaq mümkün olmaz. İlkə çevriləcək son forma tapılmayanda isə yaranmışların sonsuz çevrilmə dövriyyəsində hansı rol oynamaları da aydın olmur. Ən faciəlisi də bu olur ki, insanın – yaranmışların əşrəfinin yaranma səbəbi, onun ümumi yaranmışlar içərisində hansı rolu oynaması enerji çevrilməsi dövriyyəsinin hansı "yerində" olması, enerjinin hansı formasını digər hansı formaya çevirməsi bilinmir, dərk olunmur, başa düşülmür. Məna itir, məna itən yerdə qaranlıq başlanır ki, bu da insanın, dərk etmədiyinə görə, öz rolunu (missiyasını) yerinə yetirməsini mümkünsüz edir. Missiya tam yerinə yetirilmədikdə isə çevrilmə dövriyyəsi pozula bilər ki, bu da xaosa – yəni qanunların yox olmasına gətirib çıxarar. Onda çox məntiqli bir sual ortaya çıxır ki, nəyə görə bu günədək kainatın, təbiətin və s.-nin var olmasını mümkün edən qanunlar yerindədir və heç bir qüvvə onları yox edə bilmir? Əgər fikrimizi bu yönümdə davam etdirsək onda sonsuz sayda suallar ortaya çıxar ki, sadəcə onların cavabı yoxdur. Yəni elm həmin sualların cavablarını vermək, izah etmək qüdrətində deyil.

***Eşq imiş hər nə varsa aləmdə,***
***Elm bir qeylü qal imiş ancaq...*** *Məhəmməd Füzuli:*

Belə olduqda, müqəddəs kitablara müraciət etməkdən başqa çarə qalmır. Ancaq onlarda olan informasiyalardan istifadə etməklə, sonradan hər şeyin yarandığı ilki-ilk enerji formasını tapmaq olar. O forma ki, Allah ilk olaraq onu yaratmışdır və bütün yaranmışlar, ondan çevrilmələrin nəticəsidir. İlkə münasibətdə xüsusi olaraq qeyd edilməlidir ki, bu dövri çevrilmələr sonsuz ola bilməz, ona görə ki, **İlk** vardır. Yəni bütün dövri çevirilmələrdən sonra, **sondakı İlkə çevirilməlidir** ki, dövriyyə qapansın. Əks təqdirdə Allahın yaratdığı enerji forması – İlk azalar, tarazlıq pozular, hər şey **məhv** olar.

**Yenə də ortaya bir sıra çox ciddi suallar çıxır**:

- ***Yaradılmış İlk enerji forması hansıdır?***

- ***Çevrilmə dövriyyəsinin İlkə çevrilmə anında – şərti olaraq ifadə etsək – İlk ərəfəsi enerji forması hansı formadır?***
- ***İlk ərəfəsi enerji İlkə necə çevrilir?***
- ***İlk ərəfəsi enerjini, enerjinin hansı forması İlkə çevirir?***
- ***İlk ərəfəsi enerji forması necə yaranır?***
- ***Bu çevrilmənin mexanizmi necədir?***
- ***Çevrilmə prosesinə nələr mane ola bilər?***
- ***Bu maneələrin qarşılarının alınması hansı qoruyucularla təminatlıdır?***
- ***Həmin qoruyucular necə fəaliyyət göstərir?***

Bütün müqəddəs kitablar, xüsusən müqəddəs kitabların sonuncusu, Allah tərəfindən qorunan (***Ər-Hicr-9***. *Şübhəsiz ki, Quranı*[*] *Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq"!*) Quran yaradılmış ilk enerji haqqında aşağıdakı informasiyaları verir:

**Ən-Nur-1.** Bu, nazil edib **vacib** buyurduğumuz bir surədir. Biz onda açıq-aşkar ayələr nazil etdik ki, bəlkə düşünüb ibrət alasınız (*114 surənin içərisində "vacib buyurulmuş" yeganə surədir*).

**Ən-Nur-35**. Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər; taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə, sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir ***zeytun*** ağacından yandırılır. Onun yağı ***(zeytun ağacının)*** özünə od toxunmasa da, sanki işıq saçır. **O, nur üstündə nurdur**. Allah **dilədiyini Öz nuruna qovuşdurur**. Allah insanlar üçün **misallar** çəkir! Allah hər şeyə qadirdir!

[*] Qurani-Kərim. Şərhlər Z.M.Bünyadov. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı, Çıraq, 2005, 636 s.

**Ən-Nur-36.** (*Həmin taxça və çıraq*) Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izin verdiyi **o evlərdədir ki**, orada səhər axşam Onu təqdis edib şəninə təriflər deyəllər.

**Əl-Hədid-9**. Sizi **zülmətlərdən Nura çıxarmaq** üçün Öz bəndəsinə açıq-aşkar ayələr nazil edən Odur. Allah sizə şəfqətlidir, mərhəmətlidir!

**12**. O gün mömin kişilərin və qadınların **nurunun** onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını görəcəksən. (*Mələklər onlara deyəcəklər:*) "Bu gün sizin müjdəniz altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız!" Bu, böyük qurtuluşdur!

**Ən-Nur-35**-də "Allah göylərin və yerin nurudur" cümləsindən çıxan açıq və ümdə məna budur ki, "göylər" və "yer" nurdan yaradılıbdır. Yəni ilk yaradılan enerji Nurdur ki, sonsuz enerji formaları da məhz Nurdan çevrilmələrin nəticəsidir.

**Əl-Ənam-1.** Göyləri və yeri xəlq edən, **zülmətləri və nuru** yaradan Allaha həmd olsun! (*Bu qüdrəti gördükdən*) sonra kafir olanlar yenə (bütləri) öz Rəbbinə tay tuturlar.

Eyni zamanda enerji çevrilməsinin nisbi dayanıqlı, nisbi dayanıqsız və ya bunlardan xəlq edilmiş saysız-sonsuz formaları olsun – bütün bu formaları da bir arada tutan, Böyük yaradana bağlayanın özü də Nurdur. Ancaq Nur Allah deyil. Allah Nurun yaradıcısı olduğuna görə onun sahibidir. Bütün yaranmışların Nurdan yarandığını, onları bir arada tutanın və Allaha bağlayanın da Nur olduğunu, Allahın da Nuru "yoxdan" yaratdığını (***Əl-Hədid-1***... "*yoxdan yaradan Rəbbinin adı ilə oxu!"*) nəzərə alsaq onda doğrudan da "Allah göylərin və yerin nurudur". Allah yaratmaq istəyəndə sadəcə: "Ol!" – deyir, o da olur.

**Əl-Bəqərə-117**. "...Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "**Ol!**" deyər, o da olar".

Quranda hər şeyin Allah tərəfindən yaradılmış və müvəqqəti, fani olduğu bildirilir. Allah isə əbədi olduğundan (***Əl-Hədid-3. Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi***

***biləndir!)*** yalnız Allaha məxsus olan sifətlət yaranmışlardan heç birində, yəni Nurda da yoxdur.

**Əl-İxlas-1**. De: "O Allah birdir.
**2.** Allah möhtac deyildir!
**3.** O, nə doğmuş, nə də doğulmuşdur!
**4.** Onun heç bir tayı-bərabəri də yoxdur!"

Deməli, Nur yaradılmışdır. İlk yaradılma anında – "Ol!" anında yaradılmış ilk enerji formasıdır. Yaradılmış olduğuna görə də təkrar istehsala möhtacdır, əks təqdirdə azala bilər. Belə ki, yaradılmış Nurdan yaranan enerji çevirmələlrinin dövri çevrilməsində hansısa (*şərti olaraq desək*) nurərəfəsi forma Nura çevrilməlidir ki, dövriyyə qapansın.

Quranda, İncildə və başqa müqəddəs mənbələrdə metafizikanı, qeybi anlatmaq üçün sadə məsəl, misal, bənzətmələrdən (***Əz-Zumər-27. Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkdik ki, öyüd-nəsihət qəbul etsinlər!)*** istifadə olunduğuna görə biz də fikrimizi məsəllə ifadə etməyə çalışaq.

Şərti olaraq qəbul edək ki, ümumi yaranışa 10 $m^3$ və yaranmışları Yaradana bağlamaq, bir arada tutmaq üçün isə 1 $m^3$ Nur sərf olunubdur. Və bu enerji formalarının fasiləsiz, dövri olaraq bir-birinə çevirilmə zəncirində harmoniyanın, nizamın pozulmaması üçün onların "ümumidə payı", təqdir "payı" qorunmalıdır.

**Əl-Fürqan-2.** "... O Allah ki, göylərin və yerin hökmü Onundur. **O, heç bir övlad götürməmişdir**; mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu (*onun nə cür olacağını*) **təqdir** (*əzəldən müəyyən*) etmişdir..."

Yəni ilkin Nurun 10 $m^3$ yaranış payı, 1 $m^3$ əlaqələndirmə payı pozulmamalıdır, təkrar istehsal olunaraq Nur sərfinin yeri dolmalıdır. Əks təqdirdə Nur (*ilk*) azalar, yaranma prosesinin nizamı pozular, heç nəyi bir arada saxlamaq olmaz. Buna misal olaraq dünyanı bürümüş ekoloji problemləri göstərmək olar. Bu problemlər enerji çevirilməsi dövriyyəsinə hansısa kobud müdaxilələrin nəticəsidir. Əgər enerji çevrilməsi dövriyyəsinin şəhadət

dünyasına aid "zəncirində" yaranan pozulma yer üzündə bu qədər problemlərin yaranmasına gətirib çıxarırsa, onda qeybə, metafizikaya aid "zəncirində" "axsama" olarsa nələrin baş verəcəyini insan ağlı təsəvvürünə belə gətirə bilməz. Bəlkə də qiyamət günü başlayar.

- Nur (*ilk yaradılmış*) necə istehsal olunur?

**Ən-Nur-35. "Onun nuru, içində çıraq olan bir taxçaya bənzər".**

Peyğəmbər: Bəncə dünyada ən sevimli dilək
Ona qoşmaq, onunla birləşmək...

Mələk: O da mümkün, düşün də haq yolu tut,
Atalardan qalan nə varsa unut!
Yıq xurafatı, əski bütləri qır,
Kim yol azmışsa haqqa doğru çağır.
***Nərdivənlər yapıb könüllərdən,***
**Parla, yüksəl vücudi-mütləqə sən!"** [1]

**"Miskinlikdə buldular**

**Könül** tanrının taxtı,
**Könülə** tanrı baxdı
İki Cahan bədbaxtdı -
Kim **könül** yıxar isə.

Özünə nə sanırsan,
Özgəyə də onu san
Dörd kitabın mənası

---

[1] Hüseyn Cavid. Peyğəmbər. – Əsərləri, III c. Bakı, "Lider" nəşriyyatı, 2005, s. 144.

Budur, əgər var isə".[1]

... "Onun nuru, içində çıraq olan bir taxçaya bənzər" (**Ən-Nur-35)** cümləsində "taxça" insanın könlüdür ***(Qəlbi)***. "Güldəstə"də Yunus İmrə "Könül tanrının taxtı" – deyir. Demək olar ki, Tanrının "taxtı" **könüldür** ***(Qəlbdir)***. Bu mənada "Kim könül yıxar"sa "Tanrının taxtı"nı yıxmış sayılar ki, onunda hər iki dünyası "bədbaxt olar".

**Qaf-32.** *(Onlara deyiləcəkdir:)* "Bu, vəd olunduğunuz (*Cənnətdir*) O, hər bir (*tövbə edib Allaha tərəf*) qayidan*, (nəfsini haramdan, özünü günahdan)* qoruyan;

**33**. Rəhmandan *(Onu)* görmədən qorxan və *(Rəbbinin hüzuruna)* **haqqa dönmüş**, **qəlblə** gələn bəndə üçündür!"

**Ən-Nəcm-11. Qəlb** gördüyünü yalan saymadı".

**Əş-Şuəra-193.** Onu Cəbrail endirdi:

**194.** *(Günahkarları Allahın əzabı ilə)* qorxudan *(xəbərdar edən)* Peyğəmbər olasan deyə, sənin **qəlbinə** (*nazil etdi)"*.

**Ər-Rum-59.** Allah *(haqqı)* bilməyənlərin **qəlblərini** belə möhürləyər!"

**Əl-Həşr-10.** Onlardan sonra gələnlər belə deyərlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim **qəlblərimizdə** iman gətirənlərə qarşı kinə *(həsədə)* yer vermə..."

**Əl-Həcc-46.** Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən **qəlbləri,** eşidən qulaqları olsun? Həqiqətən gözlər kor olmaz, lakin sinələrdəki **ürəklər kor olar.**

**53.** *(Allah ona görə belə edir ki)* Şeytanın vəsvəsəsini **qəlblərində** mərəz və **ürəkləri qatı** olanlar üçün bir sınaq vasitəsi etsin..."

---

[1] Yunus İmrə. Güldəstə. Bakı, Yazıçı, 1992, s. 133.

**Əş-Şuəra-89.** Ancaq **sağlam bir qəlblə** Allahın hüzuruna gələn kimsədən başqa!...

**200.** Biz *(küfrü, inadkarlığı)* günahkarların **qəlbinə** belə salarıq.

**201.** Onlar şiddətli əzabı görməyənədək *(Qurana)* inanmazlar.

**Əs-Saff-5**. Onlar üz döndərdikdə Allah da onların **qəlblərini döndərdi**...

**Ər-Rəd-28**. O kəslər ki, Allaha iman gətirmiş və **qəlbləri** Allahı zikr etməklə **aram tapmışdır**. Bilin ki, **qəlblər** yalnız **Allahı zikr etməklə aram tapar!**

**Könül** (***Qəlb***) ruhun taxtıdır. "Güldəstə"də: "**Könülə** Tanrı baxdı" – deyilir. Təbii ki, Tanrı taxtına baxar.

**Sad-71.** *(Ya peyğəmbər!)* Xatırla ki, o zaman sənin Rəbbin mələklərə belə demişdi: "Mən **palçıqdan** bir insan yaradacağam.

**72.** Mən onu tamamlayıb **Öz ruhumdan üfürən** kimi ona səcdə edin!"

Tanrının üfürdüyü ruhun "**taxtı**" *("Güldəstə"də)*, "**taxça**"sı (***Ən-Nur-35-də***) **könüldür, qəlbdir**.

Güldəstə: İki cahan bədbaxtdı –
Kim **könül** yıxar isə.

Təbii ki, Tanrının taxtını ***(könülü, qəlbi)*** Allahın Öz ruhunun "oturduğu" məqamı yıxanın hər iki dünyası" **"bədbaxt"** olar.

"**Ən-nur-35. Taxçadakı** o çıraq bir qəndilin içindədir, qəndil isə, **sanki parlaq** bir ulduzdur". Bu cümləyə bir az diqqət etsək görərik ki, burada "**Taxçadakı** ***(könüldəki, qəlbdəki)*** o çıraq ***(o ruh)*** bir qəndilin ***(bir nurun)*** içindədir, qəndil ***(nur)*** isə sanki parlaq bir ulduzdur" fikri ifadə olunmuşdur.

Məsəllə anladılanı mənaya çevirib yazsaq: "**Qəlbdəki o ruh bir nurun içindədir, nur isə sanki parlaq bir ulduzdur".**

**"Əl-İsra-85.** *(Ya Rəsulum!)* Səndən **ruh** haqqında soruşsalar, de: "**Ruh Rəbbimin əmrindədir**. Sizə *(bu barədə)* yalnız **cüzi** *(az)* bir bilik verilmişdir!"

**"Əl-Mucadələ-22**. *(Ya Peyğəmbər!)* Allaha və axirət gününə inanan heç bir tayfanın Allah və onun Peyğəmbəri əleyhinə çıxanlarla – öz ataları, oğulları, qardaşları, yaxin qohumları olsalar belə – dostluq etdiyini görməzsən. Onlar elə kimsələrdir ki, Allah onların **qəlblərinə iman yazmış** və Öz dərgahından onlara **ruh** vermişdir".

**Əl-Maidə-110.** *(Ya Rəsulum!)* Xatırla ki, o gün Allah belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni **müqəddəs ruhla qüvvətləndirmişdim**. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib **ona üfürürdün**, o da Mənim iznimlə quş olurdu. *(Düzəldilən... "quşa bənzər bir şey"in ağılda yaratdiği şəklə hiss keçirmək – üfürmək).*

**Ən-Nur-35**-də "**Taxçadakı o çıraq"** məsəlinin **qəlbdəki o ruh** mənasında olmasını, **Əl-Əhzab** surəsinin **45** və **46**-cı ayələri də təsdiq edir.

**Əl-Əhzab-45.** Ya Peyğəmbər! Həqiqətən, Biz səni bir **şahid,** bir **müjdəçi** və bir qorxudan kimi göndərdik!

**46.** *(Biz səni)* Allahın izni ilə Ona tərəf çağıran və **nurlu bir çıraq** olaraq göndərdik!"

**Ən-Nur-35.** O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır (Quran tərcümələrinin çoxunda, "zeytun" sözü "ağacdan" sözündən sonra mötərizədə yazılır). Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstündə nurdur..." Cümlədəki mənanın məsəllə anladıldığını

nəzərə alsaq və ancaq yer üzündə olmayan **"mübarək ağac"** üzərində fikir deməyə çalışsaq, heç nə alınmaz. Çünki:

**I.** "O çıraq nə çərqdə, nə də qərbdə olan" – yəni yer üzündə olmayan ağacla necə yandırıla bilər?
**II.** Ağacın "yağı, özünə od toxunmasa da sanki işıq saçır"sa, onda niyə "yandırılsın"?
**III.** Bütün bunların mənası nədir, məsəllərin arxasında hansı mənalar dayanır, onlardan nə başa düşülməlidir?

Əgər Qurandakı məsəllərlə anladılan ayələrin hamısını nəzərdən keçirsək, onda hər şey gün kimi aydın olar.

**İbrahim-24.** Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? **Xoş bir söz** kökü yerdə möhkəm olub budaqları göyə ucalan **gözəl bir ağac** kimidir *(müqəddəs ağac).*

**25.** O, Rəbbinin izni ilə **bəhrəsini** hər vaxt verər. Allah insanlar üçün belə **misallar çəkir** ki, bəlkə, **düşünüb ibrət alsınlar!**

**26. Pis söz** isə yerdən qopardılmış, kökü olmayan **pis bir ağaca** bənzəyir.

**27.** Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir **sözlə** sabitqədəm edər. Allah zalımları sapdırar. Allah istədiyini edər!

**28.** *(Ya Rəsulum!)* Məgər Allahın nemətini küfrə dəyişənləri və ümmətini ölüm yurduna sövq edənləri görmürsənmi?"

**Ən-Nur-35**-də "Mübarək ağac"ı **xoş bir sözlə,** "onun yağı"nı **xoş bir sözün insan ağlında yaratdığı şəkillə,** "özünə od toxunmasa da, sanki işıq saçır"ı **yaranmış şəklə keçirilən hissin yaratdığı həzzlə** əvəz etdikdə, məsəllə anladılan eyni mənanı belə də yazmaq olar: *(o çıraq)* **o ruh,** (*mübarək bir ağacdan*) **xoş bir sözün,** (*onun yaği*) **yaratdığı şəklə,** (*od toxunmasa da*) **keçirilən hiss nəticəsində,** (*işıq saçır*) **həzz alır**. O, nur üstündə nurdur.

Ayəni bənzətməsiz yazdıqda aşağıdakı alınır:

Allah göylərin və yerin nurudur. Onun nuru **içində ruh olan bir qəlbdir** ***(könüldür).*** **Qəlbdəki o ruh bir nurun** içindədir, **nur** isə sanki parlaq bir ulduzdur**. O ruh, xoş bir sözün** ***(insan ağlında)*** **yaratdığı şəklə keçirilən hiss nəticəsində həzz** alır. O ***(həzz),*** nur üstündə nurdur. Allah dilədiyini Öz nuruna qovuşdurur…

Doğrudan da, insan ağlı söz → şəkil, şəkil → söz → şəkil çevrilməsi ilə işləyir, düşünür, analiz edir və yaradır. Adi təcrübə ilə hər bir insan çox az müddətdə bunu özündə kəşf edə, duya bilər.

Sakit vəziyyətdə bir nəfər həmin insana müxtəlif əşyaların adlarını sadalasın. Sonuncu diqqət etdikdə görəcəkdir ki, sadalanan adlar, isimlər, sözlər həmin andaca düşüncədə, şüurda şəklə çevrilir. Və yaxud bunu tərsinə də etmək olar. İnsan sadəcə sakit dayanıb ətrafında olanlara baxsın, diqqət etsə görəcək ki, baxdığı əşya həmin anda ağıl tərəfindən şəkil→ söz→şəkil çerilməsinə məruz qalır. Əgər insan ağlında baş verən bu çevrilmələrin *(söz → şəkil, şəkil → söz → şəkil)* insana bir aidiyyatı yəni xeyri və ya ziyanı varsa, onu maraqlandırarsa, o vaxt hiss də keçirilir. Əks halda ağıl sadəcə müşahidə aparır. Kobud da olsa bu, videokameranın işləməsinə oxşayır. Hesab etsək ki, göz, qulaq, burun, dəri, dil – yəni görmə, eşitmə, qoxu, dad, toxunmadan və s. alınan informasiya sonda ağıl tərəfindən şəklə çevrilir və alınmış şəkillərə hiss keçirməklə yaddaşa yazılır. Onda ağılı videokameranın ekranına, informasiya göndərən orqanları isə obyektivinə bənzətmək olar. Videokameranın yazma düyməsinə basıldıqda obyektivin göndərdiyi informasiya *(şəkil)* diskə *(yaddaşa)* yazılır, bu düymə basılmadıqda isə videokamera sadəcə "müşahidə" rejimində işləyir. Deməli bu və ya başqa səbəbdən insan ağlında yaranan şəkillərin yaddaşa *(ağlın yaddaşına)* yazılıb-yazılmamasına qərar vermək insanın özündən asılıdır. Allah insanı bu mənada faili-muxtar – yəni düşüncələrini azad seçib *(şəkilləri)*, secdiklərinə öz iradəsi ilə hiss keçirib yazmaq qabiliyyətli yaratmışdır. Insan beyninin oyaq olduğu vaxtlarda, ağıl bir an belə dayanmadan bu əməliyyatları həyata keçirir.

İnsanları başqa canlılardan fərqləndirən xüsusi qabiliyyətlərdən biri xəyal qurmaqdır *(fantaziya).* Insan xəyal quranda, düşünəndə öz daxilində danışır, götür-qoy edir, nəticədə alınan şəkillər onu maraqlandırdıqda məhz həmin şəkil və ya xəyali həyat səhnələrinə hislər keçirməklə onları ağlın yaddaşına yazır.Yazılanlara təkrar-təkrar hisslər keçirildikdə isə görünür arzulara çevrilir.

Bundan başqa xüsusən insana aid olan qabiliyyətlərdən biri də olub-keçmişləri xatırlamaqdır. İnsan, istənilən an on illərlə keçmişə qayıdıb, yaddaşına *(ağıl, qəlb yaddaşına)* yazılanlardan, onu maraqlandıran istənilən səhnəni *(arzu olaraq yazılmış, və ya yaşanmış olsun, fərqi yoxdur)* xatırlayıb, həmin xatirələri, nələrisə əlavə etmık və ya nələrisə çıxdaş etməklə hislər keçirib yenidən yaddaşına yaza bilər. Deməli bir də xatirələr var.

Şəkillərin, xatirələrin ağlın yaddaşında qalma müddəti, yazılma anında keçirilən hislərin dərəcəsi ilə müəyyən olunur. Əgər hər hansı şəkil *(hadisə)* yaddaşda möhkəm qalıbsa, demək həmin an keçirilən hislər də çox güclü və davamlı olub. Ağılda yaranan şəkillərə hislər keçirilmədikdə isə həmin şəkillər yaddaşa yazılmır. Bunlardan belə bir nəticə çıxır ki, yaddaşa yazılanlar canlıdır, ona görə ki, həmin şəkillərə hislər keçirilib.

Beləliklə, qayıdaq **Ən-Nur-35**-ə. "O ruh, xoş bir sözün *(insan ağlında)* yaratdığl şəklə keçirilən hiss nəticəsində həzz alır. O *(həzz)* nur üstündə nurdur".

"Allah dilədiyini Öz nuruna qovuşdurur"u təsdiq edən başqa ayələrə nəzər salaq:

**Əl-Casiyə-30**. İman gətirib yaxşı əməl edənlərə gəldikdə, Rəbbi onları Öz mərhəmətinə *(Cənnətə)* qovuşduracaqdır. Bu, açıq-aşkar qurtuluşdur!

**Əl-Ənkəbut-7**. İman gətirib yaxşı işlər görənlərin günahlarının üstünü örtər və onlara etdikləri əməllərdən daha gözəl mükafat verərik...

**9**. İman gətirib yaxşı işlər görənləri salehlər zümrəsinə daxil edəcəyik!

**Əl-Hədid-7**. (*Ey insanlar!*) Allaha və Peyğəmbərinə iman gətirin. Sizi varis etdiyi maldan (*Onun yolunda*) xərcləyin. Sizdən iman gətirib *(mal-dövlətini Allah yolunda)* sərf edənləri böyük bir mükafat gözləyir!"

**Ət-Tovbə-53**. *(Münafiqlərə)* de: "İstər könül xoşluğu ilə, istər zorla xərcləyin. Onsuz da *(Allah dərgahında)* **sizdən qəbul olunmayacaq.** Çünki siz fasiq tayfasınız".

**Ən-Nisa-85**. **Yaxşı işə vasitəçi** olana *(onun savabından)* bir **pay** düşür. Əlbəttə, Allah hər şeyə qadirdir.

**Əl-Furqan-22**. Mələkləri görəcəkləri gün – həmin gün günahkarlara *(Cənnətlə)* heç bir müjdə olmaz. *(Mələklər onlara)*: "*(Sizə şad xəbər eşitmək)* haramdır!" – deyərlər.

**23**. Onların etdikləri hər hansı bir *(yaxşı)* əməli Biz **qəsdən dağınıq zərrələrə** döndərərik! *(Onların qohum-əqrəbaya, yoxsullara göstərdikləri köməyin, qonağa, qəribə etdikləri hörmətin və dünyada gördükləri digər yaxşı işlərin zərrə qədər qiyməti olmaz!)"*.

Bu ayələrdən çıxan yeganə məna budur ki, "Allahın dilədiyi" o insanlardır ki, düşdükləri vəziyyətdən, nə etməklərindən asılı olmayaraq həmişə, Allah razı olar ümidi ilə düşünüb, danışıb, çalışırlar. Axirətə inanan bir insanın gördüyü adi bir iş zamanı, həmin işin ağılda yatdığı şəklə hiss keçirərək, *(ortaya çıxan əməlinə baxaraq*) Allah razı olar ümidi ilə **həzz alma** anında dünya dəyərlərinə olan sevgisini təmənnasız sevgiyə – **Nura** çevirir.

Əksinə olduqda isə, gördüyü işin nə qədər böyük əhəmiyyət daşımasından asılı olmayaraq, həmin işin ağılda yatdığı şəklə hiss keçirərək, dünya razı olar ümudi ilə həzz alma anında dünya dəyərlərinə *(faniyə)* olan sevgisi Nura çevrilmir, dünyada qalır. Bu mənada **Əl-Furqan-23**-də Allah buyurur ki: "Onların etdikləri hər hansı bir *(yaxşı)* əməli **Biz qəsdən dağınıq zərrələrə** döndərərik".

İnsanda yaranan dünya sevgisi – ata-anaya, bacı-qardaşa, qohum-əqrəbaya, sevgili yara, mal-dövlətə, oğul-uşağa, vətənə, torpağa, öz surətinə, qabiliyyətlərinə və s. – yəni yaranmışlara olan sevgidir. Bu sevgi *(enerji çevrilməsi forması*), *(İlkdən)* Nurdan sonra enerji çevrilmələrinin bütün nisbi dayanıqlı və nisbi dayanıqsız formaları içərisində fani, şəhadət dünyasına aid olan ən incə, zərif enerji formasıdır ki, Nurərəfəsi *(Nura çevriləcək)* enerji forması adlandırıla bilər.

Müvəqqəti, fani dünya dəyərlərinə olan dünya sevgisini, *(İlkə)* Nura çevirən **insandır.** O insan ki, **Allahın yer üzündə xəlifəsidir:**

**Əl-Bəqərə-30**. (*Ya Rəsulum*!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir **xəlifə *(canişin)*** yaradacağam".

**Mələklərin səcdə etdiyidir.**

**Əl-Bəqərə-34**. *(Ya Peyğəmbər!)* Biz mələkərə: **"Adəmə səcdə edin!**" - dedikdə.

**Ən ağır yükün daşıyıcısıdır.**

**Əl-Əhzab-72**. "Biz **əmanəti göylərə, yerə və dağlara** təklif etdik. Onlar ona yüklənməkdən qorxub çəkindilər. **Ona insan yükləndi.** Həqiqətən, o çox zalım, çox cahildir".

**Üstün yaradılmışdır.**

**Əl-İsra-70**. "Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda *(gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə)* mindirib sahib etdik, özlərinə təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan **xeyli üstün etdik".**

Ruh, cisim, ağıl üçlüyünün sahibi, sanki qeyblə *(metafizika)* şəhadət *(fizika)* arasında dayanıb, qeybden şəhadətə, şəhadət dünyasından qeyb dünyasına keçidi təmin edəndir insan.

Insan ikili istehsalçıdır. O öz həyatını, yaşamını təmin etmək üçün həm təbiətin istehsal şəraitinin yaxşılaşmasına, məhsulun çoxalmasına, keyfiyyətinin yüksəlməsinə çalışır, həm də təbiətdə olmayan dünya dəyərlərini istehsal etmək üçün kəşf etdiyi qanunları müxtəlif variantlarda uzlaşdırmaqla yeni mühit yaradır.

Eyni zamanda həm təbiətdə olan, həm də özünün istehsal etdiyi saysız – hesabsız dünya dəyərlərinə olan sevgisini ilahi, təmənnasız, əbədi sevgiyə – **Nura** çevirir.

**Əl-Ənam-162**. "De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!

**163.** Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən ilk müsəlmanam!"

Allah, insanla Özü arasında nə yaratmışdırsa, hamısını təmənnasız sevmək üçün yaratmışdır. Yəni Ondan ötrü, Onun razı qalmasından ötrü. Əgər insan öz iç dünyasında belə bir tərəzi yarada bilsə ki, – düşünəndə, danışanda, çalışanda həmişə bu hissi keçirsin, – görəsən mənim düşündüyümdən, danışdığımdan, gördüyüm işdən Allah razı olarmı? – bu halda həmin "tərəzi sahibinin" tutduğu bütün niyyət və əməllərdən davamlı olaraq nur istehsal olunar *(Nurərəfəsi enerji – dünya sevgisi, ilkə – nura çevrilər).*

**Əl-Ənkəbut-45**. "*(Ya Rəsulum!)* Qurandan sənə vəhy olunanı oxu və namaz qıl. Həqiqətən, namaz çirkin və pis əməllərdən çəkindirər. **Allahı zikr etmək, şübhəsiz ki, daha böyükdür**. Allah nə etdiklərinizi bilir!"

**Əl-Bəqərə-177**. "Yaxşı əməl heç də *(ibadət vaxtı)* üzünüzü gün çıxana və ya gün batana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan, *(Allaha)* məhəbbəti yolunda malını qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirə *(pulu qurtarıb yolda qalan yolçulara)*, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcədə əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (*ehtiyac, yaxud xəstəlik üz verdikdə)* və cihad zamanı (*məşəqqətlərə)* səbr

edənlərdir. *(İmanlarında, sözlərində və əməllərində)* doğru olanlardır. Müttəqi olanlar da onlardır!

**Ən-Nisa-38**. Öz mallarını xalqa göstərmək *(şöhrət qazanmaq)* xatirinə xərcləyənləri, Allaha və axirət gününə inanmayanları da *(Allah sevməz).* Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir!

Misalla mənası anladılmış "**Ən-Nur**" surəsinin **36**–cı ayəsinə baxaq:

*(Həmin taxça və çıraq)* Allahın tikilib ucaldılmasına və öz adının zikr edilməsinə izin verdiyi evlərdədir *(o məscidlərdədir)* ki, orada səhər-axşam Onu təqdis edib, şəninə tariflər deyərlər.

**Ən-Nur-35**-dən aydın oldu ki, taxça qəlbdir *(könüldür),* çıraq isə ruhdur. Belə olduqda, "o evlər" də insanların cisimləridir. Alınmış mənaları yerlərinə qoyduqda: *(Həmin qəlb və ruh)* Allahın tikilib ucaldılmasına və öz adının zikr edilməsinə izn verdiyi o insan cisimlərindədir ki, orada səhər-axşam Onu təqdis edib şəninə tariflər deyərlər.

Dedik ki, insan ağlında yaranan şəkillərə müvafiq hislər keçirdikdə **ağlın yaddaşına yazılır**. Görünür bu proses təkrar-təkrar yaşananda **ruhun yaddaşına – qəlbə yazılır.**

**Əl-Bəqərə-30**. "*(Ya Rəsulum!)* Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə *(canişin)* yaradacağam", – dedikdə *(mələklər):* "Biz sənə şükür etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada *(yer üzündə)* fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. *(Allah onlara:)* "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu".

**31**. "*(Allah Adəmi yaratdıqdan sonra)* **Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi**. Sonra onları *(həmin şeyləri)* mələklərə göstərərək: "*(iddianızda)* doğrusunuzsa, **bunların adlarını** Mənə bildirin!" – dedi.

**32**. Onlar: "Sən paksan, müqəddəssən! *(Bütün eyib və nöqsanlardan kənarsan!)* Sənin bizə öyrətdiklərindən

başqa biz **heç bir şey bilmirik.** *(Hər şeyi)* bilən Sən, Hikmət sahibi Sənsən", – dedilər.

**33***. (Sonra)* O: "Ey Adəm, bunların (kainatda mövcud olan əşyaların) adlarını onlara bildir!" – dedi*. (Adəm)* onlara *(mələklərə)* bunların adlarını xəbər verdikdə *(Allah)*: "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində-aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" – buyurdu.

**34**. *(Ya Peyğəmbər!)* Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə İblisdən başqa *(hamısı)* səcdə etdi. *(Yalnız)* o, lovğalanaraq (*səcdə etməkdən*) imtina etdi və kafirlərdən oldu.

**35**. *(Sonra)* Biz *(Adəmə)* dedik: "Ey Adəm, sən zövcənlə (*Həvva ilə)* Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən, **istədiyiniz** kimi, bol-bol yeyin, **yalnız bu ağaca** *(**buğdaya**)* yaxın gəlməyin! Yoxsa *(özünüzə)* zülm edənlərdən olarsınız".

**36**. *(Lakin)* Şeytan onları azdırıb (**buğdadan** yedizdirməklə nemətlər içində) olduqları yerdən uzaqlaşdırdı. Biz də *(Adəmə, Həvvaya və Şeytana)*: "Bir-birinizə düşmən kəsilərək *(buradan kənar olub yer üzünə*) enin! Yerdə sizin üçün müəyyən vaxta qədər *(ömrünüzün axırınadək)* sığınacaq və yaşayış *(dolanacaq)* vasitələri var", – dedik.

**37**. *(Nəhayət)* Adəm Rəbbindən **kəlmələr öyrənərək** tövbə etdi. Doğrudan da, O, (*Allah*) tövbələri qəbul edəndir, mərhəmətlidir.

**38**. Biz *(onlara)* dedik: "Hamınız buradan *(yer üzünə)* enin! Mənim tərəfimdən sizə bir hidayət *(peyğəmbər və kitab)* gəldiyi zaman Mənim hidayətimə tabe olanlara (*axirət əzabından)* heç bir qorxu yoxdur və onlar *(qiyamətdə)* qəmgin olmazlar".

**39**. Kafir olaraq ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər, onlar orada *(atəş içində)* əbədi qalacaqlar".

**Əl-Bəqərə-30**-da "*(Ya Rəsulum*!*)* Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə *(canişin)* yaradacağam, – dedikdə"dən, açıq-aydın görünür ki, hələ yaradılmamışdan öncə

*(Adəm)* insan yer üzü üçün nəzərdə tutulmuşdur, yer üzündə yaşayacağı əvvəlcədən təqdir edilmişdir.

**Əl-Bəqərə-31**-də "*(mələklər)*: Biz sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Seni müqəddəs tutduğumuz halda, Sən orada *(yer üzündə)* fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. *(Allah onlara:)* "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu. Ayələrdən çıxan məna budur ki, mələklərə öz iradələri ilə *(düşüncələrini sərbəst seçmək azadlığı)* qəlblərinə nəsə yazmaq, şəkillərə hiss keçirməklə niyyət etmək *(gizlin yazı)* qabiliyyəti verilməyib. Bu halda onların günah etmək imkanları olmadığından məsumdurlar. Yəni Allah tərəfindən, görəcəkləri işlərə uyğun olaraq təqdir edilmiş talenin qəlb yazısını yaşamaqdan başqa çıxış yolları yoxdur. Dərgahın mələklərə uyğun məqamının zaman müstəvisində var olan mələkələr, qəlb yazılarından doğan istəklərinin həmin an onlara yaxınlaşmasına *(görünməsinə)* görə yer üzü zaman hesabı ilə yaşayacaq insan haqqında əvvəlcədən nələr edəcəyini bildiklərindən: "Sən orada *(yer üzündə*) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər".

**Əl-Ənam-61. "***(Allah)* Öz bəndələri üzərində hakimi – mütləqdir. O, sizə (*yaxşı və pis əməllərinizi yazan, sizi Şeytandan qoruyan)* gözətçi mələklər göndərir. Nəhayət, birinizin əcəli gəlib çatdiqda onun canını *(göndərdiyimiz)* mələklər alar. Onlar *(öz vəzifələrində)* heç bir əyər-əskikliyə yol verməzlər!"

**Əl-Ənbiya-27**. "*(Mələklər)* Ondan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər".

Mələklərin var olduğu dərgah məqamının zaman müstəvisini hesablasaq:

**Əl-Məaric-4** "Mələklər və ruh *(Cəbrail)* Onun dərgahına müddəti əlli min il olan bir gündə qalxarlar".

Dərgahın həmin məqamının bir gününü saniyəyə çevirsək:
1 gün = 24 saat x 60 dəqiqə x 60 saniyə = 86.400 saniyə
Yerin əlli min ilini günə çevirsək:

50.000 il x 365 gün = 18.250.000 gün

Yerin bir günü dərgah zaman hesabı ilə neçə saniyə olar?

86.400 saniyə: 18.250.000 gün = 0.0047.342 saniyə ≈ 0.005 saniyə

Belə çıxır ki, dərgah məqamının uyğun zaman müstəvisində var olan mələklər qəlblərinə *(təqdir)* yazılmışlardan nə istəsələr yer üzü zaman hesabı ilə bir gündə olan dərgahın həmin məqamında 0,005 saniyəyə olur. Başqa cür deyilərsə, həmin məqamın zaman hesabı ilə 0,005 saniyədə olan, yer üzü zaman hesabı ilə bir günə *(24 saata)* olar.

**Əl-Bəqərə-30** – da (*Allah onlara*:) "Mən bildiyim **şeyi** siz bilmirsiniz!" – buyurdu.

Sual olunur: Allahın bildiyi **"şey"** nə idi ki, onu mələklər bilmirdilər?

**Əl-Bəqərə-31.** (*Allah Adəmi yaratdıqdan sonra*) Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları (*həmin şeyləri*) mələklərə göstərərək "*(iddianızda)* doğrusunuzsa, bunların adlarını Mənə bildirin!" – dedi.

Adlarını, isimlərini sözlə öyrətdi. Allahın Adəmə öyrətdiyi sözlər haqq sözlər idi. Haqq sözlərdən yaranan haqq şəkillərə **(ağılda)** hiss keçirən Adəm *(şəkil + hiss*) niyyət etdi. Edilən niyyət qəlbə yazıldı. Allahın öyrətdiyi haqq sözlərin yaratdığı gözəl niyyətdən Allah razı oldu. O *niyyət (yazı)* ki, yaşananda ancaq qəlbdəki *(niyyətdə, yazıda olan)* şəkilləri Adəm istəyə bilərdi. Və dərgahın yuxarı məqamının zaman müstəvisi olduğundan, həmin an qəlb yazısından yaranan şəkillər Adəmə yaxınlaşardı *(yəni materiallaşardı*). Yaxınlaşan Cənnət olardı. Cənnətdə sakin olan Adəm, istədiyi an hazır olan tükənməz Cənnət nemətlərindən istifadə edib, Allah razı olar ümidi ilə sevinərdi və şükür edərdi *(ruhu həzz alardı)*

**Ən-Nur-35-**də deyilir: "O ruh, xoş bir sözün (*insan ağlında*) yaratdığl şəkilə keçirilən hiss nəticəsində həzz alır. O (*həzz)* nur üstündə nurdur"...

Adəmə yaxınlaşan Cənnət nemətlərinin ağılda yaratdığı şəkillər *(şəkil + hiss = niyyət)* yenidən Allahın razı olacağı, gözəl niyyətlər yazardı. Beləliklə, qapanmış *(yazı)* niyyət → yaşam → şəkil → niyyət *(yazı)* dövriyyəsi Adəmə imkan verərdi ki, tükənməz Cənnət nemətlərinin onda yaratdığı sevgini *(nurərəfəsi enerjini)* təmənnasız sevgiyə *(ilkə – Nura)* çevirsin. Bununla da Adəm sanki "Nur generatoru"na çevrilərdi. Elə bir "Nur generatoru"na ki, tükənməz Cənnət nemətlərinin yaratdığı tükənməz sevgini, daimi – əbədi olaraq *(ilkə)* Nura çevirərdi. Görünür, insandan da sonda istənilən budur. **Axirətə – "qovulduğu" yerə əbədi "Nur generatoru" kimi qayıtmaq.**

**Əl-Bəqərə-32**. Onlar: "Sən paksan, müqəddəssən! *(Bütün eyib və nöqsanlardan kənarsan!)* Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. *(Hər şeyi)* bilən Sən, Hikmət sahibi Sənsən", – dedilər.

Təbii ki, Allahın mələklərin qəlblərinə yazdığından başqa onlar "heç bir şey bilmir"lər.

**33**. *(Sonra)* O: "Ey Adəm, bunların *(kainatda mövcud olan əşyanın*) adlarını onlara biildir!" – dedi. (*Adəm*) onlara *(mələklərə)* bunların adlarını xəbər verdikdə (*Allah)*: "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində – aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" – buyurdu.

Bununla Allah mələklərə "göylərin və yerin gözə görünməyən sirlərini və sizin" *(mələklərin və ya cinlərin)* "gizlində – aşkarda" nə etdiklərini bildiyini onlara əvvələr də söyləməsini xatırladır. Yəni mələklərə Allahın gizlini – aşkarı bildiyi əvvəlcədən deyilmişdi. Və sonradan "oradan" – səmalardan qovulan İblis də bunu eşitmişdi, bilirdi. Görünür dərgah zaman müstəvisində olan varlıqlardan hansısa Allahın, onların "gizlində – aşkarda nə etdikləri"ni bildiyini unudub, özünündə bilmədiyi, Allahın razı olmayacağı nəyisə "gizlində" etmişdi. Allahın bildiyi qəlbə yazılandır, niyyətdir. O niyyət ki, aşkara çıxanda, *(yazılan yaşanır, yazılar pozula bilməz – qanununa görə)* yaşananda əmələ çevrilir. Qəlbə yazılan, *(gizlin)* yaxşı niyyət *(şəkil + hiss, Allahın, aşkara*

*çıxanda – yaşananda razı ola biləcəyi)* mütləq yaxşı əməl kimi ortaya çıxır. Əks halda qəlbə yazılan *(gizlin)* pis niyyət *(şəkil + hiss, Allahın, aşkara çıxanda – yaşananda razı ola bilməyəcəyi)* mütləq pis əməl kimi ortaya çıxır.

Ona görə də Allah Özündən başqa heç kimin bilmədiyi "gizlin" ortaya çıxsın *(yaşansın)* deyə, mələkləri və cinləri başqa bir formada imtahan etdi:

**Əl-Bəqərə-34**. *(Ya Peyğəmbər!)* Biz mələklərə: "Adəmə səcdə edin!" – dedikdə İblisdən başqa *(Hamısı)* səcdə etdi. *(Yalnız)* o, lovğalanaraq (*səcdə etməkdən*) imtina etdi və kafirlərdən oldu.

Sualın cavabı budur ki, Allahın bildiyi **"şey"** İblisin özü də bilmədən qəlbinə yazdığı *(şəkil + hiss)* niyyət *(gizlin)* idi*.* Və o, mələklərin də bilmədikləri idi. "Gizlinləri" *(niyyətləri)* bilən Allah ona görə *(onlara:)* "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu.

İblisin qəlbinə yazdığının (pis niyyətin) ortaya çıxması və hamıya (İblisin özünə də – o da tövbə edə bilərdi) ibrət olması üçün Allah imtahan etdi. İblis imtahandan çıxa bilmədi.

**Əl-Bəqərə-34**. "o, lovğalanaraq *(səcdə etməkdən)* imtina etdi və kafirlərdən oldu", gizlin aşkara çıxdı, yəni nə vaxtsa İblisin lovğalıq hissi ilə *(şəkil + hiss)* qəlbinə yazdığı niyyət ortaya çıxdı. Yazılar pozula bilməz qanununa görə, yazılanlar mütləq yaşanır.

**Əl-Ənam-54**. "Rəbbiniz Özü-Özünə Rəhimli olmağı yazmışdır".

Ona görə də İblis Allahın "gizlinləri" bildiyini, hər şeyin əvvəlcə *(şəkil + hiss = niyyət)* qəlbə yazılaraq və sonra mütləq olaraq yaşandığını, günahların birinci niyyətlərdə edildiyini unutduğu üçün, Allahın razı ola bilməyəcəyi, yalnız öz "məninin" *(eqo)*, faninin razı olacağı, öz yazdığı taleyini yaşamağa başladı. Faniyə olan sevgi *(Nurərəfəsi enerji)* Nura *(İlkə)* çevrilmədi. Dünya sevgisi dünyada qaldı. İblis qəlbinin yazısına uyğun olaraq, tövbə edib Allaha tərəf yönələ bilmədi.

**Əl-Nisa-17**. Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra

dərhal tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edir! Həqiqətən, Allah *(hər şeyi)* biləndir, hikmət sahibidir!

**18**. Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim" – deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!

Yəni "***Ən-Nisa"*** surəsinin ***17***-ci ayəsində göstərildiyi kimi, "dərhal tövbə" etmədi. Pis nuiyyəti pis əmələ çevrildi. Pis əməlin yaratdığı şəkillərə hislər keçirərərk yeni-yeni pis niyyətlər yazdı. Doğru yoldan – Nur istehsalı yolundan azdı, fanidən ötrü fanini sevərək, faninin "Tanrısı"na çevrildi.

Müqəddəs kitablardan "İncil"ə müraciət edək:

**8.** İblis təkrar İsanı çox yüksək bir dağın üstünə gətirdi və Ona dünyanın bütün padşahlıqlarını və onların izzətini göstərdi;
**9.** Və İblis dedi: "Əgər yıxılıb mənə səcdə qılsan, bütün bu şeyləri Sənə verərəm.
**10.** O zaman İsa ona dedi: "Rədd ol Şeytan, zira: 'Rəbb Allahına səcdə qıl və yalnız Ona qulluq et', deyə yazılmışdır".[1]

Bütün bunlardan belə nəticə çıxmasın ki, yalnız İblisin "gizlində" etdiyini üzə çıxartmaq üçün Allah Adəmi yaratdı və "bütün şeylərin adlarını öyrətdi".

Məsələnin ən incə məqamı da ondadır ki, bu dünya, şəhadət dünyası da *(ilkdən)* Nurdan çevrilmələrin nəticəsidir. Və bu dünyanı var edən enerji çevrilmələrinin sonunda fani dünya dəyərələrini sevəcək, Nurərəfəsi enerji toplayacaq, *(təmənnalı sevgi)* sonra da onu Allah razı olar ümidi ilə *(ilkə)* Nura *(təmənnasız sevgiyə)* çevirəcək, iradə azadlığı verilmiş, İblisin bacara bilmədiyi ən ağır, şərəfli işi yerinə yetirəcək bir varlığa ehtiyac

---

[1] İncil. Əhdi Cədid. Bibliya tərcümə İnstitutu, 1982, 1991. Tərcümə edəni: Mirzə Mixaeli. Matta, dördüncü fəsil.

yaranmışdı. Kainatın varlığının Allahdan sonra əsası olan *(ilkin)* Nurun təkrar istehsal olunub yerinin doldurulmasını təmin etmək üçün Adəm yaradıldı.

**Əl-Əhqaf-15**. Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun daşınma və kəsilmə müddəti otuz aydır. Nəhayət, kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: "Ey Rəbbim! Mənə, həm mənim özümə, həm də ata-anama əta etdiyin nemətə şükr etmək və Sənə xoş gedəcək **yaxşı əməl etmək üçün ilham ver**, nəslimi əməli saleh et. Mən *(günahlardan)* Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam!" *(doğru yolu tapanlardan, Nur istehsalçılarındanam)*.

"Kamillik həddinə yetişib qırx yaşına çatdıqda" – yəni fani dünyanı duyub, sevib – təmənnalı sevgi – nurərəfəsi enerji – fani dünya sevgisi toplayıb, belə deyər: "...əta etdiyin nemətə şükr etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməli saleh et", yəni bu ayənin sözlərindən yaranan *(şəkil + hiss = niyyət)*i qəlbimə yazmağımı istə.

**Əl-İnsan-30**. **Allah istəməsə**, siz istəyə bilməzsiniz. Həqiqətən, Allah biləndir, hikmət sahibidir!

**Ət-Təkvir-29**. *(Onu da bilin ki)* aləmlərin Rəbbi olan **Allah istəməsə** siz istəyə bilməzsiniz!

Belə çıxır ki, insana, azad iradə sahibi kimi ruhunun yaddaşı olan qəlbinə yazdıqlarının *(yer üzü zaman müstəvisinə görə gizlini, şəhadət gözünün görmədiyini, lakin dərgahın uyğun məqamının zaman müstəvisinə görə aşkarı – yəni həmin an görünəni)* ona verilməsini təmin edən, bir olan ümumi ruh dünyasında *(qeybdə)* işlərin düzülüb qoşulmasını əlaqələndirən ruhudur. Ruh isə Allahın əmrində olduğu üçün "aləmlərin Rəbbi istəməsə" insan istəyə də bilməz.

**Əl-İsra-79**. *(Ya Rəsulum!)* Gecənin bir vaxtı durub ancaq Sənə xas olan əlavə *(təhəccüd)* namazı qıl. Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama *(axirətdəki ən böyük şəfaət*

*məqamına)* göndərsin! "Ola bilsin ki", – yəni əgər təhəccüd namazının yaratdığı niyyət *(şəkil + hiss = niyyət)* ruhunun yaddaşına *(qəlbinə)* yazılsa, Allahın müjdə verdiyi ola bilər.

**Quranda cinlər aləmi barədə informasiya verən ayələrə nəzər yetirək:**

**Ər-Rəhman-15**. *(Cinlərin əcdadı)* cannı da tüstüsüz oddan O, xəlq etdi.

**Ər-Kəhf-50**. *(Ya Rəsulum!)* xatırla ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" – demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən *(cin tayfasından)* idi. O, öz Rəbbinin əmrindən çıxdı. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və nəslini (övladını özünüzə) dostmu tutursunuz? Bu, zalımlar üçün necə də pis dəyiş-düyüşdür!

**Ər-Hicr-27**. *(Cinlərin babası)* can tayfasını daha öncə *(insandan əvvəl)* tüstüsüz oddan xəlq etmişdik.

**Əl-Əhqaf-29**. *(Ya Peyğəmbər!)* onu da xatırla ki, bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə hazır olduqda *(bir-birinə)*: "Qulaq asın!" – dedilər və *(Quran oxunub)* qurtardıqdan sonra *(həmcinslərini Allahın əzabı ilə)* qorxudanlar sifətilə öz qövmlərinin yanına qayıtdılar.

**30**. Onlar dedilər: "Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri *(Tövratı, İncili, Zəburu və Səhifələri)* təsdiq edən, haqqa və doğru yola yönəldən bir kitab dinlədik!

**Əl-Cinn-4**. Doğrusu, bizim safehimiz *(İblis)* Allah barəsində **tamamilə yalan** *(haqqdan uzaq sözlər)* söyləyirmiş.

**5**. Biz elə **güman edirdik** ki, nə insan, nə də cin tayfası Allah barəsində **yalan danışmaz.**

**6**. Həqiqətən, bəzi insanlar bir para **cinlərə pənah aparır**, bununla da onların **təkəbbürünü** artırırdılar.

**7**. Onlar da siz təkin elə **güman edirdilər** ki, Allah heç kəsi diriltməyəcəkdir.

**8**. **Biz göyə qalxmaq istədik**, amma onun güclü gözətçilər və yandırıb-yaxan ulduzlarla dolu olduğunu gördük.

**9.** Biz qulaq asmaq üçün **bəzi yerlərində oturur-duq**. Lakin indi kim **qulaq asmış** olsa yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər.

**10** Biz bilmirik ki, yerdə olanlara bir **pislik etmək istənilmişdir**, yoxsa Rəbbi onlara bir **xeyir** diləmişdir.

**11.** Şübhəsiz ki, aramızda **əməlisaleh** olanlar da var, **olmayanlar da**. Biz muxtəlif firqələrə ayrılmışıq.

**12.** Biz anladıq ki, yerdə də olsaq, *(göyə də)* qaçsaq, Allahdan canımızı qurtara bilmərik.

**13.** Doğrusu, biz **hidayət yolunu göstərəni** dinlə-diyimiz zaman ona iman gətirdik. Kim Rəbbinə iman gətirsə, nə əskilməsindən, nə də haqsızlığa məruz qalmasından qorxar.

**14.** Şübhəsiz ki, aramizda **müsəlmanlar da var**, *(haqq yoldan)* **çıxanlar da**. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır.

**15.** Çıxanlar isə Cəhənnəm üçün odun olacaqlar.

**Ər-Hicr-16.** Biz səmada bürclər yaratdıq, onları baxanlar üçün bəzədik.

**17. Onları hər bir məlun Şeytandan qoruduq.**

**18.** Lakin *(şeytanlardan)* kim *(mələklərin söhbətinə)* xəlvəti qulaq assa, onu odlu bir axan **ulduz təqib edər.**

**Ər-Kəhf-51.** Mən onları nə göylərin, nə yerin yaradılışına, nə də öz yaradılışlarına şahid etmədim və Mən *(insanları haqq yoldan)* çıxaranları **Özümə köməkçi də tutmadım.**

**Əs-Saffat-6.** Biz *(sizə)* ən yaxın olan göy üzünü *(dünya sə-masını)* ulduzlarla bəzədik.

**7**. *(Biz həm də göyü)* **İtaətdən çıxmış hər bir şeytandan qoruduq.**

**8.** Onlar **ali bəzmə qulaq asa bilməz və hər tərəfdən qovulub atılar.**

**9.** *(Səmadan)* kənar edilərlər. Onları daimi bir əzab gözləyir!

**10. Ancaq çırpışdıran olsa**, onu dərhal yandırıb-yaxan bir ulduz təqib edər.

**Əl-Mülk-5.** And olsun ki, Biz dünya səmasını *(yerə ən yaxın olan göyü)* **qəndillərlə bəzədik**, onları şeytanlara atılan mərmilər etdik və onlar *(şeytanlar)* üçün yandırıb-yaxan alovlu atəş əzabı hazırladıq.

**Ən-Nas-1.** *(Ya Peyğəmbər!)* De: "Pənah aparıram insanların Rəbbinə;

**2.** İnsanların ixtiyar sahibinə;

**3.** İnsanların tanrısına;

**4.** Vəsvəsə verən, *(Allahın adı çəkiləndə isə qorxusundan)* qaçıb gizlənən Şeytanın şərindən -

**5.** O Şeytan ki, insanların ürəklərinə vəsvəsə salır,

**6.** *(O Şeytan ki)* cinlərdən də olur, insanlardan da!"

Dedik ki, doğru yoldan – nur istehsalı yolundan azmış, fanidən ötrü fanini sevərək öz qəlbinə Allahın razı ola bilməyəcəyi niyyəti yazmış *(o niyyət ki, yaşananda, əmələ çevriləndə, dünya sevgisi – təmənnalı sevgi, ilahi sevgiyə – təmannasız sevgiyə – nura çevrilmir)* İblis *(nəfs)* faninin "tanrısına çevrildi". *(İkin)* Nurun aid olduğu dərgah məqamından *("səmalardan", yüksəkdən, dərgah zaman müstəvisindən)* dünya sevgisinin *(nurərəfəsi enerji)* aid olduğu yer üzü məqamına *(yer üzü zaman müstəvisinə)* – yəni cənnət dərgah məqamına münasibətdə "alçağa", dünya sevgisi məqamına, yer üzünə bağlandı. Gizlinləri bilən Allahın imtahanında bu bağlılıq aşkara çıxdı.

**Əl-Əraf-12.** *(Allah İblisə):* "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" – deyə buyurdu. *(İblis:)"* Mən ondan daha yaxşıyam, çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" – dedi.

**13**. *(Allah)* buyurdu: "Oradan *(Cənnətdən)* aşağı en. Orada sənə *(Allahın əmrinə)* təkəbbür göstərmək yaramaz. *(Oradan)* çıx, çünki sən alçaqlardansan!"

İndi İblisin qovulduğu, sonra da Adəmi və Həvvanı aldadaraq "qovdurdu"ğu dərgah məqamının zaman müstəvisini hesablamaq üçün "**Əl-Həcc"** surəsinin **47**-ci ayəsində insanlara ünvanlanmış informasiyaya nəzər salaq: "*(Ya Rəsulum!)* Onlar səni tələsdirib əzabın tez gəlməsini istəyərlər. Allah Öz vədinə əsla xilaf çıxmaz! Rəbbinin dərgahında bir gün sizin saydığınızın *(hesabladığınız vaxtın)* min ili kimidir".

Ayə, "dərgah" zaman hesabını, yer üzü zaman hesabı ilə *("sizin saydığınızın")* müqayisədə, dərgahın bir gününü yer üzünün min ili kimi təqdim edir. Belə çıxır ki, "dərgahda" bir günə olan, yer üzündə min ilə olur,

1 gün = 86400 san.

1000 il = 365000 gün

86400 san. : 365000 gün = 0.23671233 san. /gün.

Belə çıxır ki, "dərgahda" təqribən 0.237 saniyəyə olanın yer üzündə baş verməsi üçün bir gün keçir.

Bu hesablamanın doğruluğunu yoxlamaq üçün zamanla bağlı informasiya verilən başqa ayələrə nəzər salaq:

**Ər-Rum-55**. Qiyamət qopacaği gün günahkarlar **bir saatdan artıq qalmadıqlarına** and içərlər. Onlar belə döndərilirdilər.

**Yunus-45**. *(Allah müşrikləri)* **gündüz bir saat belə *(dünyada)* olmamışlar kimi**, bir yerə toplayacağı gün *(qiyamət günü)* onlar bir-birini tanıyacaqlar. Allahla qarşılaşacaqlarını yalan hesab edənlər, sözsüz ki, ziyana uğrayacaqlar. Onlar heç doğru yolda da deyildilər.

Yer üzü zaman hesabı ilə orta ömür həddini yetmiş il götürsək və onu günə çevirsək:

70il × 365 gün = 25550 gün

25550 gün *(yer üzü zaman hesabı ilə)* yaşamış insan dərgah zaman hesabı ilə neçə müddət yaşamış hesab olunar?

25.550 gün × 0.237 san *(yer üzünün bir günü dərgahın 0.237 saniyəsinə bərabər olduğunu yuxarıda hesablamışdıq)* = 6055.35 san

6055,35 san. : 60 = 100,9225 dəq., təqribən 101 dəqiqə.
101 dəq. : 60 = 1,6833 saat, təqribən 1.7 saat.

**Yunus-45**-də "gündüz bir saat belə *(dünyada)* olmamışlar" – yazılır. Gündüz bir günün yarısıdır, o biri yarısı isə gecədir.

Onda 1,7 saat : 2 = 0,85 saat = 51 dəq.

Deməli, yer üzü zaman müstəvisində yaşanan 70 il ömür, dərgah zaman müstəvisində 51 dəqiqədir. Beləliklə, "gündüz bir saat belə *(dünyada)* olmamışlar kimi..." informasiyası özünün tam təsdiqini tapır.

Zaman müstəviləri ilə əlaqədar əlaqədar olaraq Quranda verilən informasiyalardan biri də Qədir gecəsi haqqındadır.... Qədr3.Qədr gecəsi min aydan daha xeyirlidir!...ayəsində min aydan daha xeyirli olan gecənin hansı zaman müstəvisi kimi verilməsini və eyni zamanda həmin gecənin nə qədər davam etdiyini hesablayaq.

**Əl-Həcc** surəsinin **47**-ci ayəsində... Rəbbinin dərgahında bir gün sizin saydığınızın *(hesabladığınız vaxtın)* min ili kimidir" və Məaric surəsinin 4- cü ayəsində... Mələklər və ruh (Cəbrail) Onun dərgahına (dünya ilə müqayisədə) müddəti əlli min il olan bir gündə qalxarlar... da verilən fərqli zaman müstəvilərinin 1000 il = 1 gün və 50.000 il = 1 gün müqayisəsini gün = san kimi hesabladıqda "dərgah"ın təqribən 0.237 saniyəsi ilə 0.005 saniyəsi yer üzünün bir gününə bərabər olmuşdu.Eyni qayda ilə yer üzünün 1000 ayı = dərgahın 1 gecəsi müqayisəsinə baxaq:

Bəqərə 97. (Ya Rəsulum!) Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Quranı) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiqləyici, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə *sənin qəlbinə* o nazil etmişdir.

Yer üzünün 1000 ayına bərabər olan Qədr gecəsi yer üzünün +

a) 1000 ilinə və

b) 50.000 ilinə

+ bərabər olan ... Rəbbinin qat ... larında hansı zaman kəsiyini əhatə edər.

a) 1000 il x 12 ay = 12.000 ay.

12.000 ay 1000 aydan 12 dəfə çoxdur.Uyğun olaraq zaman sürətidə 12 dəfə çox olacaq- yəni zaman 12 dəfə tez keçəcək.

~ 0.237san. / gün: 12 = 0.01975 san / gün.

0.01975 san / gün. : 2 (bir gün=gecə + gündüz) = 0.009875san. / gün

0.009875san. / gün x (1000 ay x 30 gün = 30.000 gün) = 296.25 san

296.25 san: 60 san = 4.9375 dəq. = ~ 5 dəq.

Yer üzünün 1000 ilinə bərabər 1 günün var olduğu qatın (Bəqərə 97....*sənin qəlbinə* o nazil etmişdir...) zaman sürətinə görə Qədr Gecəsinin uzunluğu ~ 5 dəqiqəyə bərabərdir.

b) 50.000 ildə 1000 ildən 50 dəfə çoxdur. Uyğun olaraq vaxt sürətidə 50 dəfə çox olacaq- yəni zaman 50 dəfə tez keçəcək..

~ 5 dəq. : 50 = ~ 0.1dak. = ~ 6 san.

Yer üzünün 50.000 ilinə bərabər 1 günün var olduğu qatın (Bəqərə 97....*sənin qəlbinə* o nazil etmişdir...) zaman sürətinə görə Qədr Gecəsinin uzunluğu ~ 6 saniyəyə bərabərdir.

Qədr 4.O gecə mələklər və ruh (Cəbrail) Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər.

Ənbiya4. (Peyğəmbər belə dedi: "Rəbbim göydə və yerdə hər sözü bilir. O, (hər şeyi) eşidəndir, biləndir!"

Bəqərə 34. (Ya Peyğəmbər!) Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu.

Yunus 61.(Ya Peyğəmbərim!) Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın!

Qədr Surəsi:

1.Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi nazil etdik!

2.(Ya Peyğəmbər!) Sən nə bilirsən ki, Qədr gecəsi nədir?!

3.Qədr gecəsi (savab cəhətdən) min aydan daha xeyirlidir!

4.O gecə mələklər və ruh (Cəbrail) Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər.

5.O gecə dan yeri sökülənə kimi (büsbütün) salamatlıqdır!

Bundan əvvəl "**Əl-Məraic"** surəsinin 4-cü ayəsində: "Mələklər və ruh *(Cəbrail)* Onun dərgahına müddəti əlli min il olan bir gündə qalxarlar" – ayəsində eyni qayda ilə hesablanmış zaman, yer üzünün bir günü "mələklər və ruh"un yüksək məqamlarının yerləşdiyi dərgah zaman hesabı ilə təqribən 0.005 saniyəyə bərabər olmuşdu. Deməli varlıqlar Allaha yaxınlığl dərəcəsinə görə dərgah məqamlarını haqq ediblər, və Allaha yaxınlaşdıqca zaman azalır, yəqin ki, kainatın "sonsuz kiçik nöqtə kimi olduğu vaxt", Allahın da: "Ol!" – deyərək yoxdan yaratdığı ana yaxınlaşdıqca zaman yox olur.

Belə çıxır ki, yer üzü zaman hesabı ilə müqayisədə qeybdə zaman yoxdur, yəni dərgahın dərəcələrinə, məqamlarına uyğun olaraq da özünün zaman müstəvisi vardır. Misal olaraq göstərmək olar ki, cənnət və cəhənnəmin dərgah "mərtəbəsinə", məqamına uyğun dərgah zaman hesabı 0.237 saniyədir *(yer üzü zaman hesabı ilə müqayisədə)*. Görünür ki, insan ağlı da hamin dərgah zaman müstəvisində işləyir. Belə demək olar: "Dərgah zaman sürəti ilə işləyir"*.* Yəni ağlın şəkil + hiss = niyyət mexanizmi ilə ruhun yaddaşına – qəlbə 0.237 saniyədə yazdığı dərgahda *(qeybdə)* həmin an olur, sadəcə qəlbə yazılanın yer üzü zaman sürəti ilə yer üzündə ortaya çıxması, görünməsi üçün bir gün lazım gəlir.

Buna görə də Quranda, dərk etmədiklərinə görə kafir olanlar, peyğəmbərlərin qorxutduqları əzabın tez gəlməsini istəsələr də bu, mümkün olmur.

**Əl-Ənfal-32**. Bir zaman da: "Ya Allah! Əgər bu *(Quran)* Sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir əzab göndər!" – demişdilər.

**33.** Halbuki sən onların arasında ola-ola Allah onlara əzab verən deyildir. *(Tövbə edib)* bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!

**Hud-64**. "Ey camaatım! Allahın bu dişi dəvəsi sizin üçün bir möcüzədir. Qoyun Allahın torpağında otlasın, ona bir pislik etməyin, yoxsa şiddətli bir əzaba düçar olarsınız!

**65.** Onlar *(dəvəni)* tutub kəsdilər. *(Saleh də onlara)* dedi: "Daha üç gün yurdunuzda yaşayıb kef çəkin. Bu elə bir vəddir ki, yalan çıxmaz!"

**66.** *(Saleh tayfasının məhvi barəsində)* əmrimiz gəldikdə Bizdən bir mərhəmət olaraq Salehi və onunla birlikdə **iman gətirənləri xilas etdik** və o günün **rüsvayçılığından** qoruduq...!

**67.** O zülm edənləri qorxunc bir səs bürüdü və evlərində diz üstə çöküb qaldılar".

**Yunus-51**. O əzab gəldikdan sonramı ona inanacaqsınız? İndimi? Halbuki, siz onun tez gəlməsini istəyirdiniz!

Yuxarıdakı ayələrdən də görünür ki, ağıl, dərgah zaman sürəti ilə işləyir. Belə demək mümkündürsə, ağlın qəlbə yazdığı şəkillər qeybdə həmin an olur, sadəcə həmin an qeybdə olanın şəhadət dünyasında görünməsi üçün 0.237san = 1 gün hesabı ilə vaxt keçir.

Yenə də ayələrə müraciət edək. Dərgahın cənnət və cəhənnəm məqamları haqqında *(axirət)* verilən informasiyalarda: **"yaxınlaşacaq"**, **"yaxınlaşdırılacaq"**, **"axışacaq"**, "**istəyəcəklər"**, **"görünəcək"** və s. kimi ifadələr işlədilir:

**Əz-Zumər-48**. Onlara *(dünyada)* etdikləri pis əməllərin cəzası **görünəcək** və **istehza etdikləri** *(əzab)* onları **saracaqdır**!

**71**. Kafirlər dəstə-dəstə Cəhənnəmə **sürüklənəcəklər**.

**Ən-Nəcm-40.** Şübhəsiz ki, *(qiyamət günü)* Onun zəhməti *(əməli)* **görünəcəkdir**.

**Ər-Kəhf-108**. Onlar orada *(o cənnətlərdə)* əbədi qalıb oradan ayrılmaq **istəməyəcəklər!**

**Əl-Casiyə-33.** *(O gün dünyada etdikləri)* **pis əməllərinin cəzası** onların **gözünə görünəcək** və istehza etdikləri *(əzab)* onları **saracaqdır**! və s.

**Qiyamət günü haqq batildən ayrılacaq:**

**Əl-Qiyamə-14**. Doğrusu, insan **özü-özünə şahiddir.**

**Əl-Ənbiya-47**. Biz qiyamət günü üçün **ədalət tərəzisi** quranq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə onu *(hər hansı bir əməli tərəziyə)* gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik.

**Əl-Qiyamə** surəsinin **14**-cü ayəsində ("Doğrusu, insan özü-özünə şahiddir") açıq şəkildə bildirilir ki, qiyamət günündə və axi-

rət həyatında *(istər cənnət olsun, istərsə də cəhənnəm)* insan, dünya həyatı boyunca ruhunun yaddaşına *(qəlbinə)* hansı əməli *(niyyəti)* yazıbsa, yazılandan *(şəkil + hiss = niyyət)* başqa bir şey ıstəmək imkanı olmayacaq. Bu mənada insan "özü-özünə" şahiddir. Niyyətlər yaşananda əməl olur. Yəni qəlbə yazılan "gizlin", Allahın razı ola biləcəyi şəkildirsə, yaşananda *(istər əmin-amanlıq, istərsə də müsibətdə olsun)* mütləq Allah razı olar ümidi ilə həmin yaşanana hiss keçirilirsə, o an ruh "həzz" alır, – yəni insan nur istehsal edir. Qəlbə yazılanları istəməkdən başqa əlacı olmayan insan, qiyamətdə *(cənnət və cəhənnəmin var olduğu dərgah məqamının zaman müstəvisində)* 0.237 saniyədə istədiyi *(xatirələrin ağılda canlandırılmasına bənzəyir, lakin xatirələrdən fərqli olaraq materiallaşmış forma olduğuna görə "sarır"...)* o anda *(0.237 saniyədə)* onun özünə yaxınlaşacaqdır. Yəni özü həmin anda istədiyinin içərisində olacaqdır və "daşıdığı" niyyətlərinə *(qəlb yazısına)* şahidlik edəcəkdir. *(Haqq batildən, pis yaxşıdan, ışıq qaranlıqdan, nur zülmətdən ayrıldıqdan sonra, insanın qəlbində "qalanlar" özü tərəfindən istəniləcək və istədiyi də ona yaxınlaşacaqdır)*. Dünya dəyərlərinə olan sevgini, dünyada qoyub gələnlərin qəlblərinin yazısına uyğun olaraq onları zülmət *(nura çevirmədikləri üçün)* **bürüyəcəkdir.** Zülmət və atəş isə dərgahın axirət məqamının cəhənnəmində olur. Bunun əksi olduqda isə nur və sevinc *(rahatlıq, əmin-amanlıq, tükənməz ruzi, və s.)* **bürüyəcəkrdir**. Nur və sevinc isə dərgahın axirət məqamının cənnətində olur.

**"Əl-Hədid"** surəsinin 12-cü ayəsində "O gün mömin kişilərin və qadınların **nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını görəcəksən!**"ə əsaslansaq, qeyd oluna bilər ki, cənnəti haqq edən mömin kişi və qadınlar, dünya həyatında doğru yolu axtarıb tapmış və əbədi "nur generatoru"na çevrilməyi bacarmışdırlar. Və axirət həyatında da tükənməz cənnət nemətlətinn yaratdığı "sevgi selindən" nur istehsal edib əbədi səadətdə olacaqlar.

**Əl-Əraf-14**. *(İblis)* dedi: "Mənə qiyamətə qədər möhlət ver!" deyən İblis bu cümlənin yaratdığı şəklə hiss keçirməklə öz qəlbinə

yazdığını aldı. Qəlbə yazılanlar yaşanır və yazılar pozula bilməz qanununa görə niyyəti İblisə möhlət verilməsini təmin etdi.

**15**. *(Allah)* buyurdu: "Sən möhlət verilənlərdənsən!"

**16**. *(İblis)* dedi: "Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub **insanlara mane olacağam!**"

Allahın yaratdığı qanunlar *(yazılar pozula bilməz)* İblisin öz qəlbinə yazdığı taleni ona yaşatdığına görə, İblis: "Sən məni azdırıb yoldan çıxartdığın üçün" – deyir. İblisin tale yazısına görə Allaha "Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam!" – deməkdən və qiyamətə qədər bu işi görməkdən başqa çıxış yolu yox idi.

**17**. Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm *(soxulacağam)* və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!

Bu ayədəki ilk baxışdan sadə görünən hər bir anlayışın arxasında çoxqatlı mənalar durur. Məsələn:

1-ci. "Qarşılarından", önlərindən – yəni gələcəklərindən, xəyallarından, fantaziyalarından, arzularından.

2-ci. "Arxalarından" – yəni keçmişlərindən, xatirələrindən.

3-cü. "Sağlarından" – yəni inamlarının, imanlarının *(qiyamət gününə, axirət həyatına münasibətdə dərk olunmayan kortəbii inamın, imanın)* imtahanından.

4-cü. "Sollarından" – yəni fani dünyanın, hər an onlara göstərdiyi şəkillərə münasibətləridən.

1-ci

"Qarşılarından" – **Əl-Həcc-52**. *(Ya Rəsulum!)* Biz səndən əvvəldə elə bir rəsul, elə bir nəbi göndərmədik ki, o, *(hər hansı bir şeyi)* arzu etdikdə Şeytan onun arzusuna (diləyinə vəsvəsə yolu ilə) bir xələl qatmasın! *(Yaxud o, ayələrimizi oxumaq istədiyi zaman Şeytan onu çaşdırıb oxuduğu ayə barəsində pis bir fikir təlqin etməsin!).*

2-ci

"Arxalarından" – yəni keçmişlərindən, xatirələrindən *(ağıl və qəlb yaddaşına yazılanlardan)...* "gələcəyəm"... *(soxulacağam)* – **Əl-Həcc-53.** *(Allah ona görə belə edir ki)* Şeytanın vəsvəsəsini **qəlblərində mərəz** *(nifaq)* və **ürəkləri qatı** olanlar üçün bir sınaq vasitəsi etsin. Şübhəsiz ki, zalımlar haqqdan uzaq bir nifaq içindədirlər.

**Əl-Hucurat-12**. Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi günahdır. *(Bir-birinizin ayıbını, sirrini)* arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar! *(qeybət də belədir)* Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!

3-cü

"Sağlarından" – yəni inamlarının, imanlarının imtahanından. **Ər-Rəd-5.** *(Ya Rəsulum!)* Əgər təəccüblənirsənsə, əsl təəccüblənilləsi onların: "Biz torpaq olduqdan sonra yenidənmi yaradılacağıq?" – söyləməsidir. Onlar Rəbbini inkar edənlərdir. Boyunlarında zəncir olanlar da onlardır. Onlar Cəhənnəmlikdirlər, özü də orada əbədi qalacaqlar.

**Yusuf-105.** Göylərdə və yerdə *(Allahın birliyini sübut edən)* neçə-neçə əlamətlər *(nişanələr)* vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər. *(Onlara baxıb ibrət almaz, onların həqiqi mənaları haqqında düşünməzlər.)*

**106.** Onların əksəriyyəti ancaq şərik qoşaraq Allaha inanarlar.

4-cü

"Sollarından" – yəni məhdud, fani dünyanın, hər an onlara göstərdiyi həyat səhnələrinə *(şəkillərə)* münasibətlərindən "gələcəyəm", soxulacağam.

**Əz-Zuxruf-33.** Əgər insanların *(müşriklərin cah-calal içində yaşadıqlarını görüb cahillikləri üzündən küfrdə birləşəcək)* bir tək ümmət olmaq ehtimalı *(təhlükəsi)* olmasaydı, Rəhmanı inkar edənlərin *(axirətdə əzabını daha da artırmaq məqsədilə)* evlərinin

tavanlarını və *(damlarına)* çıxdıqları nərdivanları gümüşdən edərdik.

**34**. Eləcə də evlərinin qapılarını və söykəndikləri taxtları *(gümüşdən düzəldərdik)*

**35**. Və *(bunlardan əlavə onları)* qızıl bəzəklər *(için-də qərq edərdik, yaxud həmin şeyləri qızıldan düzəldərdik)* Həqiqətən, bütün bunlar fani dünya malıdır. Axirət *(Cənnət)* isə sənin Rəbbinin yanında ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlər üçündür!

**36**. Hər kəs Rəhmanın **zikrindən boyun qaçırsa**, Biz ona **Şeytanı urcah edərik** və onun *(Şeytanın)* yaxın dostu olar.

**37**. *(Şeytanlar)* onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər!

İblisin: "**Əl-Əraf"** surəsinin **16**-cı ayəsində ifadə olunmuş "Sə-nin düz yolunun üstündə oturub insanlara mane olacağam!" – təhdidi, əslində "Nur istehsalına imkan verməyəcəyəm!" – deməkdir. Yəni İblis bildirir ki, insanların arzularından, xatirələ-rindən doğan və məhdud-fani dünyanın hər an göstərdiyi şə-killərdən qəlblərinə yazdıqları *(şəkil + hiss = niyyət)* niyyətlərə, onlara vəsvəsə verməklə *(dünyanı yaxşı, əbədi kimi göstərməklə)* "bir xələl" qatacağam, çalışacağam ki, qəlblərinə, gələcəkdə yaşanması *(yer üzü zaman müstəvisi)* mütləq olan fani dünyanın razılığlnı qazanmaqdan ötrü niyyətlər yazsınlar. O niyyətlər ki, yaşananda əmələ çevrilərək dünya sevgisinin *(nurərəfəsi enerjinin)* nura çevrilmədiyi pis əməl şəkli kimi yenə də qəlbə yazılır.

Lakin qeyd etmək lazımdır ki, İblis, ağlın da aid olduğu uyğun məqamın dərgah zaman müstəvisindən qovulduğu üçün insanın iradəsi xaricində, ağlının "xəbəri" olmadan qəlbə nə isə yaza bilmir: **Əl-Əraf-13**. *(Allah)* buyurdu: "Oradan *(Cənnətdən)* aşağı en. Orada sənə *(Allahın əmrinə)* təkəbbür göstərmək yaramaz. *(Oradan)* çıx, çünki sən **alçaqlardansan!** "Yəni – ancaq **"alçaqlar"**da – yer üzü zaman müstəvisində fəaliyət göstərə bilərsən. Bu baxımdan İblisin yeganə yolu, vəsvəsə verib təlqin

etməklə öz istədiyini insana **yazdırmaqdır. Bunun üçün bütün fani dünya onun "ixtiyarındadır".**

**Əl-İsra-64**. Onlardan kimi bacarırsansa, **səsinlə *(vəsvəsənlə)* yerindən oynat**, atlı və piyadanı onlara qarşı səfərbər et, *(onları harama, zinaya sövq etməklə)* mallarına və övladlarına ortaq ol, onlara cürbəcür *(yalan)* vədlər ver. Şeytan *(ona uyanlara)* yalnız yalan vəd verər.

**"Əl-Əraf"** surəsinin **17**-ci ayəsindən çox maraqlı bir məqam ortaya çıxır. Bəlkə də xristianlıqdakı xaç çevirmənin mənası bu ayədə açıqlanir: "qarşılarından *(önlərindən)* və arxalarından, sağlarından və sollarından gələcəyəm" – deyən İblisdən qorunmaq üçün Allaha sığınmaqdan başqa yol olmadığına görə yəqin ki, əl hərəkəti ilə ön və arxa, sağ və sol istiqamətlərinə fikrən yönəlməklə belə dua etmək lazım gəlir: "Ey Allahım! Mən, İblisin vəsvəsə ilə arzularıma qatacağı xələldən, xatirələrimə qatacağı xələldən, imanıma qatacağı xələldən, fani, məhdud dünyanın hər an göstərdiyi şəkillərə qatacağı xələldən Sənə




sığınıram. Məni qoru.

**Əl-Əraf-200**. Əgər sənə Şeytandan bir **vəsvəsə gəlsə** *(fəsad toxunsa)*, **Allaha sığın**, şübhəsiz ki, Allah *(hər şeyi)* eşidəndir, biləndir!

**201**. Allahdan qorxanlara Şeytandan bir vəsvəsə *(zərər)* toxunduğu zaman onlar *(Allahın əzabını, lütfünü və mərhəmətini)* xatırlayıb düşünərlər və dərhal *(gözləri açılıb)* görən olarlar.

**Ən-Nəhl-98**. *(Ya Rəsulum!)* Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın!

**99**. Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur!

**100**. Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir!

**Məryəm-83**. *(Ya Rəsulum!)* Məgər kafirlərin üstünə onları yoldan çıxardıb günaha sövq edən şeytanları göndərdiyimizi görmədinmi?

**Əl-Əraf-18**. *(Allah)* buyurdu: "Oradan *(Cənnətdən)* rüsvay olmuş və *(mərhəmətimdən)* kənar edilmiş *(qovulmuş)* halda çıx. Onlardan *(insanlardan)* hər kim sənə uysa, *(cəzasını alacaq)*. Əlbətdə, Cəhənnəmi sizin hamınızla dolduracağam!"

"Oradan *(Cənnətdən)* rüsvay olmuş və *(mərhəmətimdən)* kənar edilmiş *(qovulmuş)* halda çıx": İblisin öz qəlbinə yazdığı batil *(şəkil + hiss = niyyət)* ortaya çıxmayana qədər yaranmışlardan "gizlin"də idi. Gizlinləri bilən Allaha görə, Allahın razı olmayacağı batil, pis niyyət "ayıb" oldu və həmin yazı "Adəmə səcdə edin" deyilmə məqamında aşkara çıxdı, əmələ çevrildi. "Gizlin"dəki "ayıb"ı hamı bildiyl üçün İblis "rüsvay" oldu. İblis "rüsvay olmuş və kənar edilmiş halda", "rüsvay"ın aid olduğu yer üzü zaman müstəvisinə enmək üçün Allahın əmri ilə Cənnətdən çıxdı.

**Əl-Əraf-19**. Ey Adəm! Sən zövcənlə birlikdə Cənnətdə sakin ol. Hər ikiniz istədiyiniz yerdən yeyin, ancaq bu ağaca yaxınlaşmayın, yoxsa *(özünüzə)* zülm edənlərdən olarsınız!

**Əl-Bəqərə-31**-də "Adəmə bütün şeylərin adlarını öyrətdi" deyilir. Allahın Adəmə öyrətdiyi adlardan *(sözlərdən)* yaranan *(söz → şəkil + hiss)* qəlbinə yazılan yaxşı niyyət *(haqq niyyət)* Adəmə və Həvvaya *(yazılan yaşanır, yazılar pozula bilməz qanununa görə)* Cənnəti qazandırdı. Ona görə də: Ey Adəm! Sən zövcənlə birlikdə Cənnətdə sakin ol"... – deyildi. Bu yaşanan ilk yazı idi.

"Hər ikiniz istədiyiniz yerdən yeyin". Cənnət, məqamca dərgah zaman müstəvisində olduğundan *(yerin bir günü = 0.237 san. – dərgahın Cənnət məqamının zaman müstəvisi)* ağlın 0.237

saniyəyə yaratdığı *(qəlb yazısına əsaslanan)* şəkil istəniləndə 0.237 saniyədə yaşandı.

**Indi də cənnət həyatı haqqında olan ayələrin verdiyi informasiyalara nəzər salaq**:

**Ən-Nisa-123**. Bu *(Cənnətə daxil olmaq)*, nə sizin, nə də kitab əhlinin **arzusu ilə deyilldir**. Pislik edən şəxs, onun cəzasını görəcək və o, Allahdan başqa özünə nə bir dost, nə də bir imdada yetən tapacaqdır!

**124**. **Mömin olmaqla bərabər, yaxşı işlər görən** kişilər və ya qadınlar cənnətə daxil olarlar. Onıara xurma çəyirdəyi qədər haqsızlıq edilməz!

**Fussilət-31**. Biz dünyada da, axirətdə də sizin dostlarınızıq. Orada *(Cənnətdə)* sizin üçün **nəfsinizin çəkdiyi, istədiyiniz** hər şey vardır-

**32**. Bağışlayandan, rəhm edəndən ruzi olaraq!"

**Əl-Ənfal-36**. Kafirlər **Cəhənnəm tərəfə sürüklənəcəklər** ki,

**37**. Allah *(orada)* murdarı *(kafiri)* pakdan *(mömindən)* ayırd etsin, sonra murdarları birbirinin üstünə yığıb hamısını bir yerə toplasın və Cəhənnəmə atsın. Bunlar özlərinə zərər eləyənlərdir!

**Əs-Səcdə-19**. İman gətirib yaxşı işlər görənləri etdikləri əməllər müqabilində qonaq qalacaqları *(sakin olacaqları)* **Məva Cənnətləri gözləyir**.

**Sad-51**. Onlar orada *(taxtlara)* söykənib cürbəcür meyvələr və içkilər *(cənnət içkiləri)* **istəyəcəklər.**

**Əz-Zumər-34**. Onlar üçün Rəbbinin dərgahında dilədikləri hər şey vardır. Yaxşı işlər görənlərin mükafatı budur! Və s.

Deməli insanın dünya həyatında qəlbinə yazdığı Allahın razı olduğu əməl *(yazı, niyyət)* istənildikdə *(haqq batildən ayrıldıqdan*

*sonra)* qalan yazının daşığı informasiya haqdırsa və haqq şəkil Cənnətdə olduğundan həmin insana **Cənnət yaxınlaşacaq**.

**74**. Onlar isə: "Bizə verdiyi vədini yerinə yetirmiş və bizi bu yere varis etmiş Allaha həmd olsun! **Biz Cənnətin istədiyimiz yerində sakin oluruq**. *(Dünyada yaxşı)* əməllər edənlərin mükafatı necə də gözəldir!" – deyəcəklər.

**Qaf-31**. Cənnət də müttəqilər üçün **yaxın bir yerə gətiriləcəkdir.**

**32**. *(Onlara deyiləcəkdir:)* "Bu, vəd olunduğunuz *(Cənnətdir)*. O, hər bir *(tövbə edib Allaha tərəf)* qayıdan, *(nəfsini haramdan, özünü günahdan)* **qoruyan;**

**33.** Rəhmandan *(Onu)* görmədən qorxan və *(Rəbbinin hüzuruna)* **haqqa dönmüş qəlblə** gələn bəndə üçündür!

**34**. Ora sağlıqla *(Əmin-amanlıqla)* daxil olun. Bu, əbədiyyət günüdür!"

**35**. Orada onlar üçün **istədikləri hər şey** vardır. Dərgahımızda isə ondan artığı mövcuddur!

Sonsuz, tükənməz cənnət nemətlərinin içində olan Adəm və Həvvanın yaşadıqları səadətdən həzz alan ruhları, onları **"nur üstündə nur"** istehsal edən "**nur generatoruna**" çevirmişdi.

**Əl-Əraf-19**. ... "ancaq bu ağaca yaxinlaşmayın, yoxsa özünüzə zülm edənlərdən olarsınız!"

Burada qadağan olunmuş "ağac" batil sözdür. Əlbətdə batil sözə "yaxınlaş" – salar, batil söz *( batil şəkil + hiss)* qəlblərinə Allahın razı olmayacağı pis niyyətlər kimi yazılardı, yazılmışlar əmələ çevriləndə isə dünya sevgisi *(nurərəfəsi enerji),* nura *(ilkə)* çevrilməzdi və yazılanlar mütləq yaşanır qanununa görə, axirət əzabı *(Cəhənnəm*) haqq edərdilər. Ona görə də Allah: ... "yoxsa *(özünüzə)* zülm edənlərdən olarsınız" – buyurur.

**20.** Şeytan *(Adəmin və Həvvanın)* ***örtülü ayıb yerlərini*** özlərinə göstərmək məqsədilə onlara vəsvəsə verib dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya *(Cənnətdə)* əbədi qalmamağınız üçün qadağan etmişdir".

**21**. Həm də onlara: "Mən, əlbətdə, sizin xeyirxah məsləhətçilərinizdənəm", – deyə and içdi.

**22**. Beləliklə, *(Şeytan)* onları **batil sözlərlə aldatdı**. *(Adəm və Həvva)* **ağacın meyvəsindən daddıqda** ***ayıb yerləri*** göründü. Onlar **Cənnət yarpaqlarından ayıb yerlərinin üstünü** örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu **ağacı** qadağan etməmişdimmi? Şeytan sizin açıq-aşkar düşməninizdir, deməmişdimmi?"

**Əl-Əraf** surəsinin **20**-ci ayəsində "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya *(Cənnətdə)* əbədi qalmamağınız üçün qadağan etmişdir", – deyən İblis qəlbində olan batil yazıdan çıxış edir. Adəmdən öncə yaradılmış İblis Can tayfasındandır. Quranda bəhs edilən yaradılmışlardan ancaq ikisinə – cinlərə və insanlara **öz iradələri ilə istəyərək qəlblərinə yazmaq** *(niyyət etmək)* imkanı verilmişdir.

Yuxarıda qeyd etdik ki, mələklər yalnız Allahın əmrinə tabe olan, Allahın qəlblərinə yazdıqlarından başqa öz iradələri ilə istəyərək nə isə yazmaq *(niyyət etmək)* qabiliyəti verilməmiş, ən sadə və yüngül işlərdən başlayaraq, ən mürəkkəb və ağır işlərədək, ərşdə olan hər şeyi yerinə yetirənlərdirlər. Onların bu xüsusiyyətlərinə görə Allah, ən yüksək dərgah məqamlarından olan, yer üzünün əlli min ilinə bərabər bir gün zamanın var olduğu *(50000 il = 1 gün)* bir yerə layiq görmüşdür. Ğörünür Can tayfasından olan İblis *(Şeytan)*, mələklərin belə yüksək məqama layiq görülmələrinin səbəbini onların öz qəlblərinə Allahın əmrlərindən başqa daha nələrisə yazdıqlarına görə olduğunu "zənn, güman" etmişdi.

**Yunus-35**. De: "Şərikləriniz içərisində *(insanları)* haqq yola yönəldə bilən bir kimsə varmı?". *(Sənə cavab verə bilməyən müşriklərə)* de: "Allah *(insanları)* haqq yola yönəldir. Belə olduqda doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?"

**36**. Onların əksəriyyəti ancaq **zənnə uyar, zənn isə əsla həqiqət ola bilməz**. Allah nələr etməkdə olduğunuzu biləndir!

Belə çıxır ki, Allahın ağıl verərək, öyrədərək haqq yola yönəltdiyi İblis, Onun gizlinləri bildiyini unutduğunda, **zənnə, gümana** əsaslanan düşüncələrinin yaratdığı *(söz → şəkil + hiss)* batil niyyəti öz qəlbinə yazmışdı: (**Yunus-36**) "zənn isə əsla həqiqət ola bilməz". Allahın yönəltdiyi haqq yol, nur istehsalına aparan yoldur. Cinlərin də missiyası *(rolu)*, dünya sevgisini *(təmənnalı sevgini)* – nura *(ilkə, təmənnasız sevgiyə)* çevirməkdir.

**Əl-Əhqaf-30**. Onlar dedilər: "Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri *(Tövratı,İncili,Zəburu və səhifələri)* təsdiq edən, haqqa və doğru yola yönəldən bir kitab dinlədik!

**Əl-Cinn-11**. Şübhəsiz ki, aramızda əməlisaleh olanlar da var, olmayanlar da. Biz müxtəlif firqələrə ayrılmışıq.

Təbii ki, cinlərdən də haqq yola, nur istehsalı yoluna qayıdaraq dünya həyatında *(yer üzü zaman müstəvisi)* "nur generatoru"na çevrilənlər cənnəti, çevrilməyənlər isə cəhənnəmi haqq edəcəklər.

**Əl-Bəqərə-38**. Biz *(onlara)* dedik: "Hamınız buradan *(yer üzünə)* enin! Mənim tərəfimdən sizə bir hidayət *(peyğəmbər və Kitab)* gəldiyi zaman Mənim hidayətimə tabe olanlara *(axirət əzabından)* heç bir qorxu yoxdur və onlar *(qiyamətdə)* qəmgin olmazlar.

**39**. Kafir olaraq ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər, onlar orada *(atəş içində)* əbədi qalacaqlar.

Görünür İblisin özü də, Adəm və Həvvaya dediyi eyni yalanı, batili: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya *(Cənnətdə)* əbədi qalmamağınız üçün qadağan etmişdir" (**Əl-Əraf-20**) mənasının onun ağlında yaratdığı batil şəklə *(zənn və gümana əsaslanan)* hislər keçirməklə, pis niyyəti nə vaxtsa öz qəlbinə yazmışdı, Allahın haqq yolundan azmışdı. Öz qəlb yazısına uyğun olaraq İblisdən sonra haqq yolu getmək üçün yaradılmış

Adəm və Həvvaya da özünü haqq yoldan azdıran eyni batili təkrar təlqin etdi və and içdi.

**Əl-Əraf-20**. "Şeytan *(Adəmin və Həvvanın)* ***örtülü ayıb yerlərini*** özlərinə göstərmək məqsədilə" – sizin Allahın öyrətdiklərindən başqa da nəsə istəyərək mələklər kimi olmağı, əbədi qalmağı əldə etmək imkanınız var – dedi. Allahın öyrətdiklərindən və vacib buyurduqlarından kənarda nə varsa, batil olduğuna, qadağan edildiyinə görə doğru yoldan azdırır. Allah İblisə: "Oradan *(Cənnətdən)* **rüsvay** olmuş və *(mərhəmətimdən)* kənar edilmiş *(qovulmuş)* halda çıx" (**Əl-Əraf-18**) – buyuranda Adəm və Həvva da orada idilər və İblisin nəyə görə qovulmasına şahid olmuşdular. *(Allahın gizlinləri bildiyini unudaraq, qəlbinə Allahın razı olmayacağı – sonunda nur istehsalçısına çevirməyəcəyi niyyəti yazdığına görə).*

İblis Allahın Adəm və Həvvaya: "ancaq bu ağaca yaxınlaşmayın" – qadağanını da "yalnız mələk olmama"ları üçün qadağan etdiyini onlara ürəklərində arzular oyatmaq, onları **yalanla**, **batillə aldadıb**, oyatdığı **arzulara xələl qatmaqla** inandırdı. Öz taleyinə uyğun taleni də **onlara aldadaraq yazdırdı.**

**Taha-115.** Doğrusu, bundan əvvəl Adəmə də *(Şeytana uymamağı)* tövsiyə etmişdik. Lakin, o *(tövsiyəmizi)* **unutdu** və Biz onda *(əhdi qorumağa)* **əzm** *(səbat)* görmədik.

**Əl-Əraf-22**. Beləliklə, *(Şeytan)* onları **batil sözlərlə** aldatdı. *(Adən və Həvva)* **ağacın meyvəsindən daddıqda *ayıb yerləri* göründü. Onlar Cənnət yarpaqlarından *ayıb yerlərinin* üstünü örtməyə başladılar**. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə **bu ağacı** qadağan etməmişdimmi? Şeytan sizin açıq-aşkar düşməninizdir, deməmişdimmi?"

**Taha-116**. Bir zaman mələklərə: "Adəmə səcdə edin!" – deyə buyurmuşduq. İblisdən başqa hamısı səcdə etdi. O, boyun qaçırtdı.

**117**. Biz də belə dedik: "Ey Adəm! Bu *(İblis)* sənin də, övrətinin də düşmənidir. *(Ehtiyatlı olun ki,)* sizi *(tovlayıb)* Cən-

nətdən çıxartmasın, yoxsa *(ey Adəm!)* məşəqqətə düşüb bədbəxt olarsan!

**118**. Həqiqətən, sən orada *(Cənnətdə)* **acmaq** nədir, **çılpaq** olmaq nədir bilməzsən!

**119**. Sən orada susamaq nədir, günəşin hərarətindən əziyyət çəkmək nədir, onu da bilməzsən!".

**120**. *(Allahın bütün bu xəbərdarlığından sonra)* Şeytan ona *(Adəmə)* vəsvəsə edib *(pıçıldayıb)* belə dedi: "Ey Adəm! Sənə *(meyvəsindən yeyəcəyin təqdirdə heç vaxt ölməyəcəyin və həmişə Cənnətdə yaşayacağın)* **əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq** *(fənaya uğramayacaq)* **bir mülkü göstərimmi!?"**

**121**. *(Adəm və Həvva)* ondan *(həmin ağacın meyvəsindən)* yedilər və dərhal hər ikisinin **ayıb yerləri** göründü. Onlar Cənnət **ağaclarının yarpaqlarından yapışdımağa** başladılar. Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi.

**122**. Sonra Rəbbi *(tövbə etdirməklə)* onu seçdi, tövbəsini qəbul buyurdu və doğru yola müvəffəq etdi:

**123**. belə buyurudu: "Bir-birinizə *(siz İblisə və nəslinə, İblis də sizə və nəslinizə)* düşmən kəsilərək hamınız oradan *(Cənnətdən)* enin. Məndən sizə doğru yolu göstərən bir rəhbər *(kitab yaxud peyğəmbər)* gəldiyi zaman hər kəs Mənim haqq yolumu tutub getsə, nə yolunu azar, nə də bədbəxt olar!"

**124**. Hər kəs Mənim öyüd-nəsihətimdən *(Qurandan)* üz döndərsə, güzəranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!"

**Əl-Əraf-22**, "ağacın meyvəsindən daddıqda", *(yalan, batil sözlərin yaratdığı şəkilə hiss keçirdikdə)*, "ayıb yerləri göründü "*(Əl-Əraf-20-də: "**örtülü ayıb yerləri**" – qəlblərinə yazdıqları gizlin göründü)*. Axı Cənnət məqamı dərgah zaman müstəvisindədir. Yer üzündə bir günə olan orada 0.237 saniyəyə olur. Ağıl da dərgah zaman surəti ilə işlədiyinə görə, ağılın qəlbə 0.237 saniyədə yazdığı elə 0.237 saniyə də olur.

"Cənnət ağaclarının yarpaqlarından yapışdımağa başladılar" *(vaxtı ilə I yazı – haqq sözlərdən yaranmış şəkillərlə – "Cənnət yarpaqları" – ilə gizlində olan pis niyyətlərinin "ayıb yerlər"inin üstünü, "yapışdırmaqla" örtməyə başladılar.* ***Taha-118*** *..."sən orada (Cənnətdə) acmaq nədir,* ***çılpaq*** *olmaq nədir bilməzsən!)* Amma yazlıar pozula bilməz qanununa görə, gizlinləri bilən Allahdan "ayıb yerləri"ni gizlədə bimədilər. İblisin Adəm və Həvvaya "əbədiyyət ağacı" adı altında göstərdiyi, "köhnəlib xarab olmayacaq *(fənaya uğramayacaq)* bir mülk" – fani dünya idi. İblis fani dünyanı Adəm və Həvvaya istədərək pis niyyəti *(batili)* onların qəlblərinə yazdırdı.

**Əl-Əraf-23.** *(Adəm və Həvva)* "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" – dedilər. Bəlkə də, İblis , haqq yoldan çıxan zaman, özündən əvvəl belə günahlara görə Cənnətdən qovulma faktını bilsəydi tez tövbə edərdi. İblisin gizlin batili *(batil niyyəti)* ortaya çıxdığı vaxt səhv edərək tez tövbə diləməməsi və batilə daha çox uyması, nəticədə "lənətlənməsi", Cənnətdən qovulması, sonradan möhlət istəyərək qəlbinə yazıb *(yazılan pozula bilməz qanununa görə)* qiyamət gününə qədər möhlət alması təcrübəsini bilən Adəm və Həvva aldanaraq yazdıqları gizlin batil ortaya çıxan kimi dərhal tövbə etdilər. İblisin başına gələnlərdən ibrət aldılar, dərk edərək – *(ibrət – dərkə, dərk – tövbəyə, tövbə – Allaha, Allha-haqq yola, haqq yol isə Nur istehsalına yönəldir)*.

Allahdan bağışlanma diləyərək: *(Adəm və Həvva)* "Ey Rəbbimiz! Biz özümümzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" (**Əl-Əraf-23**) – dedilər.

**Taha 122**. Sonra Rəbbi *(tövbə etdirməklə)* onu seçdi, tövbəsini qəbul buyurdu və doğru yola müvəffəq etdi.

"Beləliklə, *(Şeytan)* onları **batil sözlərlə** aldatdı"dan (**Əl-Əraf-22**) aydın olur ki, Adəm və Həvvanın aldadılaraq qəlblərinə

yazdırılan *(şəkil + hiss = niyyət)* yazı, Şeytanın batil sözlərinin yaratdığı şəkillərdən ibarət olan II ilk yazıdır.

Allah isə I ilk yazını ***(Əl-Bəqərə-31.** Adəmə bütün şeylərin adlarını öyrətdi)* haqq sözlərin yaratdığı *(şəkil + hiss = niyyət)* şəkillərdən ibarət olan niyyət kimi yazdırmışdı.

Belə çıxır ki, hər şey **sözdən** başlamışdır. Yəni sözün mənasından, mənanın yaratdığı şəkildən, şəkilə hiss keçirilərək niyyət kimi qəlbə yazılan qəlb yazısından.

Görünür Allahın "Ol!" kəlməsinin məna tutumu bütün kainatdır. "Ol!" – kəlməsinin məna yükü – bu ana qədərki, bu an görünən, bu andan sonra görünəcək *(gizlin və aşkar)* bütün şəkilləri daşıyır.

**Əl-Hədid-4.** Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Odur. O, yerə girəni də, çıxanı da, göydən enəni də, qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!

**5.** Göylərin və yerin hökmü Onun əlindədir. *(Bütün)* işlər *(axırda)* ancaq Allaha tərəf qaytarılacaqdır!

**Fatir-1.** Göyləri və yeri yoxdan yaradan...

Bundan əvvəl qeyd etmişdik ki, yer üzü zaman hesabı ilə müqayisədə ağlın, Cənnətin və Cəhənnəmin var olduğu məqamın dərgah zaman müstəvisində yerin 1 günü = 0.237 saniyədir *(1000 il = 1 gün)*. Mələklərin və Ruhun *(Cəbrail)* var olduqları məqamın dərgah zaman müstəvisində isə yerin 1 günü = 0.005 saniyədir. Və görünür yer üzü zaman müstəvisindən dərgah məqamlarının zaman müstəvilərinə doğru yaxınlaşdıqca zaman azalır, "Ol!" – anı məqamının dərgah zaman müstəvisi "itir", – yəni yerin 1 günü = 0 saniyə olur. Zaman yox olur! Onda, zaman da "Ol!" anının yaranmışlarındandır! Bütün bunlara əsaslanaraq demək olar ki, "Ol!" kəlməsinin daşıdığı şəkillər – bu anadək olmuşlar, indi olanlar və gələcəkdə olacaqlardır!

Çox aydın bir səhnə alınır: belə çıxır ki, insana verilmiş ağıl kainatı yaradan Böyük ağıldandır. Kainatı yaradan ağlın "Ol!" kəlməsindən ortaya qoyduğu şəkil bütün yaradılanlardır. *(İlkdən, Nurdan başlamış, nurərəfəsi enerjiyədək, yəni enerji çevril-*

*məsinin nisbi dayanıqlı və nisbi dayanıqsız formaları, bu formaların müxtəif variantlar, nisbətlərdə iştirakı ilə var olmuş sonsuz yaranmışlardır)*.

Bir də, enerji çevrilməsinin son həddi olan nurərəfəsi enerjini *(fani dünya dəyərlərinə olan sevgini)* İlkə, Nura çevirən insan ağlı. İnsan ağlının "Ol!" kəlməsindən yaratdığı şəkillər isə *(ilk)*, Nur istahsalına lazım olan fani dünya sevgisini *(nurərəfəsi enerji)* toplamaq üçün bütün məqamları əhatə edir. Bu əhatə yer üzü zaman müstəvisindən başlayaraq kainat ağlının imkanlarından istifadəyədəkdir. Çox maraqlıdır ki, bütün bunların vəhdətdə işləməsini əlaqələndirən, universial vasitə **sözdür**.

Turk dünyasının dahi şairi və mütəfəkkiri, yalnız ölməz **söz** ustadı deyil, həm də dövrünün görkəmli ədəbiyyat nəzərriyəçisi, filosofu və mövlanası olan Məhəmməd Füzuli söz haqqında – "**Söz**" rədifli qəzəlində eyni fikirləri daha ecazkar, müqəddəs məqamda belə təsvir edir:

"Xəlqə ağzın **sirrini** hərdən qılır izhar söz,
Bu nə sirdir ki, olur hər ləhzə yoxdan var söz,
Artıran söz qədrini **sidqilə qədrin artırar**,
Kim, nə miqdar olsa əhlin **eylər ol miqdar** söz.

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol **uyğudan bidar** söz.
Bir nigari-əmbərinxətdir **könüllər almağa**,
Göstərir hər dəm **niqabi-qeybdən** rüxsar söz.
Xazini-gəncineyi-əsrardır, hərdəm çəkər,
Rişdeyi-izharə gövhəri-əsrar söz.
Olmayan qəvvası-bəhri-mərifət arif deyil,
Kim, sədəf tərkibi-təndir, lö-löi şəhvar söz".

Şair "aləm sədəfində insandan qiymətli bir gövhər görmədiyini", insanda isə "sözdən şərəfli bir gövhər" təsəvvürünə gətirmədiyini dönə-dönə qeyd edir. Füzuli, sözü Tanrının insanlara bəxş etdiyi vəhy-nemət adlandırır. "Bir yaradıcı ki, tövhid qələmindən söz sahiblərinin idrak səhifəsinə xəyalı o *(söz)* nəqş

edir, mövzun təb onun lütfünün əlamətlərindəndir. Bu kəlamı öyrənməkdən qiymətli elm yoxdur" – deyir.

Müqəddəs kitablardan "İncil"də söz haqqında eyni fikirləri daha geniş və açıq şəkildə təsdiq edir.

"... **1.** Başlanğıcda **Kəlam** var idi; **Kəlam** Allah nəzdində idi; və **Kəlam** Allah idi.

**2.** O**, başlanğıcda Allah nəzdində** idi.

**3.** Hər şey **Onun vasitəsi ilə** yarandı və olmuş olan şeylərdən heç biri **Onsuz olmadı**.

**4.** Onda idi həyat, həyat da insanların **Nuru idi**.

**5.** **Nur qaranlıqda parlar** və qaranlıq onu anlamadı.

**6.** Allah tərərfindən göndərilmiş adam ortaya çıxdı, onun adı Yəhya idi.

**7.** Bu adam şəhadət üçün gəldi. **Nur haqda şəhadət** edib, bütün insanlar **Onun vasitəsi ilə iman etsinlər** deyə gəldi.

**8.** Özü **Nur** deyildi, ancaq o, **Nur** haqda şəhadət etməyə gəldi.

**9.** Dünyaya gələrkən hər insanı **işıqlandıran gerçək Nur** var idi.

**10.** Dünyada idi və **dünya Onun vasitəsi ilə yarandı**, fəqət dünya **Onu** tanımadı".[1]

Həmin kitabın rus variantına müraciət edək:

**"Ветхий завет. Первая книга Моисея. Бытие 2":**

***15.*** *И взял Господь Бог человека, и поселил его в саду Едемском, чтобы возделовать его и хранить его.*

***16.*** *И заповедал Господь Бог человеку, говоря: от* ***всякого дерева*** *в саду ты будешь есть,*

***17.*** *а от* ***дерева познания добра и зла****, не ешь от него, ибо в день, в который ты вкусишь от него, смертью умрешь.*

**Бытие 3.**

---

[1] İncil. Əhdi Cədid. Yəhyanın müjdəsi. Birinci fəsil. Bibliya tərcümə institutu, 1993.

1. *И сказал змей жене: подлинно ли сказал Бог: не ешьте ни от кокого дерева в раю?*
2. *И сказала жена змею: плоды с дерев мы можем есть,*
3. *только плодов дерева, **которое среди рая**, сказал Бог, не ешьте их и не прикасайтесь к ним, чтобы вам **не умереть**.*
4. *И сказал змей жене: нет, не умрете,*
5. *но знает Бог, что в день, в который вы **вкусите их**, откроются глаза ваши, и вы будете, как Боги, **знающие добро и зло.***
6. *И увидела жена, **что дерево** хорошо для пищи, и что оно приятно для глаз и вожделенно, потому что **дает знание**; и взяла плодов его и ела; и дала также мужу своему и ел".*[1]

**Yenə də İncil, Yəhyanın müjdəsi. 10-cu fəsil:**

**32.** İsa onlara cavab verdi: "Sizə Atadan bir çox yaxşı işlər göstərdim; bu işlərdən hansı üçün məni daşlamaq istəyirsiniz?"

**33.** Yəhudilər Ona cavab verdilər: "Səni yaxşı işə görə deyil, küfr etdiyin üçün və Sən insan ikən Özünü Allah etdiyinə görə daşlayırıq".

**34.** İsa onlara cavab vedi: **"Mən: 'Siz Tanrılarsınız', dedim**" sözü qanununuzda yazılmayıbmı?

**35.** Əgər onlara, **Allahın sözünü alanlara Tanrılar dedisə *(yazılar da pozula bilməz),***

**36.** 'Allahın Oğluyam' dediyim üçünmü Atanın təqdis edib dünyaya göndərdiyi Şəxsə: 'küfr edirsən' deyirsiniz?

**37.** Əgər Atamın işlərini görmürəmsə, Mənə iman etməyin.

**38.** Fəqət görürəmsə, Mənə iman etmirsinizsə də, işlərə iman edin ki, **Atanın Məndə** və **Mənim Atada** olduğumu bilib anlayasınız.

---

[1] Библия. Книги священного писания. Ветхого и нового завета. Российское Библейское общество.

**Markın müjdəsi. 4-cü fəsil:**

**14. Əkinçi sözü əkir**.

**15. Sözün** əkildiyi yolun kənarındakılar bunlardır: eşitdikləri zaman, dərhal şeytan gəlir və **onlara əkilən sözü** götürüb aparır.

**16.** Beləcə də daşlıq yerlərə əkilənlər: **sözü eşidib** dərhal onu sevinclə qəbul edənlərdir;

**17.** Və onalrda kök yoxdur və səbatsızdırlar. Sonralar bu **sözdən ötrü sıxıntı** və ya əziyyət baş verdikdə dərhal **imandan dönərlər.**

**18.** Tikanlar arasında əkilənlər isə onlardır ki, **sözü eşidirlər**,

**19.** Və dünyanın **qayğıları, zənginliyinin aldadığıcılığı və başqa şeylərin həvəsləri** araya girib **sözü boğurlar** və **o**, səmərəsiz olur.

**20.** Bərəkətli torpaq üzərinə əkilmiş olanlar isə, **sözü qəbul** edənlərdir. Və kimi otuz, kimi altmış, kimi isə yüz qat səmərə verər...

**24.** Və onlara dedi: **"Nə eşitdiyinizə diqqət verin: hansı ölçü ilə ölçərsinizsə, o ölçü ilə də sizə ölçüləcəkdir və daha çox veriləcəkdir**.

**25.** Zira, **kimin varısa**, ona veriləcək; fəqət **kimin yoxusa**, əlində olanda ondan alınacaqdir.

**26.** Və dedi:"Allahın Padşahlığı yerə **toxum səpən adam kimidir.**

**27**. Gecə-gündüz yatar, durar və **toxum bitər, böyüyər, özü isə bunun necə olduğunu bilməz.**

**Markın müjdəsi. 7-ci fəsil:**

**15.** İnsanın daxilinə çöldən girib, onu murdar edəcək bir şey yoxdur; fəqət, **insanı murdar edən, insandan çıxan şeylərdir.**

**19.** "Çünki ürəyinə deyil, qarnına girir və çölə çıxır".

**20.** Və sonra dedi: "İnsandan **çıxan şey insanı murdar edir**".

**21.** Çünki **pis düşüncələr, zinakarlıq, cinsi əxlaqsızlıq, qatillik,**
**22. Oğurluq, tamahkarlıq, pislik, hiylə, şəhvət, pis söz, küfr, qürur, və ağılsızlıq insanları ürəyindən, için-dən çıxar.**
**23. Bütün bu pis işlər daxildən çıxırlar və insanı mur-dar edirlə**r…

**Mattanın müjdəsi. 21-ci fəsil:**
**22.** Və dua ilə **iman edərək hər nə dilərsinizsə ala-caqsınız...**

**Markın müjdəsi. 11-ci fəsil:**
**21.** Peter xatırladıb Ona dedi: "Rabbi! Budur lənət etdiyin incir ağacı qurumuşdur.
**22.** İsa da cavab verib onlara dedi: Allaha imanınız olsun.
**23.** Doğrusun sizə deyirəm: Kim bu dağa: "Qalx, denizə atıl!" deyib, **ürəyində şübhə** etməzsə, **fəqət hər dediyinin olacağına iman edərsə ,dediyi kimi ona olacaqdır.**
**24.** Bunun üçün sizə deyirəm**: Dua edib, istədiyiniz hər şeyi almış olduğunuza iman edin və sizə olacaqdır.**
**25. Dua edən zaman, kimsəyə garşı bir kininiz varsa, onu bağışlayın ki, göylərdə olan Atanız da sizə təqsirlərinizi bağışlasın.**
**26.** Fəqət, **siz bağışlamasanız**, göylərdə olan Atanız da sizin təqsirlərinizi **bağışlamaz**".

**Fatir-10.** Hər kəs *(dünyada)* izzət-qüdrət *(şərəf-şan)* istəsə, *(bilsin ki, dünyada da, axirətdə də)* bütün izzət-qüdrət *(şərəf-şan)* ancaq Allaha məxsusdur *(Buna yalnız Allaha Itaət və ibadət etməklə nail olmaq mümkündür)*. **Pak söz Ona tərəf yüksələr** və **pak sözü** də *(Allah dərgahına)* **yaxşı əməl qaldırar**. Pis əməllər edənləri şiddətli bir əzab gözləyir. Onların qurduqları hiylələr boşa çıxar.

**Əz-Zumər-18**. O kəslər ki, **sözü dinləyib onun ən gözəlinə uyarlar**. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!

**19.** *(Ya Peyğəmbər!)* Məgər sən haqqında **əzab sözü vacib olmuş** kimsəni *(qoruya bilərsənmi)*?! Məgər sən Cəhənnəmdə olanı qurtara bilərsənmi?!

**23**. Allah **sözün ən gözəlini** *(Quranı, ayələri)* bir-birinə bənzər, təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu *(Quran)* Allahın hidayətidir. **Onunla istədiyini doğru yola yönəldər**. Allahın yoldan çıxartdığı kimsəyə isə heç bir yol göstərən olmaz!

**Əl-İsra-28.** Əgər Rəbbindən dilədiyin bir mərhəməti gözləmək məqsədilə onlardan üz çevirməli olsan, heç olmasa **onlara xoş bir söz de**!

**İbrahim-27**. Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir **sözlə** sabitqədəm edər. Allah zalımları sapdırar. Allah istədiyini edər!

**Qayıdaq Taha-22**-yə... **Sonra Rəbbi *(tövbə etdirməklə)* onu seçdi,** tövbəsini qəbul buyurdu.

**Əl-Əraf-24**. *(Allah)* buyurdu: "Bir-birinizə düşmən olaraq *(Cənnətdən yer üzünə)* enin, yerdə sizin üçün bir müddət sığınacaq və dolanacaq vardır"... "Bir-birinizə düşmən olaraq enin"... – niyə düşmən olaraq?

**25.** *(Allah)* buyurdu: "Orada yaşayacaq, orada öləcək və oradan çıxarılacaqsınız!"

İblis "təkəbbür" ***(Əl-Əraf-13)*** göstərənə qədər səmalarda idi. Deməli, Allah İblisə də ilk I yazını "bütün şeylərin adlarını öyrət"məklə yazdırmışdı. Eyni zamanda İblis qadağan olumuş "ağacı" tanıyırdı – "vəsvəsə verib dedi": "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya *(Cənnətdə)* əbədi qalmamağınız üçün qadağan etmişdir (**Əl-Əraf-20**) Açıq olaraq görünür ki, İblis özü də qadağan olunmuş "ağacdan" nə vaxtsa "yemiş" və

ya batil şözlərin yaratdığı batil şəkillərə nə vaxtsa hiss keçirmiş və ilk II yazını "gizlinə", qəlbinə yazmışdı.

Belə olduqda İblis – qəlb yazısı: "Haqq olan ilk I yazı və batil olan ilk II yazı, tövbə etmədiyinə görə Allah onu doğru yola yönəltməmiş və o batili yaşayaraq möhlət istədiyi qiyamət gününə qədər batil yazmaqdan və yazdırmaqdan başqa yolu olmayan Cəhənnəmlikdir.

Adəm və Həvva – qəlb yazısı: haqq olan ilk I yazı və batil olan ilk II yazı tövbə etdiklərinə görə Allah onları bağışlamış, *(yazılan yaşanır qanununa görə)* yazdıqlarını yaşamaq məcburiyyəti altında haqq yol və ya batil yolun ikisindən birini seçmək azadlığı verilmiş, haqqın yolu göstərilmiş və seçdikləri yola görə ya Cənnətlik ya da Cəhənnəmlik ola bilənlərdir.

İblisin, Adəm və Həvvanın ilk I, II *(gizlin)* qəlb yazıları eynidir. İblisin doğru yola qayıtmaq imkanı yoxdur, yazısına görə batil yolu getməyə məcburdur.

Adəm və Həvvanın isə doğru yola qayıtmaq imkanları var. Qəlb yazılarına görə batil yolu getməyə məcbur deyillər.

Bütün bunlara görə Allah buyurdu: "Bir-birinizə düşmən olaraq enin!" ***(Əl-Əraf-24)***

Ona görə də dünyaya göz açan insan birinci olaraq sonradan yazılmış ilk II yazını yaşayır. Orta yaş həddinə qədər dünya sevgisi toplamaqla məşğul olur. Əsasən dünyaya görə dünyanı istəyir. Orta yaşdan sonra dərkin gözü ilə ibrat ala bilən kəs isə əsasən dünyanı Allah rizası üçün istəməyə başlayır.

**Ər-Kəhf-49.** *(Qiyamət günü hər kəsin)* əməl dəftəri qarşısına qoyulacaq. *(Ya Rəsulum! O zaman)* günahkarların orada *(yazılmış)* olanlardan qorxduqlarını görəcəksən. Onlar belə deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O bizim heç bir kiçik və böyük günahmızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!" Onlar *(dünyada)* **etdikləri bütün əməllərin öz qarşılarında hazır durduğunu görəcəklər**. Rəbbin heç kəsə haqsızlıq etməz!

**Əl-Əraf-26**. Ey Adəm oğulları! Sizə **ayıb yerlərinizi** örtəcək bir **geyim** və bir də **bəzəkli libas** nazil etdik. Lakin **təqva libası**

daha yaxşıdır. Bu Allahın ayələrindəndir ki, bəlkə öyüd-nəsihətə qulaq asasınız.

**Əl-Əraf-26**-da "Ey Adəm oğulları! Sizə ***ayıb yerlərinizi*** örtəcək bir geyim" – yəni bir-birinizə elə görünün ki, sizə baxanlar qəlbləriinə *(gizlinə)* pis niyyət yazdıra biləcək şəkilə hiss keçirərək günaha girməsinlər. Təkcə geyim yox – ümumiyyətlə elə davranın ki, başqalarını günaha təhrik etməyəsiniz. Ona görə ki, sizə baxıb günaha təhrik olunanların günahlarına şəriksiniz...

Bu fikiri təsdiq edən ayələrə nəzər salaq:

**Ən-Nisa-85**. **Yaxşı işə vasitəçi** olana *(onun savabından)*, **pis işə vasitəçi** olana *(onun günahından)* bir pay düşür. Əlbəttə, Allah hər şeyə qadirdir.

**86**. Sizə salam verildiyi zaman onu **daha gözəl** alın və ya *(eynilə sahibinə)* qaytarın! Şübhəsiz ki, Allah hər şeyi hesaba alandır.

**Ən-Nur-30**. *(Ya Rəsulum!)* Mömin kişilərə de ki, **gözlərini** haram edilmiş şeylərdən çevirsinlər, **ayıb yerlərini** qorusunlar. Bu onların üçün daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!

**31**. *(Ya Rəsulum!)* Mömin qadınlara de ki, **gözlərini** haram edilmiş şeylərdən çevirsinlər, **ayıb yerlərini** qorusunlar; ...

**Ən-Nəhl-25**. Qiyamət günü öz günahlarına **tamamilə**, nadanlıqları üzündən **yoldan çıxartdıqları** adamların günahlarına da **qismən** yüklənsinlər. Bir görün onların daşıyacaqları *(yük)* necə də pisdir!

**97**. Mömin olub yaxşı işlər görən kişi və qadına *(dünyada və axirətdə)* xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik.

**"Əl-Əraf"** surəsinin **26**-cı ayəsindəki "bir də bəzəkli libas nazil etdik" informasiyası həm də insanlara göstərişdir ki, **gözəl danışın, sözlərdən gözəl libas geyinin** ki, başqaları həmin

sözlərin *(söz → şəkil + hiss = niyyət)* təsiri ilə **gözəl niyyətlər** yazsınlar. Bu fikri təsdiq edən ayələrə nəzər salaq:

**Əl-İsra-53**. *(Ya Rəsulum!)* Bəndələrimə de: "**gözəl sözlər söyləsinlər**". Şeytan onların arasına **fitnə-fəsad sala bilər**. Həqiqətən Şeytan insanın açıq-aşkar düşmənidir!

**Hud-5**. Bilin ki, Allahdan gizlənmək məqsədi ilə ikiqat olarlar. Xəbərdar olun ki, onlar **libaslarına büründükdə** belə, Allah onların **gizli saxladıqları** və aşkar etdikləri hər şeyi bilir. **Allah ürəklərdə** olanları biləndir.

**Nuh-5**. O dedi! "Ey rəbbim! Mən qövmümü gecə-gündüz dəvət etdim!

**6**. Lakin dəvətim onların ***(imandan)*** **qaçmalarını** daha da artırmaqdan başqa bir şeyə yaramadı.

**7**. Sənin onları bağışlamağın üçün mən nə zaman onları *(imana)* dəvət etdimsə, onlar barmaqlarını **qulaqlarına tıxadılar**, **libaslarına büründülər**, israr edib durdular və **təkəbbür** göstərdilər.

**8**. Sonra mən onları **uca səslə** dəvət etdim.

**9**. Daha sonra onlara **aşkar söylədim** və **gizli bildirdim"**.

**Ən-Nisa-108**. Onlar insanlardan gizlətsələr də, **Allahdan gizlədə bilməzlər**. Onlar *(Allaha)* **xoş getməyən sözləri ürəklərində tutduqda belə**, yenə O, onların yanındadır. Allah onların nə etdiyini biləndir.

**140**. Allah kitabda *(Quranda)* sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu **eşitdiyiniz zaman** müşriklər başqa bir **söhbətə** girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların **tayı olarsınız**. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə bir yerə toplayacaqdır!

**Ən-Nur-15**. O zaman ki, siz yalanı **dilinizə** gətirir, **bilmədiyiniz sözü ağzınıza alır** və onu yüngül bir şey sanırdınız. Halbuki, bu Allah yanında **çox böyük bir günahdır!**

**19**. Mömünlər arasında **pis söz** yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. (*Hamının əməlini, yayılan şayiələrin, atılan böhtanların doğru olub-olmadığını)* ancaq Allah bilir, siz bilməzsiniz!

**Əl-Furqan-44**. Yoxsa elə güman edirsən ki, onların əksəriyyəti *(sən deyən sözü)* **eşidəcək və ya fikirləşəcək?** Onlar **heyvan kimidirlər**, bəlkə, ondan daha çox zəlalət yolundadırlar.

**63**. Rəhmanın *(əsl)* bəndələri o kəslərdir ki, onlar yer üzündə **təmkinlə** gəzər, cahillər onlara **söz atdıqları zaman salam deyərlər.**

**Əz-Zumər-23.** Allah **sözün ən gözəlini** *(Quranı, ayələri)* bir-birinə bənzər, təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu *(Quran),* Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldər. Allahın yoldan çıxartdığı kimsəyə isə heç bir yol göstərən olmaz!

**Əl-Ğaşiyə-10**. Uca Cənnətdə olacaq,

**11**. Və orada heç bir **boş söz** eşitməyəcəkdir.

**Əl-Muzəmmil-1**. Ey *(libasına)* **örtünüb bürünən**.

**2**. Gecə – az bir hissəsi istisna olmaqla – qalxıb namaz qıl!

**6**. Şübhəsiz ki, gecə qalxmaq **daha əlverişli** və **söz demək** daha münasibdir!

**7**. Çünki gündüz sənin uzun-uzadı davam edən işlərin vardır.

**Əl-Muddəssir-1**. Ey *(libasına)* **bürünüb sarınan** *(Peyğəmbər)!*

**Əl-Əraf-26**-da "lakin təqva libası daha yaxşıdır"...

**Əl-Maidə-8**. Ey iman gətirənlər! Allah qarşısında sabit qədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı **olan kininiz sizi ədalətsizliyə sövq etməsin.** Ədalətli olun. Bu,

**təqvaya** daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır.

"Təqva libası"na bürünmək – yəni Allah hər an görür və eşidir mənasının yaratıdğı şəkli *(söz → şəkil + hiss = niyyət)* qəlbinə yazan və bu yazını *(gizlini)* məcburi yaşayan insanın, düşünəndə, danışanda, çalışanda Allahın razılığını qazanmağa can atmaqdan başqa bir yolu qalmır. Doğru yola yönəldilmişlərdən olur. Allah istədiyini doğru yola yönəldər də yəqin ki, elə bu deməkdir. Yəni qəlbdəki yazının yaşanmasını təmin edən qanunlar *(Allahın yaratdığı qanunlar),* insanı Nur *(ilk enerji)* istehsalçısına çevirirsə, bu, o deməkdir.

**Əl-Əraf-27**. Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün **libaslarını soyundurub** valideyninizi *(Adəm və Həvvanı)* Cənnətdən qovdurduğu kimi, Şetyan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o ***(Şeytan)*** **və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər**. Biz Şeytanları iman gətirməyənlərin *(kafirlərin)* dostları etdik.

**"Əl-Əraf"** surəsinin **27**-ci ayəsindəki "Şübhəsiz ki, o *(Şeytan)* və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər"ə aydınlıq gətirməyə çalışaq:

**Əl-İsra-61**. Yenə yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" – deyə əmr etmişdik. İblisdən başqa hamısı səcdə etmişdi. *(İblis:)* "Sənin **palçıqdan** yaratdığına mən səcdə edərəmmi?!" – demişdi.

**62**. *(İblis)* həmçinin: "*(Pərvədigara!)* Bir de görək nə üçün onu məndən üstün tutdun? Əgər ***(məni öldürməyib)*** qiyamət gününə qədər mənə möhlət versən, az bir qismi istisna olmaqla, onun nəslini öz hökmüm altına alaram.

**63**. *(Allah)* buyurdu: "Çıx get!" *(Sənə qiyamətə qədər möhlət verdim!)* Onlardan hər kəs sənə uysa, (bil ki) cəzanız cəhənnəmdir. Özü də tamam-kamal bir cəza!

**64**. Onlardan kimi bacarırsansa, səsinlə *(vəsvəsənlə)* yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına

və övladlarına ortaq ol, onlara cürbəcür vədlər ver. Şeytan yalnız yalan vədlər verər.

**Əl-İsra** surəsinin **61, 62**, **63, 64**-cü ayələrindən irəli gələn açıq-aşkar mənalar:

İblis *(Əl-İsra-62)* nəyə görə Allahın onu öldürməyib, möhlət verdiyini başa düşə bilmir. O, anlaya bilmir ki, yazılar pozula bilməz və yazılanlar mütləq yaşanır. Şeytan qiyamət günündən sonra cəhənnəmlik olacağını bilə-bilə insanları doğru yoldan azdırmaq iddiasından əl çəkə bilmir. Möhlət istəyərək *(söz → şəkil + hiss = niyyət)* qəlbinə yazılanı aldıqdan sonra öldürülməsini rica etsə də *(yazılan yaşanır)* qiyamət gününə qədər buna nail ola bilmir. Əksinə, nə vaxtsa Allahın "gizlin"ləri bildiyini unutduğu üçün qəlbinə yazdığı yazı *(niyyət)* Allah tərəfindən təqdir olunur *(yazılar pozula bilməz)*

**Əl-İsra-64.** Onlardan kimi bacarırsansa, səsinlə *(vəsvəsənlə)* yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına və övladlarına ortaq ol, onlara cürbəcür vədlər ver. Şeytan yalnız yalan vədlər verər.

Bu təqdir "**Ər-Hicr"** surəsinin **34-41**-ci ayələrində daha aydın görünür.

**Ər-Hicr-34**. *(Allah)* buyurdu: "Oradan çıx. Sən məlunsan!"

**35.** Sən qiyamət gününə qədər lənətlənmişsən!"

**36.** *(İblis)* dedi: "Ey Rəbbim! İnsanların diriləcəkləri günə *(qiyamətə)* qədər **mənə möhlət ver!"**

**37.** *(Allah)* buyurdu: "Sən **möhlət verilənlərdənsən**".

**38.** Ancaq məlum vaxtın gününə qədər!

**39.** *(İblis)* dedi: "Ey Rəbbim! Məni azdırmağina əvəz olaraq and içirəm ki, mən də onlara yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam!

**40.** Yalnız Sənin sadiq bəndələrindən başqa!"

**41.** *(Allah)* buyurdu: **"Mənə görə, bu, düz yoldur!"** *("düz yol" – doğru yol deyil, sadəcə, qəl-*

*bə yazılan mütləq yaşanır deyə – "düzdür").*

"Şübhəsiz ki, o *(Şeytan)* və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər"in mənası bu ayələrin də verdiyi informasiya nəticəsində aydın olur. Belə ki, İblis *(Şeytan)*, "oradan" qovulsa da, yerə "*alçağa*" ensə də "tustusuz oddan" yaradıldığına görə dərgah zaman müstəvisi varlığı olaraq qalır. Yuxarıda cinlər haqqında nazil olmuş Quran ayələrini ardıcıl diqqətə çatdırmışdıq. Onlardan bu fikri təsdiq edən bir neçəsinə yenidən nəzər salaq:

**Əl-Cinn-8**. Biz*(cinlər yuxarı aləm əhlinin söhbətinə oğrun-oğrun qulaq asmaq üçün)* göyə qalxmaq istədik*,(səmanı yoxladıq)* amma onun *(mələklərdən ibarət)* güclü gözətcilər və yandırıb-yaxan *(axan)* ulduzlarla dolu olduğunu gördük.

**9.** Biz *(Muhəmməd əleyhissəlamın peyğəmbər göndərilməsindən əvvəl mələklərin söhbətinə)* qulaq asmaq üçün *(göyün)* bəzi yerlərində otururduq. Lakin indi kim *(onların söhbətinə)* qulaq asmış olsa yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər.

Bu iki ayə və başqaları göstərir ki, cinlər *(İblis – Şeytan və onun cinlərdən olan camaatı)* yerə enmələrinə baxmayaraq ağlın da mənsub olduğu zaman sürəti müstəvisində yaşayırlar. Yəni cinlər istədikləri an, "ən yaxın olan göy üzü"nədək hər yerdə ola bilirlər **(Əs-Saffat-6)**. Ancaq "ali bəzmə qulaq asa", yaradılmış "səddi" (**Əs-Saffat-8**) – maneəni keçə bilmirlər. Əgər "ali bəzmə" – qulaq asa bilmirlərsə, deməli insan ağlının da düşündüklərindən xəbərləri olmur, ona görə ki, insan ağlı da aid olduğu zaman müstəvisinə görə dərgahın qorunan məqamlarındandır. Əgər insan ağlının düşündüklərindən Şeytanın *(İblisin)* xəbəri olmursa, onda insanları haradan "görürlər" və "sizin onları görə bilmədiyiniz yer" haradır? Yuxarıdakı təhlilləri ümumiləşdirsək, qısaca demək olar ki, Şeytanın *(İblisin)* ağılda şəklin yaranmasından qəlbə yazılmasınadək heç nədən xəbəri olmur. Amma ağılda yaranandan sonra həmin şəkil Şeytana *(İblisə)* dərgah zaman sürəti ilə görünür. Şeytandan fərqli olaraq ağlın

insan qəlbinə 0.237 saniyəyə yazdığı insanın özünə bir günə görünür *(yəni dərgah zaman müstəvisində "olan" yer üzündə bir günə olur)*. İnsan yer üzü zaman müstəvisinin varlığı olduğuna görə şəhadət gözü ancaq şəhadət dünyasını görə bilir. Dərgah zaman müstəvisini isə ancaq ağlın gözü *(bəsirət gözü, dərkin gözü)* görə bilər. Deməli insanın şəhadət gözünün görmədiyini *(o şey ki, bir gündən, 24 saatdan sonra görünəcək), "(Şeytan)* və onun camaatı" görürlər. Burada çox incə bir məqamı vurğulamaq lazımdır ki, 0. 237 saniyədə qəlbə yazılan "gizlin" – qeybə aiddir, onu yalnız Allah bilir. Bəsirət gözünün və ya İblisin *(Şeytanın)* gizlinə yazılanın *(niyyət)* həmin an olduqdan, o zaman müstəvisində görüntüsündən sonra gördükləri *(Səbə-14 "o yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər alçaldıcı əzab içində qalmazdılar)* qeybə aid olan deyil. Əgər axirət həyatında qəlb yazısına uyğun olaraq istənilənlər, istəyənə həmin an yaxınlaşırsa və istəyən istədiyinin içində o anda da olursa, dərgah zaman müstəvisində olmalarına baxmayaraq cinlərdə bu belə deyildir. Verilən informasiyalardan belə görünür ki, cinlər istədikləri an yerlə birinci göyün müvafiq yerlərində ola bilirlər. Ancaq fərqli olaraq məkan onlara deyil onlar məkana yaxınlaşırlar. Bu fikirləri "**Səbə"** surəsinin **12-14**-cü və **Ən-Nəml** surəsinin **38-39**-cu ayələri də tam təsdiq edir.

**Səbə-12**. Süleymana da küləyi ram etdik. O, səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol gedirdi. Onun üçün mis mədənini sel kimi əridib axıtdıq. Cinlərin bir qismi Rəbbinin izniylə onun yanında işləyirdi. Onlardan hər kəs *(Süleymana itaət etməyib)* əmrimizdən çıxırdısa ona cəhənnəm odunun əzabından daddırırdıq.

**13**. Onun *(Süleyman)* üçün nə istəsə- məbədlər, heykəllər, böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar düzəldirdilər. Siz, ey Davud ailəsi! *(Allaha)* **şükûranlıqla itaət edin**! *(Bu nemətə şükr edin!)* Bəndələrimdən *(nemətlərimə)* **şükr edən azdır!**

**14**. Sonra *(Süleymanın)* ölümünü hökm etdiyimiz zaman onun öldüyünü onlara *(cinlərə)* ancaq *(Süleymanın)* əsasını

yeyən bir ağac qurdu xəbər verdi. *(Süleymanın əlini dayayıb durduğu əsa sınandan sonra)* o *(ölmüş vəziyyətdə)* yerə yıxıldıqda cinlərə bəlli oldu ki, **əgər onlar qeybi bilsəydilər alçaldıcı əzab** *(məşəqqətli iş)* **içində qalmazdılar**.

**Ən-Nəml-38**. *(Süleyman)* dedi: "Ey Əyanlar! Onlar müti vəziyyətdə *(müsəlman olaraq)* yanıma gəlməmiş hansınız onun *(Bəlqisin)* taxtını mənə gətirə bilər?"

**39**. Cinlərdən olan *(cox qüvvətli və nəhəng)* bir ifrit dedi: "Sən yerindən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm və etibarlıyam!"

Belə çıxır ki, dərgah zaman sürəti ilə ağılda yaranan şəkillərin, həmin sürətlə "*(Şeytan)* və onun camaatı"na görünməsi, insanların onları "görə bilmədikləri yer"dən, onların insanların nəyə meylli olmalarını əvvəlcədən "görmə"lərini təmin edir. Ona görə də bu meyllilikdən istifadə edərək insanlara "dünyanı yaxşı göstər"irlər. Vəsvəsə ilə, yaşananda dünyanın *(faninin)* nəfsin *(Şeytanın)* razı qalacağı şəkilləri ağıla göstərmək, insanlara təkrar-təkrar hisslər keçirtdirməklə Allahın razı olmayacağı niyyətləri *(şəhadət dünyasında ortaya çıxanda-əməlləri)* onların qəlbinə *(gizlinə)* yazdırmğa çalışırlar.

**Ən-Nəhl-63**. *(Ya Rəsulum!)* Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə peyğəmbərlər göndərmişdik. Şeytan onlara öz çirkin əməllərini xoş göstərmişdi. Bu gün Şeytan onların dostudur. Onlar *(qiyamət günü)* şiddətli bir əzaba düçar olacaqlar – yəni imanın zəifliyi ucbatından ancaq dünyanın razı olacağı niyyətlər yazdırırlar və bu niyyətlər yaşananda, əmələ çevriləndə görünən pis şəklin *(batilin)* təkrar *(qəlbə)* yazılması üçün bütün vasitələrə əl atırlar ki, dünya sevgisi dünyada qalsın. Qeyd etmişdik ki, bunun üçün bütün fani dünya Şeytan və onun camaatının ixtiyarındadır. İblisin, Allahın gizlinləri bildiyini unudaraq dərgahın daha yuxarı məqamlarını əldə etmək üçün **zənnə, gümana əsaslanaraq qəlbinə yazdığı niyyət**, onu dünya sevgisini dünyada saxlamaqla **fanini əbədiyə çevirmək missiyasını** yerinə yetirməyə məcbur edir.

**Əl-Ənam-34**. Səndən əvvəl də peyğəmbərlər təkzibə məruz qalmışdılar. Lakin onlar təkzib olunduqları və əziyyət verildikləri şeylərə dözdülər. Nəhayət, Bizim köməyimiz onlara yetdi. **Allahın sözlərini** dəyişə biləcək heç bir kimsə yoxdur!

Bütün bunlardan belə çıxır ki, **İblis özü də bilmədən nurərəfəsi enerji *(fani dünya sevgisi)* istehsalına xidmət edir**.

**Əl-Həcc-3**. Allah haqqında heç bir şey bilmədən *(elmsiz-dəlilsiz "Rəbbimiz mələklərdən özünə övlad götürmüşdür" – deyə)* mübahisə edən və Allaha asi olmuş hər bir şeytana uyan insanlar da vardır.

**4**. *(Şeytan)* haqqında əzəldən belə yazılmışdır: hər kəs onunla dostluq etsə *(Şeytan)* onu yoldan çıxardıb cəhənnəm əzabına sürükləyər.

Əgər insana dünya yaxşı göstərilməsə *(nəfs)* və o, dünyanı sevməsə, onda nəyi nura çevirə və ya nədən nur istehsal edə bilər? Bunun dərk olunması, ibrət alınması üçün Quranda son dərəcə ibrətamiz məsəllər çəkilir:

**Ən-Nəhl-64**. Biz kitabı *(Quranı)* sənə yalnız *(müşriklərə)* ixtilafda olduqları məsələləri izah etmək və möminlərə bir hidayət və mərhəmət olsun deyə nazil etdik!

**65.** Allah göydən bir yağış endirər, onunla yer üzünü öldükdən sonra dirildər. *(Öyüd-nəsihətə)* qulaq asanlar üçün bunda bir ibrət vardır *(enerji çevrilməsi).*

**66**. Şübhəsiz ki, davarda *(sağmal heyvanlarda*) da sizin üçün bir ibrət vardır. Biz onların qarınlarındakı qanla ifrazat arasında olan təmiz südü sizə içirdirik. O, içənlərin boğazından rahat keçər *(enerji çevrilməsi-otu yeyib südə çevirirlər).*

**67**. Siz xurma ağaclarının meyvəsindən və üzümlərdən şərab və gözəl ruzi düzəldirsiniz. Şübhəsiz ki, bunda da ağılla düşünənlər üçün bir ibrət vardır *(enerji çevrilməsi-şirə içkiyə çevrilir).*

**68**. Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların qurduqları cardaqlarda özünə evlər tik *(pətəklər sal)*";

**69**. Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat get. *(O arıların)* qarınlarından, insanlar üçün şəfa olan müxtəlif rəngli bal cıxar. Şübhəsiz ki, bunda da düşünüb dərk edənlər üçün bir ibrət vardır *(enerji çevrilməsi-şirə bala çevrilir).*

Bu ayələrdə düşünüb ibrət alınası məsələ cevrilmədir, isteh-saldır. Əgər bal arısı pətəyə şirə gətirməzsə, həmin arını pətəkdən qovurlar. Pətəyə şirə gətirən arının da təkcə şirə gətirdiyinə görə pətəkdə qalması hələ mütləq deyildir. Şirə gətirən arı pətəkdə qalmaq hüququ qazanmaq üçün, gətirdiyi şirəni, bala çevirməlidir. Ona görə ki, balla müqayisədə şirə müvəqqətidir və fanidir, o bir necə saatda qıcqırıb xarab olur. Ancaq bal şirəyə nisbətən çox uzun müddət, hətta yüz illərlə qala bilər, xarab olmaz. Bu, kifayət qədər kobud müqayisə olsa da bal şirəyə nisbətdə "əbəddir".

Quranda belə ibrətamiz məsəllər çəkməklə insanlardan istə-nilən odur ki, düşünüb dərk etsinlər. Başa düşsünlər ki, fani dünya dəyərlərinə olan sevgi, bal arısının gətirdiyi şirəyə bən-zəyir. Bu şirə və ya sevgi müvəqqəti, keçicidir.

**Ali-İmran-185**. Hər bir kəs ölümü dadacaqdır. Şübhəsiz ki, mükafatlarınız qiyamət günü tamamilə veriləcəkdir. Oddan uzaq-laşdırılıb, Cənnətə daxil edilən kimsə muradına çatacaqdır. **Dünya həyatı isə aldadıcı həzzdən başqa bir şey deyildir.**

**Əl-Ənam-32.** Dünya həyatı oyun-oyuncaq və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xe-yirlidir.

**Ər-Rəd-26**. Allah istədiyi bəndənin ruzisini bol da edər, azal-dar da. *(Məkkəlilər)* dünya həyatı *(bol ruzi)* ilə sevindilər. Halbuki, **dünya həyatı axirət həyatı ilə müqayisədə çox cüzi bir şeydir.**

**Əl-İsra-18.** Hər kəs **fani dünyanı istəsə**, dilədiyimiz şəxsə istədiyimiz neməti **orada verərik**, sonra isə *(axirətdə)* ona Cəhənnəmi məskən edərik. O *(Cəhənnəmə)* qınanmış, qovulmuş bir vəziyyətdə daxil olar!

**Əl-Qəsəs-60.** Sizə verilən hər hansı bir şey *(dövlət, övlad, xoş güzəran)* ancaq bu **fani dünyanın malı və bərbəzəyidir**. Allah yanında olan *(nemətlər)* isə daha yaxşı və daha baqidır *(əbədidir).* Məgər ağla gəlməzsiniz?!

**Əl-Ənkəbut-64.** Bu dünya həyatı oyun–oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, **əbədi həyatdır.** Kaş biləydilər!

**Əl-Hədid-20.** *(Ey insanlar!)* Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzyir ki, onun yetişdirdiyi bitki *(məhsul)* əkincilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. *(Dünya malına aldananları)* Axirətdə şiddətli əzab, *(dünya malına uymayanları isə)* Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan başqa bir şey deyildir.

**Hud-15.** Kim *(axirətdən vaz keçib)* **dünyanı və onun bər-bəzəyini** istəyirsə, Biz ona əməllərinin əvəzini *(sağlamlıq, sərvət, övlad, gözəl yaşayış)* elə orada *(dünyada)* verərik. Onların dünyadakı mükafatları əsla azaldılmaz.

***16.*** Belələrinin axirətdə atəşdən *(cəhənnəm odundan)* başqa heç bir payı yoxdur. Onların dünyada gördükləri işlər puç olar və bütün əməlləri boşa cıxar!

**Əl-Ənbiya-16.** Biz göyü, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq.

**17**. Əgər Biz əyləncə etmək istəsəydik, onu mütləq Öz dərgahımızdan edərdik. Lakin Biz etmədik.

**18**. Xeyr, Biz batili haqla rədd edərik və o da onu yox edər. *(Bir də baxıb görərsiniz ki,)* o yox olub getmişdir. ***(Batil***

***sözlərlə Allaha)*** **isnad etdiyiniz sifətlərə görə vay halınıza**!

**Ər-Rum-21**. Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən sövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün **ibrətlər vardır**!

**Əş-Şura-20.** Biz **axirət qazancını** *(savabını)* istəyənin qazancını artırar, **dünya mənfəəti** istəyənə də ondan verərik. Onun axirətdə heç bir payı yoxdur.

Fani, keçici, müvəqqəti dünya dəyərlərinə olan sevgini *(nurərəfəsi enerjini)* dünyada saxlamayıb, Allah razı olar ümidilə təmənnasız sevgiyə – Nura *(İlkə)* çevirməklə, dünya həyatında Nur istehsalçısı kimi formalaşmaq, *(yəni kamilləşmək)* axirətdə əbədi səadətə aparan doğru yoldur. Bu yolu tapmaq üçün, Allah tərəfindən göndərilmiş peyğəmbərlər vasitə, müqəddəs kitablar isə sanki təlimat, vəsaitdirlər.

**Əl-Bəqərə-207.** İnsanların eləsi də vardır ki, Allahın **razılığını qazanmaq yolunda** *(Allah rizası üçün)* öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!

**272**. *(Ya Rəsulum!)* İnsanları doğru yola yönəltmək sənin borcun deyildir. *(Sənin vəzifən onları ancaq haqq yola dəvət etməkdir.)* **Allah kimi istəsə**, onu **doğru yola** yönəldər. Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin *(mənfəəti)* ancaq özünüz üçündür. Siz onu yalnız Allahın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz.

**Ali-İmran-162.** Allahın rizasını qazanmaq ardınca gedən şəxs, Allahın qəzəbinə düçar olmuş şəxs kimi ola bilərmi? Onun *(qəzəbə düçar olanın)* yeri Cəhənnəmdir. O yer necə də pisdir!

**164.** Allah mömünlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə *(Allahın)* ayələrini **oxuyan, onları təmizləyən**, onlara Kitabı *(Quranı)* və **hikməti öyrədən** bir pey-

ğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.

**Əl-Nisa-114.** Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Xeyir ancaq **sədəqə verməyi**, yaxud **yaxşılıq etməyi** və ya insanlar arasında **sülh yaratmağı** əmr edən kimsənin **söhbətindədir**. Allahın razılığını qazanmaq üçün belə işlər görən kimsəyə *(axirətdə)* böyük mükafat verəcəyik!

**İbrahim-31.** İman gətirən bəndələrimə de: "namaz qılsınlar, heç bir alış-verişin və dostluğun mümkün olmayacağı gün gəlməzdən əvvəl onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləsinlər".

**Ər-Rum-38.** *(Ya Rəsulum!)* Yaxın qohuma, yoxsula, müsafirə haqqını ver. Allah rizasını diləyənlər üçün bu daha xeyirlidir. *(Axirətdə)* nicat tapanlar məhz onlardır!

**39.** *(Sərvətinizin)* xalqın mal-dövləti hesabına artması üçün sələmlə verdiyiniz malın Allah yanında heç bir **bərəkəti olmaz**.

**Allah rizasını diləyərək** verdiyiniz **sədəqə *(zəkat)*** isə belə deyildir. Bunu edənlər *(dünyada mallarının bərəkətini, axirətdə isə öz mükafatlarını)* qat-qat artıranlardır!

**Əl-Leyl-1**. And olsun *(aləmi zülmətə)* bürüməkdə olan gecəyə;

**2.** And olsun işıqlanmaqda olan gündüzə;

**3.** And olsun kişini və qadını *(erkəyi və dişini)* yaradana ki,

**4.** Sizin zəhmətiniz *(ey insanlar!)* cürbəcürdür! *(Bəziniz Cənnət üçün, bəziniz isə Cəhənnəm üçün calışırsınız)*.

**5.** Kim *(malını Allah yolunda)* versə, *(Allahdan)* qorxsa,

**6.** Və ən **gözəl sözü** *(la ilahə illallah kəlməsini)* təsdiq etsə,

**7.** Biz ona **ən asan olanı** *(Cənnəti)* müyəssər edəcəyik!

**8.** Amma kim *(malını Allah yolunda xərcləməyə)* xəsislik etsə, *(mal-dövlətinə güvənib Allaha)* möhtac olmadığını sansa,

**9.** Və **ən gözəl sözü** *(la ilahə illallah kəlməsini)* **yalan** saysa,

**10.** Biz ona **ən çətin olanı** *(Cəhənnəmi)* müyəssər edəcəyik *(onu Cəhənnəm üçün hazırlayacağıq!)*

**11.** *(O, Cəhənnəmə)* düşəcəyi zaman mal-dövləti ona heç bir fayda verməz.

**12.** Bizim öhdəmizə düşən yalnız **doğru yolu göstərməkdir**! *(Mömin və ya kafir olmaq isə hər kəsin öz işidir).*

**13.** Axirət də Bizim, dünyada Bizimdir!

**14.** *(Ey insanlar!)* Mən sizi alovlanan bir atəşlə qorxutdum.

**15.** Ora ancaq azğın *(kafir)* daxil olar.

**16.** O kimsə ki, *(haqqı)* yalan sayar*, (imandan)* üz döndərər!

**17.** Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan uzaqlaşdırılar. *(Nicat tapar).*

**18.** O kimsə ki, **malını *(Allah yolunda)* verib *(günahlardan)* təmizlənər,**

**19.** O şəxsin boynunda heç kəsin bir minnəti *(nəməti)* yoxdur ki, onun əvəzi verilsin *(etdiyi yaxşılıq ona əvəz olsun; və ya: o, etdiyi yaxşılıq müqabilində heç kəsdən bir mükafat gözləməz).*

**20.** O ancaq ən uca olan **Rəbbinin rizasını** qazanmaq üçün belə edər.

**21.** And olsun ki, o *(öz Rəbbindən Cənnətdə ona verəcəyi nemətlərə görə)* razı olacaqdır!

**Əl-İnsan-7.** Onlar *(Cənnətə nail olacaq müttəqillər)* elə kimsələrdirlər ki, **verdikləri sözü** yerinə yetirər və dəhşəti *(aləmi)* bürüyəcək gündən *(qiyamət günündən)* qorxarlar.

**8**. Onlar **öz iştahaları** çəkdiyi halda *(və ya: Allah rizasını qazanmaq uğrunda)* **yeməyi yoxsula, yetimə və əsirə** yedirərlər.

**9**. *(Və sonra da yedirdikləri kimsələrə belə deyərlər:)* «Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən *(bu ehsan müqabilində)* nə bir mükafat, nə də bir təşəkkür istəyirik».

Yuxarıda qeyd etmişdik ki, dünya sevgisinin *(nurərəfəsi enerjini)* Nura cevrilməsində əsas rolu oynayan ağıldır. İnsanı yer üzünün əşrəfi edən də ağıldır. Yaşananda əmələ cevriləcək *(«gizlini»)* niyyəti qəlbə yazan da ağıldır. Dünya həyatı boyunca, sanki Ruh ağla dolmaq *(**Əl-Həcc-46**. Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, **düşünən qəlbləri,** eşidən qulaqları olsun?)* Ağıl isə ruha dolmağa can atır. Yəqin ki, ruhun ağla dolması anı «düşünən qəlb» anından, yəni axirətin əbədi, dünyanın fani olmasının dərkindən başlayır. İbrət almağı bacaranlar üçün həmin ana aparan yollar, məqamlar, əlamətlər saysız-hesabsızdır. Dərk inamı, inam imanı artırır, iman isə Allahın razı olacağı niyyətin qəlbə yazılmasını təmin edir. Həmin niyyətlər yaşananda, yaşanmış əməlin yaratdığı *(şəkil + hiss = niyyət)* niyyət daha cilalanmış formada qəlbə yazılır. Bu təkrarlanan yazı – yaşam, niyyət – əməl dövriyyəsi insanı kamilləşdirir. *(**Əş-Şuəra-89**. Ancaq **sağlam bir qəlblə** Allahın hüzuruna gələn kimsədən başqa).*

**İndi də dərk edənlər və dərk etməyənlər haqqında nazil olunmuş ayələrə nəzər salaq.**

**Sad-29.** *(Ya Peyğəmbər! Bu Quran)* sənə nazil etdiyimiz mübarək bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də *(ondan)* ibrət alsınlar!

**Fatir-28.** İnsanların, heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır. Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar. *(Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar).*

**Əl-Bəqərə-242. Allah Öz ayələrini, bu qaydada asanlaşdırır ki, düşünüb anlayasınız.**

**Ali-İmran-7**. *(Ya Rəsulum!)* Sənə kitabı *(Quranı)* nazil edən Odur. Onun bir hissəsi möhkəm, digər qismi isə mütəşabih *(çətin anlaşılan)* ayələrdir. Ürəklərində əyrilik olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar. Halbuki, onların yozumunu Allahdan başqa hec kəs bilməz. **Elmdə qüvvətli olanlar** isə: «Biz onlara iman gətirdik, onların hamısı Rəbimizin dərgahındandır», – deyərlər. **Bunları ancaq ağıllı adamlar dərk edərlər**.

**İbrahim-4.** Biz hər bir peyğəmbəri yalnız öz millətinin **dilində** *(danışan)* göndərdik ki,*(Allahın əmrlərini)* ona **izah edə** bilsin...

**52**. Bu *(Quran)* insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm Allahın tək bir tanrı olduğunu bilsinlər, həm də **ağıl sahibləri** düşünüb ibrət alsınlar!

**Ən-Nəhl-44.** Biz onları açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni *(hökmləri, halal-haramı)* izah edəsən və bəlkə, onlar da **düşünüb dərk edərlər**!

**Məryəm-97.** (Ey Muhəmməd!) Biz *(Quranı)* Sənin dilinlə asan etdik ki, onunla ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərə *(Cənnətlə)* müjdə verəsən və inadkar bir camaatı *(Cəhənnəmlə)* qorxudasan.

**Ən-Nəml-81**. Sən o korları düşdükləri **əyri yoldan düz yola** gətirə bilməzsən. Sən *(haqqı)* yalnız ayələrimizə inananlara **eşitdirə** bilərsən. Məhz onlar müsəlmandırlar.

**Əl-Qəsəs-51.** Həqiqətən, Biz **sözü *(Quranı)*** onlar üçün bir-birinin ardınca *(müfəssəl)* izah etdik ki, bəlkə **öyüd-nəsihət** qəbul etsinlər.

**52.** *(Qurandan)* əvvəl kitab vermiş olduğumuz kəslər *(mömin yəhudi və xaçpərəstlər)* ona inanırlar.

**Əl-Bəqərə-171.** Kafirlər səda və nidadan *(cığırtı və bağırtıdan)* başqa bir şey anlamayanlara (heyvanlara) bənzərlər. Onlar kar, lal və kordurlar. Buna görə də *(haqqı)* dərk etməzlər.

**Əl-Ənfal-22.** Allah yanında *(yer üzündə)* gəzən canlıların **ən pisi** *(haqqı)* dərk etməyən karlar və lallardır. Buna görə də *(haqqı)* **dərk etməzlər**.

**55**. Allah yanında *(yer üzündə)* gəzən canlıların **ən pisi küfr edənlərdir**. Onlar artıq iman gətirməzlər.

**Yunus-42.** Onların içərisində *(Quran oxuyarkən)* səni dinləyənlər də vardır. *(Onu)* **ağlıkəsməz, anlamaz** karlara sənmi **eşitdirə** biləcəksən?!

**43**. Onların içərisində sənə **baxanlar** da vardır. **Bəsirəti olmayan korlara** doğru yolu sənmi göstərə biləcəksən?!

Quranda bir məqam xüsusi vurğulanır ki, onlar **dərk etmədiklərinə** görə kafir oldular. Dərk olunmayan iman, bünövrəsi olmayan binaya bənzər ki, bu bina zəif bir təsirdən dağılar.

**Əl-Hucurat-14**. Bədəvi ərəblər: «Biz iman gətirdik!» – dedilər. *(Ya Peyğəmbər! Onlara)* de: «Siz *(qəlbən)* iman gətirmədiniz!» Ancaq: «Biz islamı qəbul etdik!» – deyin. Hələ **iman** sizin **qəlblərinizə daxil olmamışdır**". Yəni **ruhun, yaddaşı olan qəlbə** yazılmamışdır. Bu isə ancaq «gizlinləri» bilən Allaha agah olur. Yazılmayan isə yaşana bilməz. Allahın yaratdığı qanunlar həmin şəxsə imanlı olmağa imkan verməz.

**Yunus-96.** Həqiqətən, əleyhinə sənin Rəbbinin **sözü** gerçəkləşmiş olanlar iman gətirməzlər!

**97**. Onlara hər hansı bir ayə gəlsə, şiddətli əzabı görməyincə *(inanmazlar).*

**98**. Əzab gəlməkdə ikən Yunusun ümmətindən başqa iman gətirib, **imanı özlərinə fayda verə bilən** bir məmləkət əhli vardırmı?! *(Yunusun ümməti)* iman gətirən zaman onları **dünyadakı rüsvayçılıq** əzabından qurtardıq və onlara bir müddət gün-güzaran verdik.

**99**. Əgər **Rəbbin istəsəydi**, yer üzündə olanların hamısı iman gətirərdi: *(insanları iman gətirməyə sənmi məcbur edəcəksən?!)*

**Yunus-100**. Hec kəs **Allahın izni** olmadan iman gətirə bilməz. Allah **anlamayanları** əzaba düçar edər.

Yəqin ki, iman Allahın razı olacağı əməlləri törədən niyyətlərin ümumiləşdirilmiş adıdır. Yəni, Nur istehsalına çatdıracaq «gizlin»lərdir ki, Allahdan başqa onları kimsə bilmir. Görünür bütün ruhani, qeyb,(metafizik) qanunlarda məhz insanları Nur istehsalçılarına çevirməyə xidmət etmək üçün yaradılmışdır. Açıq şəkildə bildirilir ki, Yunus ümməti qəlb yazılarını dəyişən kimi onlardan əzab götürüldü.

**"Yunus"** surəsinin **100**-cü ayəsindən ilk baxışda belə məna çıxa bilər ki, qiyamət günü Cəhənnəmi haqq edənlər: «bizdə günah yoxdur, Allah izin verəydi, biz də inanar, iman gətirərdik» – deyə bilərlər. Amma bu yanaşma çox aldadıcıdır və ancaq səthi yanaşmadan irəli gələ bilər. Ona görə ki, Allahın sözünün *(təqdir etdiyi şəkillərin)* mütləq yerinə yetiriləcəyini təmin edən qanunlar vardır. Bu, təqdir yazısıdır. Yazılanlar pozula bilməz qanuna görə, kimlərinsə inanması, xilası üçün Allah həmin qanunları dəyişmir. Ancaq möcüzələr göstərilməsi istisnadır.

**Əl-İsra-59.** Bizə möcüzələr göndərməyə mane olan şey ancaq **əvvəlkilərin onları yalan hesab etmələridir**. Biz Səmud tayfasına açıq-aşkar bir möcüzə olaraq dişi bir dəvə verdik, lakin onlar ona zülm etdilər *(dəvən tutub kəsdilər).* Biz möcuzələri yalnız *(bəndələrimizi)* qorxutmaq üçün göndəririk.

Belə ki, qanunları yaradan Allah istədiyi vaxt həmin qanunları dəyişə bilər ki, insanların adət edərək adi saydıqları şeylər öz adi halından çox kənara çıxaraq insanlar üçün möcüzə olsun ki, düşünüb dərk etsinlər. Dərk etsinlər ki, Yaradan, Allah var. Onun göndərdiyi Kitablarda yazılanlar haqdır. Allahdan qorxaraq Onun razı olacağı niyyətləri qəlblərinə *(gizlin)* yazıb Nur istehsalçılarına çevirilsinlər. Doğru yola yönəlsinlər.

**Əl-Hucurat-13.** Ey insanlar! Biz sizi bir kişi və bir qadından *(Adəm və Həvvadan)* yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli

olanınız Allahdan ən çox qorxanınıızdır. Həqiqətən Allah *(hər şeyi)* biləndir, xəbərdardır.

Quran ilkdən (birinci yaradılmış ilk enerji olan Nurdan) başlayaraq İlkə *(Nura)*dək enerji çevrilməsinin vəhdətdə, qanunlarla, idarə olunan nizam-intizamla baş verdiyini anladır. Bu müqəddəs kitab göstərir ki, bu nizam-intizamı pozmağa heç bir qüvvənin gücü çatmaz. Burada hər şeyin dəqiqliklə sayılıb hesablandığı bildirilir. Bunun başa düşülməsi üçün saysız-hesabsız əlamətlərin olduğu dönə-dönə vurğulanır. Bu baxımdan aləmlər də iç-içə və müxtəlif zaman müstəvilərində olduqlarından bir-birinə maneçilik törətmədən yaşaya bilirlər. Heç bir varlığın boş yerə yaradılmadığı, xüsusən insanın müəyyən missiya üçün xəlq edildiyi bəyan olunur.

Bu baxımdan "**Ər-Kəhf**" surəsinin **83**-cü ayəsindən başlayan Nur istehsalı-zülmətdən nurun ayrılması məqamlarına açıqlıq gətirən Zülqərneyn hekayəti xüsusən ibrətamizdir.

**Ər-Kəhf-83.** *(Ya Rəsulum!)* Səndən Zülqərneyn barəsində soruşarlar. De: «Onun barəsində sizə bir hekayət söyləyəcəyəm!»

**84**. Biz onu yer üzündə möhkəmləndirib qüvvətləndirdik və hər şey verdik *(Elm, Hikmət).*

**85.** O, yola çıxdı.

**86.** Nəhayət, **günəşin batdığı yerə** gəlib çatdıqda onu **qara palçıqlı bir çeşmədə** batan gördü. O, **çeşmənin** yanında bir tayfa da gördü. Biz ona belə buyurduq: «Ya Zülqərneyn! Sən onlara*(imana gəlməsələr)* əzab da verə bilərsən, *(haqq yola dəvət edib)* onlarla yaxşı rəftar da edə bilərsən!» Bu ayədə **«qara palcıq»**lı, – **Ər-Hicr-26**-da «Biz insanı **quru və qoxumuş qara palcıqdan yaratdıq**!» və **Əs-Saffat-11**-dəki Axı Biz onları **yapışqan bir palçıqdan** yaratdıq..." informasiyalarında hər üç **"qara palçıq"** eyni məkanın ünvanıdır.

**"Ər-Kəhf"** surəsinin **84**-cü ayəsində «bir çeşmədə batan gördü», "**Ət-Təhrim"** surəsinin **8**-ci ayəsində isə «onların nuru önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən» – yazılır.

Ayədə işlədilən«çeşmə» sözü **<u>nəyinsə axdığı yeri</u>** bildirdiyinə görə belə çıxır ki,o "günəşi" "çeşmə" kimi "axıb şölə saçan" da "batan gördü".

Ayədəki "günəş" – (Qəlbdəki o ruh bir nurun içindədir. O nur isə sanki parlaq bir ulduzdur. Ən-Nur-35).

"Günəş"in "sanki parlaq ulduz"ların cəminin «batdığı yer» tayfadakı qəlblərdir. "Həmin qəlb və ruhlar", "o insan cisimlərindədir ki", – Ən-Nur-36.

Mənaları yerinə qoyduqda "**Ər-Kəhf"** surəsinin **86**-cı ayəsi belə səslənir: *Nəhayət, nur içində olan ruhların "batdığı yerə" gəlib çatdıqda* ***onu qəlblərdə*** *(**Ər-Hicr-26**) batan gördü.* (Yəni qəlblərdən – çeşmələrdən nur axıb şölə saçmırdı) O, "qurumuş" Nur çeşməsinin yanında bir tayfa da gördü. Biz ona belə buyurduq: «Ya Zülqərneyn! Sən onlara *(imana gəlməsələr)* əzabda verə bilərsən, *(Nur istehsalı yoluna çıxmaq ücün), (Nur istehsalı yoluna çıxsalar)* onlarla yaxşı rəftar da edə bilərsən!»

**87**. O *(Zülqərneyn)* belə cavab verdi: Zülm edənə əzab verəcəyik, *(qəlblərinə Nur istehsalına aparan niyyətlər yazmayanları, əzab verməklə, zorla yönəldəcəyik).* Sonra o, Rəbbinin hüzuruna qaytarılacaq. *(Rəbbi də)* ona *(Cəhənnəmdə)* görünməmiş bir əzab verəcəkdir! *(Dünya sevgisini Nura çevirməsələr, qəlblərinə yazılanları axirətdə istəyərək özlərinə Cəhənnəmi yaxınlaşdıracaqlar).*

**88**. İman gətirib yaxşı iş görənləri isə ən gözəl mükafat *(Cənnət)* gözləyir. Biz ona asan bir şey əmr edəcəyik! *(Qəlblərinə Nur istehsalına aparan niyyətlər yazanlar, dünya sevgisini Nura çevirənlər, qəlblərinə yazılanları axirətdə istəyərək özlərinə Cənnəti yaxınlaşdıracaqlar).*

**89.** Sonra o, başqa bir yola tərəf üz tutub getdi.

**90.** Nəhayət, günəşin çıxdığı yerə çatdıqda onu bir qovm üzərinə **doğan** gördü ki, onlardan ötrü ona (günəşə) qarşı heç bir sipər yaratmamışdıq. *[Nəhayət, günəşin (sanki parlaq ulduzların cəminin) çıxdığı yerə (nurun axıb şölə saçdığı) qəlblərə çatdıqda, onu bir qövm üzərinə doğan gördü ki, onlardan ötrü ona (Nura) qarşı heç bir sipər yaratmamışdıq].* Yəni qəlblərinə

yazılan gözəl niyyətlər yaşanaraq əmələ çevriləndə, təkrar-təkrar gözəl niyyətlər yazılırdı. Və bunun nəticəsində davamlı olaraq heç bir maneəyə rast gəlmədən Nur istehsal olunurdu. *(Qəlblər təmiz idi və nur istehsalına **-zülmətdən nurun ayrılmasına** heç nə mane olmurdu).*

Burada bir-birinin əksi olan iki fərqli **Nur istehsalı -** ***zülmətdən nurun ayrılması*** **şəraitindən** bəhs edilir. Birincidə Nur istehsal olunmadığına görə "günəşi batan" gördü. İkincidə isə Nur istehsal olunduğuna görə "doğan" gördü.

**91.** Belə idi, Biz hələ onun *(qəlbin)* yanında daha nələr olduğunu da bilirik.

**92**. Daha sonra o *(Zülqərneyn)* başqa bir yola üz tutub getdi.

**93.** Nəhayət, iki dağ arasına gəlib çatdıqda onların ön tərəfində az qala **söz anlamayan** bir tayfa gördü. «söz anlamayan» – yəni istənilən *(söz → şəkil + hiss = niyyət)* şəkli başa düşmədiklərinə görə, seçmədən qəlblərinə yazan tayfa. «İblis və onun camaatının» fəaliyyət göstərmələri üçün münbit şəraitin var olduğu məkan.

**94.** Onlar dedilər: «Ey Zülqərneyn!» Yəcuc-məcuc bu ərazidə *(haqla batilin sərhəddində)* fitnə-fəsad törədirlər – yəni *(İblis, … «Şeytan və onun camaatı»… insanlara vəsvəsə vermək, təlqin etməklə pis niyyətləri onların qəlblərinə yazdırırlar).* Bizimlə onlar arasında bir sədd çəkmək üçün sənə müəyyən məbləğ versək olarmı?» Yəni sənə elm, hikmət verilmiş olduğuna görə bizi xilas et, biz də sənə əvəzini verək.

**95.** O *(Zülqərneyn)* dedi: «Rəbbimin mənə verdiyi *(yəni, sizə xilasınız üçün vasitəçi olaraq etdiyim yaxşı işə görə Rəbbimdən alacağım xeyir)* daha yaxşıdır». Gəlin öz qüvvənizlə mənə kömək edin, *(yəni siz istəməsəniz, sizin əvəzinizə kimsə qəlblərinizə yaxşı niyyət yaza bilməz),* mən də sizinlə onlar arasında möhkəm bir sədd düzəldim! *(Yəni sizin bu işi görməyinizə vasitəçi olum, yol göstərim).*

**Ər-Kəhf-96.** Mənə **dəmir** parçaları gətirin! **–(“yəni mənə qəlblerinizi gətirin!”)**

Bu ayədə “**dəmir**”in hansı mənada işlədilməsinə nəzər salaq:

***(İncil)*. Əhdi-Cədid. Bibliya tərcümə institutu 1993. Matta, 13-cü fəsil:**

**12.** Zira, kimin **varısa ona veriləcək və artırılacaqdır**; fəqət kimin **yoxusa əlində olan da ondan alınacaqdır** *(qəlb yazısına uyğun olaraq).*

**13.** Mən ona görə onlara məsəllərlə söyləyirəm ki, **gördükləri halda görməzlər**, **eşitdikləri halda eşitməzlər** və anlamazlar.

**14.** Yeşaya peyğəmbərin onlar üçün dediyi bu **sözlər** yerinə gəlir:

Müntəzəm eşidəcəksiniz, amma **anlamayacaqsınız**;
Müntəzəm baxacaqsınız, lakin **görməyəcəksiniz**;

**15.** Zira bu **xalqın ürəyi *(qəlbi)* kobudlaşmışdır, *(daşa dönmüşdür)***,

Qulaqları ilə ağır eşidirlər
Və gözlərini yummuşlar ki,
Gözləri ilə görməsinlər,
Qulaqları ilə eşitməsinlər,

“**Ürəkləri *(qəlbləri)*** ilə **anlamasınlar** və **dönməsinlər** ki, Mən onlara **şəfa verim**”. Yəni **dəmir kimi möhkəm niyyətlər** gətirin ki, **qəlblərinizdəki**, dünyanın razılığını qazanmaq üçün İblis tərəfindən **yazdırılmış niyyətlərin üstünü** örtək. Qaralmış və **daş** kimi **bərkimiş qəlbləriniz** yumuşalsın.

**Əl-İsra-44.** Yeddi göy, yer və onlarda olanlar *(bütün məxluqat)* **Allahı təqdis edir**. Elə bir şey yoxdur ki, Allaha tərif deyib ona şükür etməsin, **lakin siz onların *(dillərini bilmədiyiniz üçün)* təqdisini anlamazsınız.** *(Allah)* həqiqətən həlimdir, bağışlayandır!

**Əl-İsra50.** (Ya Rəsulum!) De: "daş olun, yaxud **<u>dəmir</u>**!

**Səbə-10.** Həqiqətən, Biz Davuda Öz dərgahımızdan bir lütf bəşx edib: «Siz ey dağlar, siz ey quşlar! **Onunla *(Davudla)* birlikdə** Allahı təsdiq edib şəninə təriflər deyin!» – deyə buyurduq və **dəmiri onun üçün yumuşaltdıq**.
**Sebe- 10**.(M. Esed ) Ve Biz Davud'u lütfumuzla onurlandırdık: "Siz ey dağlar! Onunla birlik olup Allah'ın yüceliğini terennüm edin! Ve ey **<u>kuş</u>**lar!" **Biz o'ndaki bütün <u>sertliği ve katılığı</u> yumuşattık.**
...Ve ey **<u>kuş</u>**lar!"...- Sebe 13.Biz, her insanın **<u>kuş</u>**unu (işlediklerini, yaptıklarını) kendi boynuna doladık, kıyamet gününde onun için açılmış olarak **önüne konacak** bir kitap çıkarırız.

***Səbə*** surəsinin **10**-cü ayəsindəki **«dəmiri yumşaltdıq» – bənzətməsində <u>"qelbi yumuşaltmaq"</u>** nəzərdə tutulur.. Bunu **Əl-İsra-44**-dəki «lakin siz onların *(dillərini bilmədiyiniz üçün)* **təqdisini anlamazsınız**» və **Səbə-10**-dakı «Həqiqətən, Biz Davuda Öz dərgahımızdan bir lütf bəşx edib: «Siz ey dağlar, siz ey quşlar! **Onunla *(Davudla)* birlikdə Allahı təqdis** edib şəninə təriflər deyin!» deyimləri də təsdiq edir. Davuda göstərilən «lütf», yer və onda olanlar *(bütün məxluqat)*»ın **təqdisini anlamaq**, başa düşmək qabiliyyətinin verilməsi idi. Bunu üçün də «**dəmir**»i **<u>(qelbi)</u>** «onun üçün yumşaltdıq».

Belə olduqda:**Səbə-11**.*(Biz Davuda belə buyurduq:)* «Geniş, uzun zirehlər düzəlt, **toxuduğun** zaman **ölçüyə** riayət et! Və **yaxşı işlər** görün. Həqiqətən, Mən sizin etdiyiniz **əməlləri görürəm**!» **[ Sebe 11 (M. Esed ). (ve o'na şu telkinde bulunduk:) "Güzel işleri çokça, hiçbir sınır gözetmeden yap ve <u>onların düzenli akışına derin bir anlam kazandır".</u> Ve (böylece ey müminler, hepiniz) doğru ve yararlı işler yapınız, çünkü Ben bütün yaptıklarınızı görürüm!]** – yəni sözlərdən, ölçülərə riayət etməklə (…«geniş uzun zirehlər»)

**qoruyucu niyyətlər toxuyun** – yəni sözlərdən, ölçülərə riayət etməklə *(...«geniş uzun zirehlər»)* **qoruyucu niyyətlər toxuyun.**

**Əl-Hədid-16.** İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan ***(Quran)*** **üçün yumşalması** vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr *(yəhudilər və xaçpərəstlər)* kimi olmasınlar. Onlarla *(öz peyğəmbərləri arasında)* uzun bir müddət keçmiş və *(öyüd – nəsihəti unutduqları üçün)* **qəlbləri sərtləşmişdir**. Onların çoxu *(Allaha asi olan)* fasiqlərdir!

Yəni ...**sərtləşərək daş kimi, bəlkə, daha da qatı olmuş qəlblərinizi** ...(Bəqərə74) gətirin ki, **qəlblərinizdəki**, dünyanın razılığını qazanmaq üçün İblis tərəfindən **yazdırılmış niyyətlərin üstünü** örtək. Qaralmış və **daş** kimi **bərkimiş qəlbləriniz** yumuşalsın.

**Ər-Kəhf-96.** O *(Zülqərneyn)* iki dağın arasını *(haqla-batilin)* *(Allahın **razı olacağı niyyətlərlə** doldurub)* bərabərləşdirən kimi: «**Üfürün!**» – dedi.

Buradakı «**üfürün!**»lə **Ər-Hicr-29**-dakı *(«Mən ona **surət verib ruhumdan üfürdüyüm zaman**»)* "üfürdüyüm" – eynidir. Yəni "mənim dediyim dəmir kimi möhkəm **haqq sözlərdən ağlınızda şəkillər** yaradıb canlandırın". «Od halına salınca» *(şəkilləri tam canlandırınca)*: «**Mənə ərinmiş mis gətirin**, onun üstünə tökün!» – dedi. Yəni canlandırdığınız şəkillərə *(şəkil + hiss = niyyət)* «**ərimiş mis» kimi, təmiz, səmimi həyəcanlar, hislər keçirib** *("üfürün")* **qəlblərinizə yazın**. Bundan sonra yazılan **haqq niyyətlər**, yaşanıb əməllərə çevriləcək və əməllərdən yaranmış haqq şəkillərdən **haqq niyyətlər** yazılacaq. Bu təkrarlanan **haqq niyyət → haqq əməl** dövriyyəsinin yaratdığı **sədd**, Yəcuc-Məcucun fitnə-fəsadını, vəsvəsəsini, təlqinini sıfra yendirər.

**97**. *(Yəcuc-Məcuc tayfaları)* artıq nə *(səddi)* aşa bildilər, nə də onu dəlib keçə bildilər.

**98**. O *(Zülqərneyn)* dedi: «Bu *(sədd)* Rəbbimdən bəxş edilən bir mərhəmətdir. Rəbbimin təyin etdiyi vaxt *(qiyamətə yaxın Yəcuc-Məcuc tayfalarının dünyanı bürüyəcəyi zaman)* gəldikdə isə *(Allah)* onu yerlə yeksan *(dümdüz)* edəcəkdir. Rəbbimin vədi haqdır!»

**"Rəbbimin təyin etdiyi vaxt" isə haqla batilin bir-birindən ayrılma vaxtıdır.**

**99.** O gün *(həddindən artıq çox olduqlarına görə)* onları *(yaxud bütün insanları başlı-başına)* buraxarıq. Belə ki, onlar dalğalar kimi bir-birinə qarışarlar. Sur çalınan kimi onların *(məxluqatın)* hamısını bir yerə cəm edərik.

Yuxarıda qeyd etmişdik ki, insanın ilk qəlb yazılarında, birinci – Allahın razı olacağı niyyətləri *(gizlin)* edib Cənnəti qazanmaq, ikinci – Allahın "gizlin"ləri bildiyini unutduğu üçün aldadılaraq Cənnətdən qovulmaq, üçüncü – tövbə edib doğru yola qayıtmaqla bağışlanmaq təcrübələri vardır. Bu təməl ilk yazılardan hansının dünya həyatında daha da irəli getməsindən asılı olaraq insan, istər dünya həyatı üçün, istərsə də axirət həyatı üçün olsun, taleyini özü yazır. Dünya və axirət həyatında insanın taleyinin necə olması Nur istehsalı missiyasına münasibətdə ortaya çıxır. Axirətə inam doğru yola yönəldir. Doğru yol isə axirət səadətini qazandırır.

**Ən-Nəhl-9**. Doğru yolu göstərmək Allaha aiddir. Ondan kəc olan yolda vardır. **Əgər *(Allah)* istəsəydi** sizin hamınızı doğru yola salardı…

**104**. Allahın ayələrinə inanmayanları, sözsüz ki, Allah doğru yola salmaz. Onları *(axirətdə)* şiddətli bir əzab gözləyir!

**Əl-Əraf-158.** *(Ya Rəsulum!)* De: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. *(O Allah ki)* göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də Allaha, eləcə də Onun Allaha və

Allahın sözlərinə inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!»

**Səbə-50**. De: «Əgər mən *(haqq yoldan)* azsam, bunun zərəri *(günahı)* ancaq mənə olar. Yox, əgər doğru yolla getsəm, bu da Rəbbimin mənə vəhy etdiyi *(Quran)* sayəsindədir. Həqiqətən, O eşidəndir, yaxındır».

**Məryəm-36**. *(İsa sonra belə dedi:)* «Allah mənim də, sizin də Rəbbinizdir. **Yalnız ona ibadət edin. Bu, doğru yoldur!»**

**76**. Allah doğru yolda olanların doğruluğunu artırar. **Əbədi qalan yaxşı işlər** isə Rəbbinin yanında savab etibarı ilə daha xeyirli, nəticə etibarı ilə daha yaxşıdır!

**Əl-Muminun-74**. **Axirətə inanmayanlar isə doğru yoldan sapanlardır!**

**İnsan taleyini doğrudanmı özü yazır?**

**Əl-Hədid-22.** Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda *(lövhi-məhfuzda)* yazılmamış olsun. Bu, Allah üçün çox asandır!

Bu ayədə açıq şəkildə bildirilir ki, istər yer üzündə olsun *(kütləvi xəstəliklər, kataklizimlər – daşqın, yanğın, zəlzələ, tufan, quraqlıq, müharibələr, qarşıdurmalar və s.)* istərsədə bir insanın *(fərdin)* başına gəlsin *(xəstəlik, qəza, məişət, iş problemləri və s.),* həmin problemlər yaradılmamışdan əvvəl bir kitabda yazılır. **Deməli, yazı düzdür**.

**Ali-İmran-109.** Budur Allahın ayələri! Biz onları sənə olduğu kimi oxuyuruq. Allah aləmlərə **zülm etmək istəməz.**

**Yunus-44.** Həqiqətən, Allah insanlara **zərrəcə zülm etməz,** lakin insanlar **özləri özlərinə zülm** edərlər!

Bu ayələrdən, xüsusən də sonuncu ayədən irəli gələn məna budur ki, Allah kimlərəsə **xoş güzəran**, digərlərinə isə **zülm**

**yazmır, etmir**. Bu halda yenə sual doğur ki, onda müsibətlərdən və ya əmin-amanlıqdan əvvəl «bir kitabda yazı»nı kim yazır?

**"Yunus"** surəsinin **44**-cü ayəsindən göründüyü kimi, «bir kitabda yazı»nı, Allah yazmırsa, **deməli insan özü yazır.**

**Əl-Hədid-23.** Bu, sizin əlinizdən cıxana **kədərlənməməyiniz** və sizə verilənə də sevinib **qürrələnməməyiniz** üçündür. Allah özünü bəyənən, *(özü ilə)* fəxr edən heç bir kəsi sevməz!

«Bu, sizin əlinizdən çıxana». İnsanın əlindən çıxan ancaq fani dünya dəyərləri ola bilər. Tövsiyə olunur ki, insan həyatının müsibətli məqamlarında təkrar-təkrar – qüssə, kədər, qəm, bədbinlik, ruh düşkünlüyü, acıqlanmaq, küsmək, küskünlük hissi saxlamaq, qorxmaq, həyəcanlanmaq, özünü və başqalarını ittiham etmək, həsəd, paxıllıq, lağ, qeybət və s. hisləri uzun müddət yaşamasın. Ona görə ki, təkraralanaraq yaşanan mənfi hislərin təsdiq etdiyi şəkillər *(ağlın yaddaşında olanlar)* qəlbə köçürülür – yazılır. Yazılan yaşanır qanununa görə *(yazılar pozula bilməz)* qəlbə yazılan niyyətin, yazan insanın həyatında ortaya çıxması üçün, həmin qəlbə aid olan ruh ruhani aləmdə istəniləni düzübqoşmaq üçün saysız variantlarla əməliyyat aparır. "**Əl-Hədid"** surəsinin **23**-cü ayəsində verilmiş «sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür» informasiyasında isə, insana verilən müvəqqəti, fani dünya dəyərlərinə görə sevinib qürrələnməməsi tövsiyə olunur. Qürrələnmək, təkəbbür, lovğalıq, xəsislik, özünü bəyənmək, özü ilə fəxr etmək və s. hislər də bolluqda, əmin-amanlıqda yaşana biləcək mənfi hislərdir. Bu hislərin təkrartəkrar təsdiq edərək verdiyi şəkillər niyyətə çevrilir. Qeyd olunmuş hislərə zina, qətl etmək, özünə qəsd və s. əlavə etsək onda görərik ki, bu hislərin təsdiqi ilə qəlbə yazılan *(şəkil + hiss = niyyət)* niyyətlərdən Allah razı ola bilməz. Allahdan başqa heç kimin bilmədiyi «gizlin» *(ayıb)* sonra «aşkara» çıxdıqda, «rüsvaya» çevriləcəkdir. Bu rüsvayların yaratdığı şəkillər, insanların qəlblərinə *(həmin şəkilləri görənlərin)* «ayıb» kimi yazılaraq təkrarlandıqca *(ayıb → rüsvay, gizlin → aşkar, niyyət → əməl)* Allahın razı olmayacağı, ancaq nəfsin, Şeytanın, dünyanın razı

olacağı – dünya sevgisini dünyada saxlayan, dünyanı dünyadan ötrü sevən, yəni nurərəfəsi enerjini toplayıb Nura *(İlkə)* çevirməyən bir toplum ortaya çıxar ki, bu da öz missiyasını *(Nur istehsalı)* yerinə yetirmədiyinə görə Nur sərfinin yeri doldurmaz. Belə olduqda nurərəfəsi enerjinin *(dünya sevgisi)* Nura çevrilməsində yarana biləcək «axsama»nın, yubanmanın hansı nəticələrə gətirib çıxaracağı isə tam aydındır.

**Əl-Hədid-21** *(Ey insanlar!)* Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi yerlə göyün genişliyi qədər olan, Allaha və Onun peyğəmbərlərinə inam gətirənlərdən ötrü hazırlanmış Cənnətə nail olmaq üçün *(yaxşı əməllər etməkdə)* bir-birinizi ötüb keçməyə çalışın. Bu, Allahın dilədiyi kimsəyə əta etdiyi lütfdür *(mərhəmətdir).* Allah çox böyük bir lütf *(mərhəmət)* sahibidir!

**Əl-Hədid-28.** Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, *(Allah)* sizə Öz mərhəmətindən iki pay versin, sizə *(qıl körpüsü üstündə)* getməyiniz **üçün nur bəxş etsin** və sizi bağışlasın. Allah bağışlayandır və rəhm edəndir.

Yuxarıda qeyd etmişdik ki, müqəddəslər və müqəddəs kitablar bu dünyaya, insanların fani dünya dəyərlərinə olan təmənnalı sevgisini, əbədi, təmənnasız sevgiyə – **nura çevirmək** üçün vasitə və vəsait olaraq göndərilmişlər.

Yaranma zərurəti **dünya sevgisini nura çevirmək olan insanın** «nur generatoru» kimi formalaşması baxımından göndərilmiş müqəddəs səhifələrə, kitablara ağıldan istifadənin təlimatı da demək olar. Bu mənbələrdə olan biliklərsiz doğru yolu tapmaq, nur istehsalı məqamına çıxmaq mümkün deyildir.

**Ət-Tariq-13.** Bu *(Quran haqla nahaqqı)* ayırd edən **kəlamdır!**

**Əl-İsra-82.** Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil etdik. O, zalımların *(kafirlərin)* ancaq ziyanını artırır.

**Sad-1** Sad! Öyüd-nəsihətlə dolu Qurana and olsun!

**Əl-Ənbiya-48.** Biz Musa və Haruna Furqanı **bir nur** və müttəqilərdən ötrü **öyüd-nəsihət** olaraq vermişdik.

**Əl-İsra-106**. İnsanlara **aramla** *(yavaş-yavaş)* **oxuyasan** deyə, Biz Quranı hissələrə ayırıb *(ayə-ayə, surə-surə)* göndərdik. Biz onu tədriclə *(iyirmi üç ilə yaxın bir müddətdə)* nazil etdik.

**Əl-Müzzəmmil-1.** Ey **örtünüb, bürünən**!

**2**. Gecə – az bir hissəsi istisna olmaqla – **qalxıb namaz qıl!**

**3.** *(Gecənin)* yarısına qədər, yaxud bir qədər ondan az;

**4.** Və ya bir qədər ondan çox! Həm də **aramla** Quran oxu!

**6.**Şübhəsiz ki, gecə qalxmaq daha əlverişli və **söz demək** daha yaxşıdır!

**"Əl-İsra"** surəsinin **106**-cı və "**Əl-Müzzəmmil"** surəsinin **1, 2, 3, 4, 6**-cı ayələrində Quranın ayələrini **asta-asta, aramla, sakit vaxtlarda sözlərin şəklə çevrilməsi üçün avazla oxunub uzadılması *(vaxt qazanılması)* tövsiyə olunur. Mənası dərk olunmayan, tez, sürətlə, çox bərkdən və ya çox astadan deyilən söz ağılda necə bitkin şəkil yarada bilər ki, ayədə ifadə olunan məna qəlbdə niyyət olaraq yazılsın?**

**Könüllü yönəlmə:**

**Əl-Qiyamə-14.** Doğrusu **insan özü-özünə şahiddir**!

**15.** O, hər cür üzrxaqlıq etsə də *(qəbul olunmaz!)*

**16.** *(Ya Peyğəmbər! Cəbrail sənə Quran oxuduğu zaman)* **onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə**! *(Sən də onunla birlikdə Quranı təkrar etmə, yalnız dinlə!).*

**17. Çünki onu *(sənin qəlbində)* cəm etmək, *(dilində)* oxutmaq Bizə aiddir.**

**18.** Biz onu *(Cəbrailin dili ilə)* oxuduğumuz zaman **oxunmasını diqqətlə dinlə**.

Qəlbə yazılanlar yaşanır deyə, insanlar ağıllarında yaranan şəkilləri **seçib hiss keçirmək** məcburiyyətindədirlər. Ona görə də dərk olunmayan *(Allahın razı olub-olmayacağını dəqiqləşdirmədən)* şəkillər ya yarımçıq, ya da batil olur. Bu mənada Quran *(və başqa müqəddəs kitablar)* ayələrinin insan ağlında yaratdığı şəkillərdən *(elə bir şəraitdə ki, doğrudan da məna ağılda, şəkilə tam çevrilsin)* başqa, tam haqq şəkillər yaradan ikinci bir mənbənin olmamasını sübut etməyə ehtiyac yoxdur.

Könüllü yönəlmə, ibrətlərlə dolu dünyaya baxıb*(dərk edərək)*, Yaradanın razı olacağı niyyətlərin *(gizlin)* yazılmasından başlayır. Ola bilər ki, hər hansı bir səbəbdən *(xüsusən Şeytan vəsvəsəsindən)* yazılan niyyətlərdə qüsurlar olsun, onda tövbələrin yaratdığı şəkillərlə, Allaha təvəkkül etməklə, qüsurları düzəltmək olar *(daha doğrusu üstünü örtmək olar).* Bu mexanizmlər də dualar vasitəsi ilə insanların ixtiyarına verilmişdir. Niyyətində *(gizlin)* nə yazıldığını bilməyən insana, «gizlin»lər ortaya çıxanda, yaşananda, başına gələnləri analiz etmək və qüsurları, "gələcək yazılarda" düzəltmək imkanı verilmişdir. Təkrar-təkrar tövbələrlə Allaha doğru yönəlməklə bu mümkün olur.

**Ət-Tovbə-112**. *(Onlar Allaha)* tövbə, ibadət və şükür səna edənlər, oruc tutanlar, rüku və səcdə edənlər, yaxşı işləri əmr edib pis işləri yasaq edənlər və **Allahın hədlərini qoruyanlardır**. Belə mömünləri *(Cənnətlə)* müjdələ.

**Hər şey istəməkdən başlayır.**

**Ət-Tovbə-117.** Allah *(müsəlmanlardan)* bir bir qisminin ürəyi *(şəkk-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan)* dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun arxasınca gedən mühacirlərə və ənsara **tövbə nəsib etdi**. Sonra da onların

**tövbələrini qəbul buyurdu** *(onları bağışladı).* Çünki O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhmlidir.

**118.** Həmçinin *(Təbuk döyüşündən)* geri qalmış üç nəfərin də *(tövbələrini qəbul etdi).* Belə ki, dünya onlara dar olmuş, ürəkləri *(qəm -qüssədən)* təngə gəlib sıxılmışdı. Onlar Allahdan *(Allahın əzabından)* yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara **tövbə etmək üçün tövbə nəsib etdi**. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir!

Tövbə – dünyanı razı salacaq niyyətlərin yerinə, Allahı razı salacaq niyyətlər etməyi Allahın istəməsini, istəməklə doğru yola *(nur istehsalı məqamına)* istiqamətlənmək üçün dönmədir.

**Ən-Nəml-11.** Yalnız *(günah etməklə özünə)* zülm eyləyən *(qorxmalıdır).* Lakin *(pislik etdikdən)* **sonra tövbə ilə pisliyi yaxşılığa çevirən kəs** *(bilsin ki, Mən beləsini)* bağışlayanam, rəhm edənəm!

**Əl-Furqan-70.** Ancaq **tövbə edib iman gətirən** və yaxşı işlər görənlərdən başqa! Allah onların **pis əməllərini yaxşı əməllərə çevirər.** Allah bağışlayandır, rəhm edəndir!

**71.** Hər kəs tövbə edib yaxşı iş görsə, o, şübhəsiz ki, Allaha tərəf **yaxşı bir dönüşlə** *(Allahın rizasını qazanmış halda)* **dönər.**

**Əl-Qəsəs-67.** Tövbə edərək iman gətirib yaxşı işlər görənlərə gəldikdə isə, onların **nicat tapmaları mümkündür**.

Tövbə dua ilə olur. Necə dua fikirləşmək olar ki, həmin dua *(müqəddəs kitablardakı)* Qurandakı dualar qədər Allaha, doğru yola tam dönmə şəkli yarada bilsin? Bu, mümkün deyil və qiyamətə qədər də mümkün olmayacaqdır.

**Əl-Bəqərə-127.** Onu da yadına sal ki, İbrahim və İsmail evin *(Kəbənin)* bünövrəsini ucaltdıqları zaman: «Ey Rəbbimiz! Bizdən qəbul et, Sən, doğrudan da eşidənsən, bilənsən!» – deyə dua etdilər.

**128.** *(İbrahim və İsmail dedilər:)* «Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar, nəslimizdən yetişənləri Sənə təslim olan ümmət et, bizə əməllərimizi göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!»

**129.** *(Onlar yenə dedilər:)* «Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini onlara **oxusun**, Kitab və hikməti onlara **öyrətsin**, onları **təmizləsin!** Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən».

**Əl-Qəsəs-47**. Öz əlləri ilə etdikləri əməlləri *(qazandıqları günahları)* üzündən onlara bir müsibət üz verincə: **«Ey Rəbbimiz! Barı, bizə bir peyğəmbər göndərəydin ki, biz də Sənin ayələrinə uyub möminlərdən olaydıq!» – deməsəydilər, səni onlara peyğəmbər göndərməzdik.** Burada hətta **peyğəmbərin** belə,insanların **istəklərinə** görə **göndərilməsi** bəyan olunur.

**Əl-İsra-11**. İnsan **xeyir dua** etdiyi kimi, **bəd dua** da edər. İnsan tələskəndir.

**Yunus-10**. Onların oradakı *(mömünlərin Cənnətdəki)* duası: «Pərvərdigara! Sən paksan, müqəddəssən!» Orada salamlaşması: «Salam!» duası: «Həmd olsun aləmlərin Rəbbi Allaha!» – **sözləridir.**

**11**. Əgər Allah insanlara, xeyri tezliklə istədikləri kimi, **şəri də o tezliklə versəydi**, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu. Bizimlə qarşılaşacaqlarına ümid etməyənləri öz azğınlıqları içərisində şaşqın bir vəziyyətdə qoyarıq!

**12**. İnsana bir sıxıntı üz verən zaman uzananda da, oturanda da, ayaq üstə duranda da Bizə dua edər. Lakin onu sıxıntıdan qurtardıqda ondan ötrü *(əvvəlcə)* Bizə heç dua etməmiş kimi çıxıb gedər. **Həddi aşanlara etdikləri əməllər beləcə yaxşı göstərildi.**

**Əs-Səcdə-16**. Onlar ibadət üçün yataqlarından qalxar, **qorxu və ümid içində** Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən sərf edərlər və s.

Söz, şəkil, hiss, niyyət, əməl məqamlarının birgə işini məsəllə anlatmağa calışaq. Qəlbi əkin sahəsi, ağlı toxum seçən, şəkilləri toxum, sözləri toxum yaradan, hissi əkmə vasitəsi, niyyəti əkilən toxum, əməli meyvə kimi qəbul etmək olar. Əgər nəticə, yaşanan – yəni meyvə pisdirsə, onda səbəbini həmin məqamlarda axtarmaq lazımdır. Pis nəticəni törədən səbəbi tapıb düzəltdikdə, nəticə də düzələr.

İnsanlar gizlinləri bilmədikləri üçün qəlblərinə əvvəllər nələr yazıldığından xəbərsiz olurlar. Ona görə də profilaktik tədbir kimi qəlbə yazılmış pis niyyətlərin təmizlənməsinə ehtiyac olur ki, yeni əkilmiş toxumları *(yaxşını)* alaqlar *(pislər)* məhv etməsinlər.

**İncil. Matta. 21-ci fəsil:**

**22.** «Və **dua ilə iman edərək** hər nə dilərsinizsə alacaqsınız».

**İndi də təmizlənməklə əlaqədar olan ayələrə nəzər salaq:**

**Əl-Bəqərə-151**. Həmçinin sizə ayələrimizi **oxumaq**, sizi **təmizləmək**, Kitabı, hikməti və bilmədiklərinizi **öyrətmək** üçün sizə öz içərinizdən bir peyğəmbər göndərdik.

**Ali-İmran-141**. *(Bu həm də)* Allahın iman gətirənləri *(günahlardan)* **təmizləməs**i və kafirləri **məhv etməsi** üçündür.

**İncil. Matta. 18-ci fəsil:**

18. Doğrusunu sizə deyirəm: **Yer üzündə hər nə bağlasanız, göydə bağlanmış olur və yer üzündə açdığınız hər şey, göydə açılmış olur.**

**Ət-Tovbə-103**. *(Ya Rəsulum!)* Onların mallarından sədəqə *(zəkat)* al. Bunula onları **təmizləmiş, pak etmiş** olursan.

**Fatir-18**. Heç bir günahkar başqasının **günahını daşımaz**. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün *(başqa birisini*

*köməyə)* çağırsa və yaxın qohumu olsa belə, o yükdən **bir şey daşınmaz**. *(Ya Peyğəmbər!)* Sən ancaq Rəbbindən görmədikləri halda qorxanları və namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs **təmizlənsə**, özü üçün **təmizlənmiş** olar. Axır dönüş ancaq Allahadır!

**Əbəsə-1**. *(Peyğəmbər)* qaşqabağını töküb üzünü çevirdi.

**2.** Yanına korun *(Abdullah ibn Ümmi-Məktumun*) gəlməsindən dolayı.

**3.** Nə bilirsən, bəlkə də, o *(səndən islama dair soruşub öyrənəcəkləri ilə)* **təmizlənəcəkdir!**

**4.** Yaxud **öyüd dinləyəcək** və bu **öyüd** ona fayda verəcəkdir!

**5.** *(Var-dövlətinə güvənib sənin öyüd-nəsihitinə qulaq asmağa)* etiyac hiss etməyənə *(dövlətliyə)* gəldikdə,

**6.** Sən üzünü ona tərəf çevirirsən *(onun sözünə qulaq asırsan).*

**7.** Onun *(küfrdən)* **təmizlənməsindən** sənə nə?!

**8.** Yürüyə-yürüyə sənin yanına gələn

**9.** Və *(Allahdan)* **qorxan kimsəyə** gəldikdə isə,

**10.** Sən ondan üz çevirirsən!

**Əl-Əla-14**. *(Günahlardan)* **təmizlənən** kimsə nicat tapacaqdır.

**Əş-Şəms-9**. Nəfsini *(günahlardan)* **təmizləyən** mütləq nicat tapacaqdır!

**Bağışlanma məqamlarına aid ayələrə nəzər salaq:**

**Ən-Nisa-106**. Allahdan **bağışlanmaq** dilə! Əlbəttə, Allah bağışlayandır, rəhm edəndir!

**Ən-Nisa-110.** Hər kəs pis bir iş gördükdən və ya **özünə zülm etdikdən** sonra Allahdan **bağışlanmağını dilərsə**, Allahın **bağışlayan, mərhəmətli** olduğunu görər.

**Əş-Şura-40**. Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs *(pislik edəni)* **bağışlasa** və *(onunla)* **barışsa**, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz!

**43**. Əlbəttə, hər kəs *(pisliyə)* **səbr edib** *(qisası)* **bağışlasa**, çox bəyənilən əməllərdəndir.

**Əl-Munafiqun-5**. Onlara: «Gəlin Allahın Peyğəmbəri *(Rəbbinizdən)* sizin **bağışlanmağınızı diləsin**!» deyildiyi zaman *(istehza ilə)* başlarını bulayar və sən *(Ya Rəsulum!)* onların təkəbbürlə üz çevirdiklərini görərsən.

**6.** Sən onların **bağışlanmasını** diləsən də, diləməsən də, fərqi yoxdur. Onsuz da Allah onları **bağışlamayacaqdır**. Şübhəsiz ki, Allah fasiq qövmü doğru yola yönəltməz!

**Ət-Təğabün-17**. Əgər Allaha *(Allah yolunda)* **gözəl *(könül xoşluğu ilə)* bir borc** versəniz, (Allah) sizin üçün onun əvəzini **qat-qat artırar və sizi bağışlayar**. Allah qəzəblənmir, həlimdir!

Könüllü yönəlmə insana, həyatını dünya rüsvayçılığından mümkün qədər qorunmuş halda yaşamağa imkan verir. İnsan həyatının gənclik, orta yaş, qocalıq çağları bir-birini ilin fəsilləri kimi ardıcıl olaraq əvəzləyir. Fikri yayındırmaq, pis niyyətlərin yazılmasının qarşısını almaq üçün yönəldici, yayındırıcı, qoruyucu dünya əzablarının yaşanmasının qarşısını alır. Əks təqdirdə istər fərdin, istərsə ailənin, istər tayfanın, xalqın, millətin, dövlətin, istərsə də yer üzündə bütün bəşəriyyətiin yaşamı, həyatı olsun, Allahın doğru yoluna, Nur istehsalı yoluna, Allahın razı olacağı *(gizlinləri)* niyyətlərin yazılması yoluna yönəltmək üçün yayındırıcı və qoruyucu mexanizmlər işə düşür. Qanunlar heç bir halda dəyişilmədiyinə görə bundan qaçmaq mümkün olmur. Ancaq niyyətlərin dəyişilməsi ilə müsibətlərdən qorunmaq, haqq edilmiş **yayındırıcı, yönəldici dünya əzabının** götürülməsinə nail olmaq mümkündür.

**Məcburi yönəlmə:**

**Əz-Zariyat-56. Mən cinləri və insanları yalnız Mənə ibadət üçün yaratdım!**

Əgər Allah möhtac deyilsə *(insanların namazına, orucuna, şükrünə, səbrinə və s.)* onda insanların və cinlərin Allaha ibadəti nəyə lazımdır?

Bundan əvvəl dönə-dönə qeyd etmişdik ki, insanın missiyası Nur istehsalıdır və ancaq Allaha ibadət etməklə, yəni Allahın razı olacağı niyyətləri yazıb *(niyyət)* əməl olaraq yaşamaqla Nur istehsalçısına çevrilmək mümkündür. Əgər Allah Nur istehsalı yoluna yönəltmək üçün qanunlar *(mexanizmlər)* yaratmasaydı onda hər şey məhv olub gedərdi.

**Əl-Muminun-71**. Əgər haqq *(Quran)* onların **nəfslərinin istəklərinə tabe olsaydı** *(və ya Allah onların istədikləri kimi hərəkət etsəydi)* göylər, yer və onlarda olanlar *(bütün məxluqat)* **korlanıb gedərdi** *(aləm bir-birinə qarışıb nizamı pozulardı)*. Xeyr, Biz *(müşriklərə)* onlar üçün öyüd-nəsihət *(və Peyğəmbər öz qövmlərindən olduğu üçün şərəf olan Quranı)* gətirdik, onlar isə özlərinə edilən öyüd-nəsihətdən üz döndərirlər.

**"Əl-Muminun"** surəsinin 71-ci ayəsində açıq şəkildə bildirilir ki, *(haqq onların nəfslərinin istəklərinə tabe olsaydı göylər, yer və onlarda olanlar korlanıb gedərdi)*, , nurərəfəsi enerji *(dünya dəyərlərinə olan sevgi)* yubadılmadan Nura çevrilməlidir. Əgər bu dərk yolu ilə könüllü olmazsa, onda məcburi yönəltmə mexanizmləri işə düşəcək!

**Məryəm-88**. *(Müşriklər:)* «Rəhman **özünə övlad** götürmüşdür!» – dedilər.

**89**. Siz doğrudan da, olduqca **pis bir şey** etdiniz (çox böyük-böyük danışdınız!)

**90**. Buna görə az qaldı ki, **göylər parçalansın**, **yer yarılsın və dağlar yerindən qopub uçsun!**

**91**. *(Müşriklərin)* Rəhmana **övlad isnad etdiklərinə görə!**

**92**. Halbuki Rəhmana özünə övlad götürmək yaraşmaz.

**93**. Çünki göylərdə və yerdə olan bütün məxluqatdan bir eləsi yoxdur ki, *(qiyamət günü)* Rəhmanın hüzuruna bir qul kimi gəlməsin.

**94. And olsun ki, *(Allah)* onları *(bütün yaratdıqlarını)* hesablamış və təkrar-təkrar saymışdır**.

**95**. Onların hamısı qiyamət günü Onun hüzuruna gələcək.

**96**. Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman *(ürəklərdə)* **bir sevgi yaradacaq.** *(Allah həm özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaqdır)*.

**"Məryəm"** surəsinin **90**-cı ayəsində deyilir: «Buna görə də az qaldı ki, göylər parçalansın, yer yarılsın və dağlar yerdən qopub uçsun!» «Buna görə», yəni nəyə görə? «*(Müşriklər:)* «Rəhman özünə övlad götürmüşdür!» (**Məryəm-88) –** dediklərinə görə. Elə deyiləndə nə olur ki?

Elə deyiləndə insanların qəlbinə yazılan niyyətin daşıdığı informasiya, Allahın yaradan deyil, yaranmış olduğunu, övladı varsa doğub-doğulduğunu və haradasa Allahın da müvəqqəti fani dünya dəyəri olduğunu ortaya qoyur. Belə olduqda, sonra yazılmış niyyətlər, ancaq fanini *(dünyanın)* razılığını qazandıran əməllər ortaya çıxarar ki, bu əməllərdən törənən niyyətlər dünyaya *(faniyə)* tapındıran yeni əməllər ortaya qoyar. Bunun nəticəsində də Nur istehsalı azalar, sonda dayanar və "**Məryəm"** surəsinin **90**-cı ayəsində göstərildiyi kimi, az qalar ki, «göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun!»

**Nur istehsalında yaranan problemlərlə bağlı Quranda verilən başqa informasiyalara da nəzər salaq:**

**Taha-14**. Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. **Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!**

**15.** O saat *(qiyamət saatı)* mütləq gələcəkdir. **Mənim onu az qala açmağım gəlir ki, hər kəs etdiyi əməlin əvəzini** *(mükafatını, yaxud cəzasını)***alsın**. *(Və ya: Mən onu az qala Özümdən belə gizlədirəm; və ya: Mən onu Özümdən başqa hamıdan gizlədirəm. Yaxud: Mən onu zorla gizlədirəm, cünki qiyamətin yaxınlaşması hər addımda özünü müxtəlif əlamətlərlə büruzə verir).*

**16.** Ehtiyatlı ol ki, *(qiyaməti)* danıb **nəfsinin istəklərinə** uyan bir kəs **səni ona inanmaqdan** yayındırmasın, yoxsa məhv olarsan!

**Səbə-13**. Onun *(Süleyman)* üçün nə istəsə – məbədlər, heykəllər, böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar düzəldirdilər. Siz, ey Davud ailəsi! ***(Allaha)* şüküranlıqla itaət edin!** Bəndələrimdən *(nemətlərimə)* **şükr edəni azdır!**

Göründüyü kimi, Nur istehsalı şəraitini yaxşılaşdırmaq üçün, Allah nə vaxtsa insanlara, hətta cinlərin imkanlarından da istifadə etmək üçün icazə vermişdir.

Çox maraqlıdır ki, insanları doğru yola yönəltmək üçün təbliğatdan, xəbərdarlıqdan, qorxutmaqdan başlamış **məhv etməyə** qədər bütün vasitələrdən istifadə olunur.

**Əl-Maidə-67**. Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni *(Quranı)* təbliğ et. Əgər *(bunu)* etməsən, *(Allahın)* risalətini *(sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini)* yerinə yetirmiş olmazsan. **Allah səni insanlardan qoruyacaq**. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!

**Əl-Əraf-68**. Mən sizə Rəbbimin **əmrlərini** təbliğ edirəm. Mən sizə doğru məsləhət verənəm.

**69.** «Yoxsa sizi *(Allahın əzabı ilə)* qorxutmaq *(xəbərdarlıq etmək)* üçün içərinizdən olan bir adam *(peyğəmbər)* vasitəsi ilə Rəbbinizdən sizə bir xəbərdarlıq gəlməsinə təəccüb edirsiniz? Xatırlayın ki, Allah sizi Nuh tayfasından sonra onun yerinə gətirdi, sizi xilqətcə *(onlardan)* daha qüvvətli etdi. Allahın nemətlərini yada salın ki, bəlkə nicat tapasınız!»

**Ər-Rəd-40**. Onlara vəd etdiyimizin *(əzabın)* bir qismini sənə göstərsək də və ya *(ondan qabaq)* səni öldürsək də *(öz dərgahımıza götürsək də, fərq etməz).* Sənin vəzifən ancaq *(dini)* təbliğ etməkdir. Haqq-hesab çəkmək isə Bizə aiddir.

Quranda, hətta Peyğəmbərə belə özü də bilmədən qəlbinə pis niyyətlər yazılmasının qarşısının alınması üçün xəbərdarlıq edilərək yol göstərilir. Yəni günaha təhrik etməmək və günaha təhrikə getməmək.

**İncil. Matta. 18-ci fəsil:**

**7.** İnsanları **pis yola çəkən şeylər** üçün vay bu dünyanın başına! Belə şeylərin gəlməsinin qarşısını almaq mümkün deyildir. Fəqət vay o adamın başına ki, bu şeylər **onun vasitəsi ilə** gəlir.

**Ən-Nisa-85**. Yaxşı işə **vasitəçi olana** *(onun savabından),* pis işə **vasitəçi olana** *(onun günahından)* bir pay düşür. Əlbəttə, Allah hər şeyə qadirdir.

**Əl-Ənam-68**. *(Ya Rəsulum!)* Ayələrimizə istehza edənləri gördüyün zaman onlar **söhbəti dəyişənə qədər** onlardan üz çevir. Əgər Şeytan *(bu qadağan əmrini)* sənə **unutdursa**, xatırlayandan sonra o zalım tayfa ilə **bərabər oturma**.

**Əl-Ənkəbut-46**. Kitab əhlinin zülm edənləri istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin! Və belə deyin: «Biz həm özümüzə nazil olana *(Qurana),* həm də sizə nazil olana *(Tövrata və İncilə*) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız ona təslim olanlarıq!»

Doğru yola yönəltmək üçün təbliğat, xəbərdarlıq, göstərilən möçüzələr kömək etməyəndə – yəni dərki artırıb yaxşı niyyətlər etmək məqamna çıxarmadıqda, insanların fikrini yayındırmaq, pis niyətlərin yazılmasının qarşısını almaq  üçün ən yüngül cəzalardan başlayaraq, sonda məhvə qədər gedilir.

**Ət-Təğabün-5**. Məgər sizdən əvvəl kafir olanların *(əzaba düçar edilməsi)* xəbəri sizə gəlib çatmadımı? Onlar öz gördükləri

işlərin **cəzasını dünyada daddılar**, onları *(axirətdə)* şiddətli bir əzab gözləyir!

**Ən-Nisa-79.** *(Ey insan!)* Sənə yetişən **hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir.** *(Ya Rəsulum!*) Biz səni insanlara peyğəmbər göndərdik. Allahın buna şahid olması *(sənə)* kifayət edər.

**Əl-Maidə-26.** *(Allah Musaya)* buyurdu: «Artıq ora *(müqəddəs torpaq)* qırx il müddətinə onlara haram edildi. Onlar olduqları yerdə *(Tih səhrasında)* sərgərdan gəzib dolaşacaqlar. O günahkar *(və azğın)* camaatın halına acıma!»

**Əl-Ənam-10**. Əlbəttə, səndən əvvəlki peyğəmbərlərdə məsxərəyə qoyulmuşdular. Lakin məsxərəyə qoyanları **məsxərəyə qoyduqlarının özü məhv etdi**.

**42**. Səndən əvvəl də ümmətləri **müsibət və fəlakətə düçar etdik ki, *(Allaha)* yalvarsınlar.**

**43**. Barı, **əzabımız** onların başlarının **üstünü alanda** yalvaraydılar. Lakin *(inadları üzündən*) **qəlbləri sərtləşdi** və Şeytan da onlara etdikləri əməlləri **süslü göstərdi.**

**44**. *(Kafirlərə)* edilmiş xəbərdarlığı unutduqları zaman *(küfrlərini daha da artırmaq məqsədilə)* **hər şeyin** *(bütün nemətlərin)* **qapılarını onların üzünə açdıq**. *(Kafirlər)* özlərinə verilən **nemətlərə sevindikləri vaxt** onları qəflətən yaxaladıq və onlar*(hər şeydən)* məhrum oldular.

**65**. De: «Allah başınızın üstündən və ayaqlarınızın altından sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmığa və birinizə digərinizin zorunu dadırmağa qadirdir!» **Gör ayələrimizi onlara nə cür izah edirik ki, bəlkə, başa düşsünlər.**

**94.** Biz hansı bir məmləkətə peyğəmbər göndərdiksə, onun əhalisini *(peyğəmbərləri tanımadıqları üçün bir müddət)* **müsibətə və bəlaya** *(xəstəlik, yoxsulluq, qıtlıq, aclıq və s.)* saldıq ki, bəlkə *(günahlarını başa düşərək Allaha*) **yalvarıb-yaxarsınlar!**

**95**. Sonra sıxıntını *(bəlanı, pisliyi)* firavanlıqla əvəz etdik. Beləliklə, onlar artıb çoxaldılar və dedilər: «Atalarımıza da belə yaxşı-yaman günlər üz vermişdi». Elə bu an onları özləri də bilmədən, qəflətən *(əzabla)* yaxaladıq.

**96**. Əgər o məmləkətlərin əhalisi **iman gətirib** *(pis əməllərdən)* **çəkinsəydilər,** sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar yalançı hesab etdilər. Biz də onları **qazandıqlarına** *(qazandıqları günahlara)* **görə məhv etdik**.

**130**. Biz Firon əhlini *(illərlə)* **qıtlığa, quraqlığa və məhsul çatışmazlığına** məruz qoyduq ki, bəlkə, **düşünüb ibrət alsınlar!**

**133.** Biz ayrı-ayrı möcüzələr üzrə onlara **tufan, *(əkinlərinə)* çəyirtkə və həşərat, qurbuğa, *(çeşmələrinə, kəhrizlərinə)* qan göndərdik**. Onlar yenə də *(iman gətirməyi)* özlərinə sığışdırmayıb kafir bir tayfa oldular.

**Əl-Ənfal-24**. Ey iman gətirənlər! Peyğəmbər sizi, **sizləri dirildəcək bir şeyə *(imana, haqqa)*** dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, **Allah insanla onun qəlbi arasına girər** və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!

**51. Bu *(əzab)* sizin öz əllərinizlə qazandığınız günahlara görədir. Yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir!**

**32**. **Onlar Allahın nurunu ağızları *(batil sözləri)* ilə söndürmək istəyirlər**. Allah isə kafirlərin xoşuna gəlməsə də ancaq **öz nurunu tamamlamaq istər.**

**33**. Müşriklərin xoşuna gəlməsə də, onu *(islamı)* bütün dinlərin fövqündə *(bütün dinlərdən üstün)* etmək üçün Öz peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!

**34**. Ey iman gətirənlər! *(Yəhudi)* alimlərdən və *(xaçpərəst)* rahiblərdən çoxu insanların mallarını haqsızlıqla yeyir və *(onları)* Allah yolundan döndərirlər. *(Ya Rəsulum!)* **Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri** şiddətli bir əzabla müjdələ!

**85**. Onların nə mal-dövləti, nə də oğul-uşağı səni heyrətə salmasın. Allah bununla onlara *(münafiqlərə)* ancaq dünyada əzab vermək və kafir olduqları halda canlarının cıxmasını istər.

**126**. Münafiqlər ildə **bir-iki dəfə bəlaya** giriftar olduqlarını görmürlərmi? Bununla belə, yenə tövbə edib **ibrət almırlar.**

**Əl-Əraf-4**. **Biz neçə-neçə məmləkətləri *(onların əhalisini)* məhv etdik**. Əzabımız onlara gecə, yaxud günün günorta çağı gəldi.

**5.** Əzabımıza düçar olduqları zaman onların: «Biz həqiqətən, zalım olmuşuq!» – deməkdən başqa heç bir sözlləri olmamışdı.

**64**. Buna görə onlar *(Nuhu)* yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları **xilas etdik.** Ayələrimizi təkzib edənləri isə **qərq etdik.** Onlar həqiqətən kor bir camaat idilər.

**90**. *(Şueyb)* tayfasının kafir əyanları *(tabeliklərində olanlara)* dedilər: «Əgər *(dininizi atıb)* Şueybin ardınca getsəniz, şübhəsiz ki, *(çox böyük)* ziyana uğramış olarsınız!»

**91**. Elə bu zaman onları dəhşətli bir sarsıntı bürüdü və onlar öz evlərində diz üstə düşüb qaldılar.

**Yunus-13**. Sizdən əvvəl neçə-neçə nəsilləri *(ümmətlləri)* peyğəmbərləri özlərinə açıq-aşkar möcüzələr gətirdikləri halda *(onlara)* **zülm etdikləri** və **iman gətirəsi olmadıqları** üçün **məhv etdik**. Biz günahkarları belə cəzalandırırıq.

**14**. Onların ardınca yer üzünün varisləri sizi təyin etdik ki, görək özünüzü necə aparacaqsınız.

**Hud-117**. Məmləkətlərin əhalisi **əməlisaleh olduğu ikən** Rəbbin onları haqsız yerə **məhv etməz!**

**İbrahim-13.** Küfr edənlər peyğəmbərlərinə dedilər: «Ya sizi yurdumuzdan çıxarıb qovacağıq, ya da mütləq dinimizə dönəcəksiniz!» Rəbbi də onlara *(peyğəmbərlərinə*) belə vəhy etdi: **«Biz zalımları mütləq məhv edəcəyik!»**

**Əl-Hicr-4**. Biz hec bir məmləkəti əcəli gəlib çatmamış məhv etmədik.

**Əl-Qəsəs-58**. Biz **xoş güzəranına naşükür olub qürrələnən** neçə-neçə məmləkəti həlak etdik. Bu onların özlərindən sonra yalnız az bir hissəsi məskun olan *(bomboş, xaraba qalmış)* yurdlarıdır. Onlara Biz varis olduq və s.

Məhvə aparan pis niyyətlərin yazılmasının qarşısını almaq baxımından fikirləri yayındırmaq üçün verilən dünya əzabı ilə bağlı yüzlərlə ayələr göstərmək olar. Yuxarıda müxtəlif məqamlarla bağlı cəza və məhv haqqında ayələri nəzərdən keçirdik. Bir daha ayələrlə təsdiq olundu ki, kitablar və peyğəmbərlər doğru yola *(Nur istehsalı yoluna)* yönəltmək üçün göndərilmişlər və qəlblərdəki niyyətləri dəyişmək baxımından bütün vasitələrdən istifadə olunmuşdur. Təbliğat, xəbərdarlıq, möcüzə və yayındırıcı-yönəldici digər vasitələr Nur istehsalı məqamını yetişdirə bilmədikdə, artıq məhv haqq olunur. Nur istehsalçıları isə *(doğru yolda olanlar)* xilas edilirlər.

**"Ər-Hicr"** surəsinin **4**-cü ayəsində açıq göstərilir ki, məmləkət əhalisi **əcəllərinin vaxtını tezləşdirə və yubada bilərlər**. **Yubanmış imanın** da heç bir xeyri olmadığı göstərilir. Eyni zamanda insanlar Nur istehsalı məqamına çıxaracaq qəlb yazılarını dəyişdikdə, hətta peyğəmbər tərəfindən xəbər verilmiş məhvin *(əzabın)* götürülməsi, ləvğ olunmasının mümkünlüyü də qeyd olunur. Bu fərdlərə münasibətdə də belədir.

**Əl-Ənbiya-87**. Zün-nunu *(balıq sahibi Yunusu)* da xatırla! Bir zaman o *(küfr etməkdə həddi aşmış ümmətinə qarşı)* qəzəblənərək cıxıb getmiş və *(Bizə xoş gəlməyən bir səbrsizliyinə görə)* onu möhnətə düçar etməyəcəyimizi *(gücümüzün, yaxud hökmümüzün ona yetməyəcəyini)* güman etmişdi. Amma sonra qaranlıqlar içində: «*(Pərvərdigara!)* Səndən başqa hec bir tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam. *(Əmrinə qarşı çıxmaqla özümə zülm etmişəm)*» – deyib dua etmişdi.

**88**. Biz onun *(Yunusun)* duasını qəbul buyurduq və *(balığın qarnından çıxarmaqla)* onu qəmdən qurtardıq. Biz mö-minlərə belə nicat veririk!

**Yunus-98. Əzab gəlməkdə ikən Yunusun ümmətindən başqa iman gətirib, imanı özlərinə fayda verə bilən bir məmləkət əhli vardırmı?!** *(Yunusun ümməti)* iman gətirən zaman onları dünyadakı rüsvaycılıq əzabından qurtardıq və onlara bir müddət gün-güzəran verdik.

**Əl-Ənbiya-83**. *(Ya Rəsulum!)* Əyyubu da *(yada sal!)* Bir vaxt o, Rəbbinə yalvarıb dua edərək belə demişdi: «Mənə bəla üz verdi. *(Sənə pənah gətirdim.)* Sən rəhmlilər rəhmlisisən!»

**84.** Biz *(Əyyubun)* duasını qəbul buyurduq, onu düçar olduğu bəladan *(xəstəlikdən və ailəsinə üz vermiş müsi-bətdən)* qurtardıq. Dərgahımızdan *(Əyyuba)* bir rəhmət və *(Allaha)* ibadət edənlərə ibrət dərsi *(öyüd-nəsihət)* olsun deyə, övladlarını qaytarıb ona verdik, üstəlik bir o qədər də əlavə etdik.

**Cərrahi müdaxilə:**

Quranda Nur istehsalı şəraitini yaxşılaşdırmaq *(doğru yola çıxarmaq, yönəltmək),* Nur istehsalçılarını doğru yoldan döndərə biləcək faktorları aradan qaldırmaq, gələcək Nur istehsalçılarını qorumaq baxımından radikal müdaxilələrin də olunduğu haqda məlumat verilir. **"Ər-Kəhf"** surəsinin **60-82**-ci ayələrində Musa və Xızır peyğəmbərlərin yaşadıqları hikmət dolu məqamlar haq-qında insanların öyüd-nəsihət, ibrət almaları üçün informasiya verilir:

**Ər-Kəhf-78**. *(Xızır)* dedi: «Bu artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır. *(Zahirən naməqbul olduğunu gördüyün üçün)* dözə bilmədiyin şeylərin yozumunu *(batinini, iç üzünü)* sənə xə-bər verəcəyəm!»

**79.** Belə ki, gəmi dənizdə çalışıb-vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki həmin

adamların arasında *(yaxud qabağında)* hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi.

**80**. Oğlana gəldikdə, onun ata-anası mömün kimsələr idi. *(Mən onun anlına baxıb gördüm ki, həddi-buluğa yetişəndə kafir olacaq)* buna görə də biz *(onun böyüyəndə)* ata-anasını da *(öz arxasınca)* azğınlığa və küfrə sürükləməsindən qorxduq.

**81**. Və Rəbbinin onun əvəzində onlara daha təmiz və *(ata-anasına qarşı)* daha mərhəmətli olan başqa bir övlad verməsini istədik.

**82**. Divara gəldikdə isə, o, şəhərdə olan iki yetim oğlanın idi. Altında onlara çatası bir xəzinə vardı. Onların atası əməlisaleh *(bir adam)* idi. Rəbbin onların həddi-buluğa çatmalarını və Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi. *(Ya Musa!)* Mən bunları öz-özümdən etmədim *(yalnız Allahın əmrini yerinə yetirdim).* Sənin səbr edib dözə bilmədiyin şeylərin yozumu*(batini mənası)* budur!»

«Məhsul verməyən bağ, əkin» məhv edildiyi kimi, «yer üzü Nur istehsalı tarlası»nında da məhsul verməyən *(Nur istehsal etməyən)* ümmətləri, tayfaları,fərdləri və s. bir-birinin ardınca məhv edilmişlər.

**Əl-Muminun-42**. Onlardan sonra başqa-başqa nəsillər yaratdıq.

**43.** Heç bir ümmət öz əcəlini *(ölüm yaxud cəza vaxtını)* **nə qabaqlayar**, nə də **yubada bilər**!

**44.** Sonra bir-birinin ardınca *(ümmətlərə)* peyğəmbərlər göndərdik. Hər ümmətə də öz peyğəmbəri gəldikcə onu yalançı saydılar. Biz də onları bir-birinin ardınca məhv edib *(izi-tozu olmayan)* əfsanələrə döndərdik. **İman gətirməyən tayfa məhv *(Allahın rəhmətindən uzaq)* olsun!**

**Ər-Rum-41**. İnsanların öz **əlləri ilə etdikləri** *(pis əməllər, günahlar)* **üzündən quruda və suda fəsad** (pozuntu) **əmələ gələr** *(bəzi yerlərdə quraqlıq, qıtlıq olar, bəzilərində zərərli yağışlar yağar, zəlzələ baş verər, dənizlərdə gəmilər batar)* ki, Allah *(bununla)* onlara etdiklərinin bir qismini *(etdikləri bəzi*

*günahların cəzasını)* **dadırsın** və bəlkə, onlar *(tövbə edib pis yoldan)* **qayıtsınlar.**

Topluma cəza, əzab, məhv enməmişdən öncə hər şeyin sayılıb-hesablandığı, Nur istehsalçılarının mühafizə olunması, Nur istehsalından yayındıracaq niyyətlərin yazılmasının *(günahların)* qarşısının alınmasına fövqəladə önəm verildiyi bildirilir.

**Əl-Fəth-25**. Küfr edənlər də, sizin Məscidülhərama daxil olmağınıza maneçilik törədənlər də, qurbanlıqları öz yerinə *(qurbangaha)* gedib çatmağa qoymayanlar da məhz onlardır *(Məkkə müşrikləridir).* Əgər *(Məkkədə)* tanımadığınız mömün kişi və qadınları bilmədən ayaq altına alıb əzmək və bundan dolayı sizə günah gəlmək ehtimalı olmasaydı *(Allah siz mömünlərin hamılıqla Məkkəyə daxil olmasına izn verərdi).* Amma Allah istədiyini Öz mərhəmətinə qovuşdursun deyə *(o zaman buna izn vermədi).* Əgər onlar (mömünlərlə kafirlər) bir-birindən seçilib ayrılmış olsaydılar, Biz onlardan *(Məkkə əhlindən)* kafir olanları şiddətli bir əzaba düçar edərdik!

Qəlbə yazılanları *(gizlinləri, niyyətləri)* ancaq həmin niyyəti qəlbə yazan qəlb sahibi dəyişə bilər ki, bu haqda "**Əl-Fəth"** surəsinin **23-cü** ayəsində belə deyilir: «*(Ya Rəsulum!)* Allahın əvvəldən qoyduğu qayda-qanun belədir. Sən Allahın qayda-qanununda hec bir vaxt bir dəyişiklik görə bilməzsən»…

Bu mənada yazılanlar mütləq yaşanır. Yazılar pozula bilməz qanununa görə, hətta peyğəmbərlər belə öz doğmalarının *(valideyn, həyat yoldaşı, övlad və s.)* xilası üçün heç nə edə bilməyiblər.

**Hud-45**. Nuh Rəbbinə *(dua ilə)* müraciət edib dedi: «Ey Rəbbim! Oğlum *(Kənan)* mənim ailə üzvlərimdəndir. Sənin vədin sözsüz ki, haqdır. Sən hakimlər hakimisən!»

**46**. *(Allah)* buyurdu: «Ey Nuh! **O sənin ailəndən deyildir**. Çünki o *(küfr etməklə)* pis bir iş görmüşdür. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahilllərdən olmamağı tövsiyə edirəm».

**47.** *(Nuh)* dedi: «Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən *(belə bir işə cürət etməkdən)* Sənə sığınıram. Əgər məni bağışlamasan, rəhm etməsən, ziyana uğrayanlardan olaram!»

**81.** *(Mələklər)* dedilər: «Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə toxuna bilməzlər. Gecənin bir vaxtında ailənlə birlikdə çıx get. Heç kəs dönüb geri baxmasın. Təkcə **övrətin istisnadır**. Onlara toxunacaq əzab övrətinə də toxunacaqdır. Onların *(ölüm)* vaxtı səhərdir. Səhər yaxın deyilmi?!»

Qeyd olunduğu kimi, insanları doğru yoldan azdıracaq pis niyyətlərin yazılmasının qarşısının alınması üçün yönəldici-yayındırıcı müsibətlərin *(qoruyucuları)* işə düşməsi, artıq bunların da təsiri olmadıqda məhv etmə mexanimləri vasitəsilə toplumların, fərdlərin məhv edilməsi onu göstərir ki, məhv etmədən öncə artıq Nur istehsalı məqamına çıxmanın qeyri-mümkünlüyü əvvəlcədən bilinir. Yəni qəlblərə üst-üstə yazılmış batil niyyətlərin əmələ çevrilmə sırası bitməyəcək ki, yeniləri yazıla bilsin. *(Yazılar pozula bilməz).* Bu baxımdan gizlinləri bilən Allahın peyğəmbərlərinə, qövmlərinin niyə məhv edilməsi haqda etdiyi vəhyləri göstərən ayələrə baxaq.

**Hud-36**. Nuha belə vəhy olundu: «Əvvəlcə iman gətirənlərdən başqa, tayfandan **daha hec kəs iman gətirməyəcək**. Onların etdikləri əməllərə görə kədərlənmə!

**37**. Nəzarətimiz altında və vəhyimiz üzrə gəmini düzəlt, zülm edənlər barədə Mənə müraciət etmə *(onların bağışlanmalarını Məndən xahiş etmə*). Çünki onlar suda boğulacaqlar!»

Bu dünya, şəhadət dünyası, haqla-batilin, xeyirlə-şərin iç-içə yaşandığı dünya olduğundan, insan həyatı boyu bir çox problemlərlə qarşılaşmaq zorunda qalır. Bundan əvvəl də qeyd etdiyimiz kimi, problemlərin hansı müstəvidə görünməsindən asılı olmayaraq, onların hamısını insan özü haqq edir, yəni «sifariş» edir. Bu «sifariş»lərdən tam qaçmaq mümkün olmasa da, ən azı onları minimuma endirmək mümkündür. Eyni zamanda Nur istehsalçısı olan insanın, Nur istehsalı, kamilləşmə mövqeyinə

çıxması da problemlərsiz mümkün deyil. Məsəllə aydınlaşdırmağa çalışsaq demək olar ki, hər hansı bir müsibət baş verdikdə, istər mömin olsun, istərsə də kafir, həmin müsibətlərdən qaça bilmir. Ancaq eyni müsibəti yaşayan möminlə kafirin ruhi durumları çox fərqli olur. Axirətə inanmayan, qiyamət günündən sonra insanların dirilib ya Cənnətə, ya da Cəhənnəmə gedəcəyini dərk etməyən və buna görə də inanmayan kafir üçün sonu puç olan, müvəqqəti dünyasının, «olub-qalanın» əlindən getməsi çox ağır olur. Bütün varlığı ilə, hər şeyə əl atmaqla «yeganə dünyasını» qorumağa, itirdiklərini geri qaytarmağa calışır. Buna nə qədər müvəffəq olsa da, problemlər bitmədiyinə, arzular tükənmədiyinə görə, həmişə iç dünyası dağınıq, vurnuxmalarda, carpışmalarda həyat sürür. Əmin-amanlıqda, bolluqda isə təkəbbürlə lovğalanır. Hesab edir ki, bütün əldə etdikləri, başqalarından fərqli olaraq özünün qabiliyyət və bacarığına görədir. Daha dərk etmir ki, bütün bunlarla pis niyətlərin dəlbinə yazılmaması üçün daha kəskin qoruyucuların işə düşməsini haqq edir.

Mömində – yəni axirətə inananda isə bunun əksi olur. Əmin-amanlıqda ona ruzi verənə şükür, müsibətdə isə səbr etməklə həmişə ruhi dünyası sahmanda olur. O, bilir ki, bu fani dünyadan sonra əbədi axirət həyatı olacaq və bolluqda şükürlə, müsibətdə isə səbrlə Allahın razılığını qazanmağa çalışır. Allah görür və eşidir *(təqva libası)* – deyə ən ağır vəziyyətdə olsa belə onu sınaq, imtahan sayır, səbr etməklə Allahın razı olacağına ümid edir. Və əməlinə baxıb ruhi həzz alır – yəni Nur istehsal edir. Bu sınaqların əvəzində axirətinin gözəl olacağını dərk edir, buna inanır və yönəldici,yayındırıcı qoruyucuların işə düşməsinin qarşısını alır.

**Ali-İmran-145**. Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. O, vaxtı müəyyən edilmiş bir yazıdır. Dünya mənfəəti istəyən şəxsə, dünya mənfəətindən, axirət savabı istəyən şəxsə isə axirət savabından verəcək. Şükür edənləri də əlbəttə mükafat-landıracağıq!

**Müsibətdə – səbr, əmin-amanlıqda isə şükür, gələcək əzablardan *(fikir yayındırıcılarından)* qoruyuculardır.**

Pis niyyətlərin yazılmasının qarşısının alınması üçün «sifarişli» müsibətlərin yaşanması zamanı edilən səbr, gələcək əzabların haqq edilməsinin qarşısını alır. Eyni zamanda şükür – əmin-amanlıqda və bolluqda Allahın razı olmayacağı, lovğalıq, təkəbbür, özünü bəyənmək, özünü dartmaq, özü ilə fəxr etmək kimi hislər ilə yazılacaq niyyətlərə görə haqq edilə biləcək gələcək əzablardan qoruyur.

**Əl-Qəsəs-76.** Həqiqətən, Qarun Musa qövmündən *(Musanın əmisi oğlu)* idi. Onlara *(İsrail oğullarına)* qarşı *(zülm etməklə, Musanın üzünə ağ olmaqda və özünü yuxarı tutmaqda)* həddini aşmışdı. Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik. Qövmü ona belə dedi: «*(Malına qürrələnib)* sevinmə. Şübhəsiz ki, Allah *(malına qürələnib)* sevinənləri sevməz!

**77**. Allahın sənə verdiyindən özünə axirət qazan *(malını Allah yolunda sərf et)*. Dünyadakı nəsibini də unutma. (*O maldan qismətinin ancaq bir kəfən olduğunu bil. Pulunu mənasız yerə sağa-sola səpələmə; səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil. Sabah səni Allahın əzabından qurtara biləcək yaxşı əməllər et).* Allah sənə *(sərvət verməklə)* yaxşılıq etdiyi kimi, sən də *(varından yoxsullara, qohum-əqrabaya xərcləməklə*) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!»

**78.** *(Qarun)* dedi: «Bu *(var-dbvlət)* mənə yalnız məndə olan elm *(Tövratı gözəl bilmək, yaxud əlkimyaya yaxşı bələd olmaq, ticarətdən baş çıxartmaq)* sayəsinqdə verilmişdir». Məgər o *(Qarun)* Allahın ondan əvvəl özündən daha qüdrətli və daha varlı olan neçə-neçə kəslərin məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar.

**79.** *(Bir gün Qarun)* faxir libas geyib öz zinəti *(ehtişamı)* içində *(dörd min vəznəli-çuxalı əyanın, qızıl-gümüş yəhərli atların müşayiətilə)* qövmünün qarşısına cıxdı. Dünyaya həris

olanlar dedilər: «Kaş ki, Qaruna verilən *(dövlət)* bizə də veriləydi. Həqiqətən, o, böyük bəxt *(qismət)* sahibidir!»

**80.** *(Axirət barəsində)* elm verilmiş kəslər isə belə dedilər: «Vay halınıza!» *(Ay yazıqlar!)* İman gətirib yaxşı əməl edən kimsə üçün Allahın mükafatı *(təmənnasında olduğunuz var-dövlətdən, dəbdəbədən)* daha yaxşıdır. Buna *(bu nemətə)* yalnız səbr edənlər *(Allaha itaət və ibadət etməyi fani dünya malından üstün tutanlar, həyatın çətinliklərinə dözənlər)* qovuşarlar!

**81.** Nəhayət, *(Musanın duasını qəbul buyurub bir zəlzələ nəticəsində)* onu *(Qarunu)* sarayı ilə birlikdə yerə gömdük. Allaha qarşı ona yardım edə biləcək *(Allahın əzabından onu qurtaracaq)* bir camaat da yox idi. O, özü də özünə heç bir köməklik edə bilmədi. *(Bu qədər cah-calalın, dəbdəbənin müqabilində nə özü, nə də başqası Allahın əzabını ondan dəf etməyə qadir olmadı. Allahın əzab vermək istədiyi bir kimsəni Allahın Özündən başqa o əzabdan heç kəs qurtara bilməz!)*

**82.** Dünən *(dünyada)* onun *(Qarunun)* yerində olmaq istəyənlər ertəsi gün səhər belə deyirdilər: «Vay (biz heç bilməmişik)! Sən demə, Allah Öz bəndələnidən istədiyinin ruzisini artırarmış da, azaldarmış da! Əgər Allah bizə lütf etməsəydi, yəqin ki, bizi də yerə gömərdi. Sən demə, kafirlər nicat tapmayacaqlarmış!»

**83.** Biz bu axirət yurdunu yer üzündə təkəbbürlülük etməyənlərə və fitnə-fəsad törətməyənlərə qismət edirik. *(Ən gözəl)* aqibət ancaq Allahdan qorxub pis əməllərdən çəkinənlərindir!

Mömində *(Nur istehsalcısında)* isə ruhunun yaddaşı olan, qəlbə yazılan niyyətləri *(istər yaxşı, istərsə də pis olsun)*, yaşanıb əmələ cevrilәndə, əmin-amanlıq və ya müsibət olmasına baxmayaraq şükür-səbr mexanizmi işə düşərək Nur istehsal edir.

Kafirdə *(dünya sevgisi istehsalçısında)* isə bunun tərsidir, əksidir.

Allah insanların dünya sevgisi tolplayıb onu Nura çevirmələri üçün lazım olan hər şeylə təmin olunmalarını –yəni Öz tükənməz xəzinəsindən, insanların Nur istehsalı şəraitinin yaxşılaşdırılması

üçün istədikləri hər şeyin verilməsini əzəldən **təqdir etmişdir**. Bu **nemətlərin tamamlanması** üçün insanlardan istənilən ancaq bolluqda **şükür**, müsibətdə **səbrdir**.

**Ən-Nəhl-81.** Allah yaratdığı şeylərdən *(ağaclardan, evlərdən, dağlardan və buludlardan)* sizin üçün *(günəşin hərarətindən qorunmaq məqsədilə)* kölgəliklər əmələ gətirdi, sizdən ötrü dağlarda sığınacaqlar *(mağaralar, kahalar)*, sizi istidən *(və soyuqdan)* saxlayacaq *(yun, kətan, pambıq)* köynəklər, *(sizi müharibədə)* qoruyacaq zirehli geyimlər düzəltdi. Allah nemətini sizə belə tamamlayıb verdi ki, bəlkə Ona itaət edəsiniz *(müsəlman olasınız)!*

**Əl-İsra-83**. İnsana bir nemət *(sağlamlıq, var-dövlət)* verdiyimiz zaman *(Bizdən)* üz çevirib uzaq gəzər. Ona bir pislik üz verdikdə isə məyus olar!

**84**. De: «Hərə öz qabiliyyətinə *(xislətinə)* görə iş görər. Rəbbin kimin doğru yolda olduğunu daha yaxşı bilir!»

Bu ayələrdən açıq görünür ki, insanlar Allahın onlara olan nemətini tamamlaması ücün, gərək Allahın yaratdığı qanunlara riayət edib Nur istehsalına yönəldən niyyətlər etsinlər. Niyyətlərin yazılması, mexaniki olaraq sözləri təkrar etməklə olmur. Allahın razı olacağı niyyəti yazmaq ücün, həmin niyyət əmələ çevriləndə, «şəhadət görüntüsü verəndə» hansı hislər keçiriləcəksə həmin hisləri bu başdan keçirməklə yazmaq mümkündür. Əks təqdirdə istənilən yox, hər hansı bir səbəbdən ağılda yaranan şəkillər yazılır. Ona görə də, müsibətdə, daha pis niyyətlər yazılmasın deyə səbr, əmin-amanlıqda isə Allahın razı oia bilməyəcəyi niyyətlərdən qaçmaq və yeni gözəl niyyətlər yazılmasına yönəlmək baxımından şükür etmək lazım gəlir. Bu baxımdan ibadətdən öncə *(qəlbə niyyət yazmaqda)* xüsusi hazırlıqlarla cismin, ağlın, ruhun birgə yazma işini əlaqələndirmək üçün bütün müqqədəs kitablar, xüsusən də Quran müəyyən ayinlərin yerinə yetirilməsini vacib sayır.

Bu, hətta adi səsyazma studiyalarında da belədir. Bütün tədbirlər görülür ki, lazım olmayan səslər yazılmasın. Əks təqdirdə

səsyazma vaxtı lentə *(diskə)* yazılan «gizlin», səsə çevriləndə, «yaşananda» lazım olmayan səslər ortaya çıxacaqdır.Bu mənada, əgər diqqət etsək görərik ki, yaşadığımız müasir dünyanın gün ərzində bizə göstərdiyi şəkillərin cəmi 5-10 faizində sevinc var. Qalanları isə ancaq mənfi hislər, emosiyalar doğurur. Belə olduqda xüsusən Quran, gündə beş dəfə namaz qılmaqla *(namaz-niyyət yazma),* məhdud dünyadan ayrılmaqla, o an ətrafında, dünyada olmayan, amma olacağı təqdirdə Allahın rizasının qazanılacağı niyyətlərin yazılmasını vacib buyurur. Ən böyük və yaxşı ibadəti isə Allahın **daimi olaraq zikr olunması** kimi təqdim edir. Yekunda belə nəticə çıxır ki, yaşadığımız məhdud dünyada hər görünən şəkli yox, lazım olan şəkli *(sonda Nur istehsal olunacağı)* – istər arzulardan, istər xatirələrdən, istər axirətə imandan, istərsə də dünya həyatının o an göstərdiyi şəkillərdən olsun – seçib hiss keçirməklə yazmaq lazımdır.

**Əl-Ənkəbut-2**. İnsanlar *(möminlər)* yalnız: «İman gətirdik!» – deməlirilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?

**3**. Biz onlardan əvvəlkiləri *(keçmiş ümmətləri)* də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da *(həqiqi iman sahiblərini də)* yalançıları da çox gözəl tanıyır!

**Əl-Hucurat-14**. *(Qənimət əldə etmək iştahası ilə islama daxil olan)* bədəvi ərəblər: «Biz iman gətirdik!» – dedilər. *(Ya Peyğəmbər! Onlara)* de: «**Siz *(qəlbən)* iman gətirmədiniz**!» Ancaq: «Biz islamı *(müəyyən şəxsi məqsəd, mənfəət naminə)* qəbul etdik!» – deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır *(çünki iman əməllə etiqadın vəhdəti, islamı qəbul etmək isə yalnız zahiri əməl deməkdir)*. Əgər Allaha və Peyğəmbərinə itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əskiltməz *(mükafatınızı layiqincə verər)*. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!

**Əz-Zariyat-55**. Sən *(onlara Quranla)* öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir.

**57**. Mən onlardan ruzi istəmirəm, Mən onlardan Məni yedirtmələrini də istəmirəm!
**58.** Şübhəsiz ki, ruzi verən də, qüdrət sahibi də, yenilməz olan da Allahdır!
**59.** Həqiqətən, zülm edənlərin *(özlərindən əvvəl-ki)* yoldaşlarının qisməti kimi bir qisməti vardır! **Qoy onlar Məni *(özlərinə əzab verməyə)* tələsdirməsinlər!**
**60**. Vəd olunduqları gündən *(qiyamət günündən)* dolayı vay kafirlərin halına!

**Ər-Rəd-37.** *(Ya Rəsulum!)* Beləliklə, Biz onu *(Quranı)* ərəbcə bir hökm olaraq nazil etdik. Əgər sənə gələn elmdən *(Qurandan)* sonra **nəfslərinin istəklərinə** *(puç arzularına – dünyanı razı salacaq, yaşananda Nur istehsalı yoluna yönəltməyəcək, başqalarını Nur istehsalı yoluna, doğru yola təhrik etməyəcək, əksinə doğru yoldan döndərəcək)* uysan, səni Allahın əzabından qoruyan və qurtaran olmaz!

Əgər ağılda yaranan şəkillərə hiss keçirməklə niyyətlər yazılırsa və bu hislərdə mənfi, müsbət ola bilirsə, onda hər bir insan gün ərzində əhval-ruhiyyəsinə uyğun olaraq yazdığı niyyətlər haqqında təqribi də olsa hesablamalar apara bilər.

**Əl-Bəyyinə-7.** İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşısıdırlar.

Açıq şəkildə bildirilir ki, «iman gətirib» – Allahın razılığının qazınılacağı ümidi ilə yazılan niyyətlər, sonda əmələ çevrilərkən doğru yola yönəltməklə Nur istehsal olunursa, bu əməlin yaratdığı şəkillər yeni Nur istehsalı niyyətlərinin yazılmasına təhrik edirsə – onda doğrudan da möminlər yaranmışların ən yaxşısıdırlar.

**Deməli, kafirlər də yaranmışların ən pisidirlər.**

**Əz-Zumər-18**. O kəslər ki, **sözü dinləyib** onun*(hər şəkil sözə cevrilir, söz isə şəklə)* **ən gözəlinə** uyarlar *(yəni hiss keçirərlər),* onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. **Ağıl sahibləri də elə onlardır!**

Əgər müsibətlər *(yönəldici, yayındırıcı, qoruyucu)* Nur istehsalı şəraitini korlayacaq niyyətlərin yazılmasının qarşısını almaq üçün verilirsə, onda doğrudan da cadu-pitik, fal, münəccimlik, guya enerji verməklə hansısa xəstəliyi sağaltmağa nail olmaq, dua yazdırmaq doğrudan da haramdır, ona görə ki, günaha, doğru yoldan azmağa xidmət edəcək yeni niyyətlərin yazılmasına gətirib cıxarır. Əgər peyğəmbərlər belə **dünya razılığının qazanılması üçün dərk etmədiklərinə görə pis niyyət edən** *(gizlin, gizlinləri ancaq Allah bilir)* doğmalarını heç bir yolla, vasitə ilə «gizlin»ləri bilən Allahın əzabından xilas edə bilməyiblərsə, onda insanların kiminsə – kimlərəsə nə iləsə kömək edəcəklərinə inanmalarına inanmaq olmur. Bir ağıl sahibi başqalarına ancaq vasitəçi ola bilər ki, xəstə və ya ağır problemli şəxs özü dərk edərək müsibəti haqq etdirən niyyətdən qaçsın və həmin niyəti yazan fikri yayındırmaq üçün tətbiq olunan qoruyuculara ehtiyac qalmasın.

**İncil, Mattanın müjdəsi, 8-ci fəsil:**

**13**.Və İsa yüzbaşıya dedi:"Get,sənə **iman etdiyin kimi olsun**."Qul da o saatda yaxşı oldu.

**9-cu fəsil:**

**22.** İsa da dönüb onu görərək dedi:"Cəsur ol qızım,**imanın səni xilas etdi**." Və qadın o saatda yaxşı oldu.

**Əş-Şura-30**. **Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların *(etdiyiniz əməllərin)* ucbatındandır!** *(Bütün bunlara baxmayaraq)* Allah *(günahlarınızın)* çoxunu əfv edər.

**Ət-Təğabün-11**. Allahın **izni** olmadıqca *(heç kəsə)* heç bir **müsibət üz verməz**. Kim Allaha iman gətirsə *(Allah)* **onun qəlbini haqqa doğru yönəldər**. Allah hər şeyi biləndir!

**Əl-Maidə-90**. Ey iman gətirənlər! **Şərab da *(içki də),* qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan**

**murdar bir şeydir.** Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız!

**91**. Şübhəsiz ki, Şeytan **icki və qumarla aranıza ədavət və kin salmaq və namaz qılmaqdan ayırmaq** istər: Artıq bu işə son qoyacaqsınızmı?

## İnkarnasiya

Bu gün bütün dünyada çox yayğın olan əsaslandırmalar vardır ki, güya insanlar *(ruhlar)* dövrü olaraq yer üzündə dəfələrlə dünya həyatı yaşayırlar və bu kamilləşmə-yetişmə anınadək davam edir. Quran isə mütləq olaraq tamamilə bunun əksini göstərir. Belə ki, qəlbə yazılanlar qiyamət günü haqq və batil yazılar olaraq ayrılanda, haqq yazılı qəlb sahibləri Cənnətdə əbədi səadətə, batil yazılı qəlb sahibləri isə Cəhənnəmdə əbədi əzabda olacaqlar. Bu cəhənnəmliklər istəsələr belə yenidən dünya həyatına, yer üzünə qayıda bilməyəcəklər.

**Ər-Kəhf 46**. *(Bəzi adamların fəxr etdiyi)* mal-dövlət, oğul-uşaq bu dünyanın bər-bəzəyidir. Əbədi qalan *(qəlbə yazılan)* yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də *(Allahın mərhəmətinə)* ümid etibarilə daha xeyirlidir.

**48.** Onlar Rəbbinin hüzuruna cərgə-cərgə gətiriləcəklər. *(Onlara belə deyiləcək:)* «Siz Bizim hüzurumuza ilk dəfə yaratdığımız kimi *(lüt-üryan, mal-dövlətsiz)* gəldiniz. Lakin siz elə güman edirdiniz ki, Biz sizə verdiyimiz vədi *(öləndən sonra diriləcəyinizi)* yerinə yetirməyəcəyik!»

**49**. *(Qiyamət günü hər kəsin)* əməl dəftəri qarşısına qoyulacaq. *(Ya Rəsulum! O zaman)* günahkarların orada *(yazılmış)* olanlardan qorxduqlarının görəcəksən. Onlar belə deyəcəklər: «Vay halımıza! Bu necə bir kitab imiş! O bizim hec bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki!» Onlar *(dünyada)* etdikləri bütün əməllərin *(öz qarşılarında)* **hazır durduğunu** görəcəklər. Rəbbin hec kəsə haqsızlıq etməz!

**Əl-Ənbiya-95**. **Məhv etdiyimiz hər hansı bir məmləkət əhlinin** *(qiyamət qopana qədər tövbə etmək üçün bir də dünyaya, yaxud haqq dinə)* **qayıtması mümkün deyildir.**

**Əl-Muminun-99**. Nəhayət, *(müşriklərdən)* birinin ölümü gəlib çatdığı zaman o belə deyər: «Ey Rəbbim! Məni *(dünyaya)* geri qaytar!»

**100**. Bəlkə *(indiyə qədər)* zay etdiyim ömrün müqabilində yaxşı bir iş görüm! Xeyr, bu, onun dediyi **boş bir sözdür**. **Onların önündə dirilib** *(haqq-hesab üçün Allahın hüzurunda)* **duracaqları günə** *(qiyamət gününə)* **qədər maneə** *(öldükdən sonra qiyamətədək qalacaqları **bərzəx aləmi**)* **vardır.**

**Əz-Zumər-58**. Və ya əzabı gördüyü zaman: «kaş bir dəfə də *(dünyaya)* qayıda biləydim, yaxşı işlər görənlərdən olardım!» – deməsin!

**Əl-Həşr-18.** Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs **sabah üçün** nə etdiyinə *(axirət üçün özünə nə hazırladığına)* nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır!

**19.** Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu *(xeyirlərini başa düşməyən)* kimsələrə bənzəməyin! Onlar *(Allahın itaətindən çıxmış)* fasiqlərdir!

Bu ayələrdən *(və burada göstərilməyənlər də var, bunlar heç də bu qəbildən olan ayələrin hamısı deyildir)* aşkar surətdə görünür ki, yenidən yer üzünə qayıdıb günahlardan təmizlənmək və savab qazanmaq mümkün deyildir. Bu, Allahın təqdiridir. Ona görə ki, dünya həyatında qəlbə yazılanlardan başqa bir şey istəmək mümkün deyildir. *(Qiyamət günü haqq batildən ayrılandan sonra qəlbdə hansı yazı qalmışsa, o yazıda olanı istəməkdən başqa çarə qalmır. Həmin yazıya nəsə əlavə etmək və yazıdan nəyisə cıxmaq mümkün deyildir).*

**Əl-Əraf-179**. Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların **qəlbləri vardır**, lakin onunla

**anlamazlar**. Onların **gözləri vardır**, lakin onunla **görməzlər**. Onların **qulaqları vardır**, lakin onunla **eşitməzlər**. Onlar **heyvan kimidirlər**, bəlkə də *(ondan)* daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!

Hətta yenidən dünya həyatına qayıtsalar belə, doğru yola yönəlməz, Nur istehsalı məqamına çıxmazlar. Cünki üst-üstə yazılmış batil qəlb yazıları ardıcıl olaraq yaşandığı *(niyyət əmələ çevriləndə)* zaman gördükləri pis şəkilləri yenədən niyyət olaraq yazacaqlar. Yəni artıq gecdir.

**Əl-Ənam-27**. *(Ya Rəsulum!)* Gətirilib od üstündə saxlandıqları zaman sən onların: «Kaş ki, biz dünyaya qartarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və mömünlərdən olaydıq!» – demələrini görəydin!

**28**. Xeyr, əvvəlcə ***(ürəklərində)*** **gizlətdikləri** ***(küfr, nifaq və çirkin əməllər)*** **onların qabağına çıxdı.** Əgər geri qaytarılsaydılar, yenə də onlar **qadağan** olunduqları şeyə *(küfr və günaha)* **əl qatardırlar.** Onlar, şübhəsiz ki, yalançıdırlar!

**29**. *(Əgər onlar dünyaya qaytarılsaydılar)* yenə də: «Həyat yalnız bu dünyadakı həyatımızdan ibarətdir. Bizlər bir daha dirilən deyilik!» – deyərdilər.

**30**. Sən onları *(sorğu-sual üçün)* Rəbbinin hüzurunda saxlandıqları zaman görəydin! Allah onlara *(mələklər vasitəsilə)* belə buyuracaq: «Bu *(öləndən sonra dirilmək, sorğu-sual)*, haqq deyilmi? Onlar: «Bəli, Rəbbimizə and olsun *(ki, bu, haqdır!)»* – deyə cavab verəcəklər. *(Allah)* buyuracaq: «Elə isə etdiyiniz küfrlərə görə dadın əzabı!»

Allahın, müqəddəs mənbələrdə, xüsusən Quranda, insanların Nur istehsalından ötrü yaradılmasını, missiyalarının dərk olunması, Nur istehsalçılarına çevrilmələri üçün hər şeyin onların ixtiyarına verilməsini, doğru yolu tapmanın yolları, könüllü yönəlmənin tövsiyyə olunmasını, əgər könüllü yönəlmə olmazsa, məcburi yönəlmədə haqq ediləcək əzab-əziyyət, müsibətlərin qaçılmaz olmasını, sonda əbədi səadət *(Cənnət)* və ya əbədi əzab

*(Cəhənnəm)* olacağını bəyan etməsini nəzərə alsaq, onda bütün məsuliyyətin insanlar üzərində qaldığını görərik.

**Ali-İmran-102**. Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda ölün!

Belə bir ağır məsuliyyətin öhdəsindən gəlmək, Nur istehsalçısına çevirəcək döğru yolu tapmaq üçün isə **cüzi bir əziyyətə qatlaşıb, Allahın razı olacağı niyyətləri yazmağı, Allahın istəməsini,** "Allah doğrudan da görür və eşidir" əhval-ruhiyyəsini özündə yaradıb *(bir otaqda tək olduğun vaxt, kimsənin sənə baxdığını biləndə özünü necə apararsansa, elə aparmaq şərti ilə; hər zaman da xatırlasan ki, baxan kimsə yox – Allahın özüdür)* **uşaq səmimiyyəti ilə istəməkdən başlayır.**

**Əl-İnsan-30**. *(Ey insanlar!)* Onu da bilin ki, **Allah istəməsə**, **siz istəyə bilməzsiniz**. Həqiqətən, Allah biləndir, hikmət sahibidir!

**Ət-Təkvir-25**. O *(Quran)* da məlun *(Allahın rəhmətindən qovulmuş)* Şeytanın **sözü deyildir.**

**26**. Elə isə *(siz ondan üz döndərib)* hara gedirsiniz?

**27**. O, aləmlər *(bütün insanlar və cinlər)* üçün ancaq bir öyüd-nəsihətdir.

**28**. Eləcə də sizdən doğru-düz *(yolda)* olmaq istəyənlər üçün.

**29**. *(Onu da bilin ki,)* aləmlərin Rəbbi olan Allah istəməsə, *(bunu)* istəyə bilməzsiniz! *(Yalnız Allah istəsə, istəyə bilərsiniz. Siz insanlar həmişə Allahın qüdrəti, hökmü və iradəsi altındasınız. O sizə bir şeyi istəməyincə siz onu özünüzə istəyə bilməzsiniz. Ona görə də hər işdə Allaha təvəkkül edin!)*

**Əl-Muddəsir-56**. Bununla belə, **Allah istəməsə**, onlar əsla öyüd ala bilməzlər. Qorxub çəkinməyə də, bağışlamağa da layiq olan ancaq Odur!

**İncil. Matta. 7-ci fəsil:**

**7. Diləyin**, sizə veriləcəkdir; **axtarın**, tapacaqsınız; qapını **döyün**, sizə açılacaqdır.

**8.** Zira hər diləyən **alır**, axtaran **tapır** və qapını döyənə **açılır**.

Allahın yaratdığı qanunlar, Allahın razı olacağı niyyətlər yazılan zamanı, həmin niyyətlərin yazılmasına bütün imkanlarla yardımçı olur. Əksinə olduqda isə həmin qanunlar pis niyyət yazanların yazmamaları üçün, fikirləri yayınsın, başları qarışsın deyə, yazılan niyyətin gələcəkdə insanları batilə təhrik etmə dərəcəsinə görə, kiçikdən başlayaraq böyük müsibətlərədək yazanların başına gətirir.

Onda çox maraqlı bir məqam alınır və belə çıxır ki, deyəsən insan **«qıl körpünü» elə bu dünyada keçir** və ya bu dünyada qəlbinə yazdıqlarına uyğyn olaraq qiyamətdə keçəcək. Görünür fani dünyanın «qıl körpüsü», **haqqa təhrik et-haqq təhrikə get və batilə təhrik etmə – batil təhrikə getmə** məqamlarının «arasındadır». O məqamlar ki, gərək ilk olaraq, **görüntünlə, danışığınla, davranışınla** başqalarını haqq niyyətlər yazmağa təhrik edəsən və ətrafın **görüntü, danışıq və davranışlarının** batil niyyətlər «yazdırması» təhrikinə getməyəsən.

**Yəqin ki, Böyük Əxlaq budur:**

**Nun və ya Əl-Qələm-1.** Nun! And olsun qələmə və *(mələklərin)* yazdıqlarına *(yaxud lövhi-məhfuzda yazılanlara)* ki,

**2.** Sən *(Ya Rəsulum!)* Rəbbinin nemәti sayəsində divanə deyilsən!

**3.** Və həqiqətən, səni minnətsiz *(tükənmək bilməyən)* mükafat gözləyir!

**4.** Şübhəsiz ki, **sən böyük bir əxlaq üzərindəsən!**

**5.** *(Tezliklə)* sən də görəcəksən, onlar da görəcəklər.

**«Tezliklə» olacaq qiyamət günü haqqında ayələrdə hansı informasiyalar verilir.**

**Əl-Əraf-32**. *(Ya Peyğəmbərim!)* de: «Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz *(halal)* ruziləri kim haram buyurmuşdur?» De: «Bunlar dünyada iman gətirənlər üçündür *(lakin kafirlər də onlardan istifadə edə bilərlər),* qiyamət günündə *(axirətdə)* isə yalnız mömünlərə məxsusdur». Biz ayələrimizi anlayıb-bilən bir tayfaya belə ətraflı izah edirik.

**Ən-Nəhl-77**. **Göylərin və yerin qeybini** bilmək ancaq Allaha məxsusdur. Qiyamətin qopması **bir göz qırpımında**, **yaxud daha tez olar**, Allah, həqiqətən, hər şeyə qadirdir! – ayəsindən irəli gələn açıq məna budur ki, Fani dünyada milyardlarla illər keçsə də bu, dərgah zaman müstəvisində «bir göz qırpımı» olur. Əgər yer üzünün bir günü, dərgahın Cənnət və Cəhənnəm məqamının zaman müstəvisində 0.237 saniyədirsə, onda yer üzündə qiyamətə dək keçən zamana müvafiq olaraq orada da müəyyən zaman keçməlidir. Keçən zaman hər halda "bir göz qırpımı" olmamalıdır. Əgər Əl-Muminun-100-ə diqqət etsək ("Onların önündə **dirilib** *(haqq-hesab üçün Allahın hüzurunda)* **duracaqları** günə *(qiyamət gününə)* qədər **maneə** *(öldükdən sonra qiyamətədək duracaqları* ***bərzəx aləmi)*** **vardır").** "Qiyamətin qopması bir göz qırpımında, yaxud daha tez olar" fikri bir daha təsdiq edilir. Yəni dünyasını dəyişən yaranmış üçün, yenidən diriləcəyi qiyamətədək zaman sıfıra bərabər olur.

Bu, Nun və ya "**Əl-Qələm"** surəsinin **5**-ci ayəsindəki "*(Tezliklə)* sən də görəcəksən, onlar da görəcəklər" informasiyasını təsdiq edir.

İncildə də**, Allah insanları «böyük bir əxlaqa»** çağırır:

**Matta. 5-ci fəsil.**

**16.** Qoy sizin **işığınız** insanların qarşısında **elə parlasın** ki, xeyirxah işlərinizi **görsünlər** və Göydəki Atanıza **həmd etsinlər.**

**17.** Sanmayın ki, Mən qanunu və peyğəmbərlərin yazılarını pozmağa gəldim; Mən pozmağa deyil, **icra etməyə gəldim**.

**18.** Çünki, doğrusunu sizə deyirəm: Göy və yer keçib getmədən, hər şey **icra olunmadan**, qanundan ən kiçik bir hərf və ya bir nöqtə belə yox olmayacaqdır.

**19.** Beləliklə, bu **ən kiçik əmrlərdən** birini kim pozarsa və belə etməyi insanlara öyrədərsə, Göylərin Padşahlığında o, **ən kiçik adlanacaqdır;** və onlara kim əməl edər və öyrədərsə, Göylərin Padşahlığında **böyük adlanacaqdır.**

Müasir dünyamızı «ağzına» alıb aparan böyüklü-kiçikli problemlər-təbii fəlakətlər, müharibələr, vətəndaş-dövlət qarşıdurmaları, qəzalar, xəstəliklər və s.-də «gizlinə» münasibətdə ehtiyatsızlığın nəticəsidir. O problemlər ki, sonda Allahın Nur istehsalı müəssəsi kimi yaratdığı yer üzünü və Nur istehsalı şəraitinin tam dağılmasına gətirib çıxara biləcək pis niyyətlərin *(gizlinlərin)* yazılmasının qarşısını alır. O problemlər ki, fərd, ailə, tayfa, qövm, ümmət, millət, xalq qəlbinə yazılacaq batil niyyətlərin yazılmaması üçün fikirləri yayındırmağa xidmət edir. O, problemlər ki, qəlblərə yazılan niyyətlərin, Allahın razı olacağı məqama yaxınlaşıb əməllərə çevirilmə ehtimalı çoxaldıqca onlara ehtiyac azalacaqdır. Bununla insanlar, bəşəriyyət, ancaq Allahın bildiyi «gizlin»lərdə görünən «ayıb»lardan, o «ayıb»lar ki, ortaya çıxanda yaşananda yaradacağı «rüsvay»lardan xilas ola bilər və insanlar xoşbəxt dünya həyatı yaşayaraq, Nur istehsalçılarına çevrilib doğru yolu tapanlar kimi axirət səadətinə qovuşarlar. Doğru yolu tapmağın, Nur istehsalçısına çevrilməyin yeganə vasitəsi elm və hikmətinin ən ümdə incəliklərinə qədər toplandığı, Allah tərəfindən göndərilmiş müqəddəs kitablar – Tövrat, Zəbur, İncil və son kitab Qurandır. Bəşəriyyət yalnız bu kitabların işığında Nur məqamını görə bilər.

Peyğəmbərlərin sonuncusu, Allahın sevimlisi, «elmin şəhəri» Həzrəti Muhəmməd *(s.ə.s.)* bir hədisi şərəflərində Quranı belə anladır: «Allahın kitabı Quran! Onda sizdən əvvəlkilərn hekayətləri, sizdən sonrakıların xəbərləri, öz aranızda olanların da hökmləri vardır. O, doğrunu əyridən ayıran kitabdır. O, heç bir zaman dəyərsiz danışmaz. O, Allahın sağlam ipidir. O, zikri hakimdir. O, dosdoğru yoldur. Pis arzular Onu əsla hədəfindən

sapdırammaz. Dillər Onu qarışdırammaz *(pozammaz).* Alimlər Ondan doymaz. O, təkrar-təkrar oxunmaqla əskilməz. Onun əcaib və qəraibi *(ağılları heyrətə düşürən mənaları)* heç tükənməz. O, cinlərin eşidər-eşitməz haqqında «Biz əcəb bir oxuma eşitdik ki, doğruya yönəldir. Dərhal ona iman etdik!» – dedikləri kitabdir. Onun ölçülərinə görə danışan doğru söylər. Ona görə davranan savab qazanır. Onunla hökm edən adil olur. Ona çağıran doğru yola çağırmışdır».

**Y e r k ü r ə s i k a i n a t ı n N u r g ü n ə ş i d i r .**

**Allah istədiyi kimi olsun!**

**Ə**
**E**
**X**

20 may 2007-ci il.
Bakı şəhəri, Əhmədli, 19.27.

***Qeyd üçün***

***Qeyd üçün***

Компцтер йыьымы: Севда Абдуллайева, Зийа Наьыйев,
Синан Сцлейманов.
Компцтер дизайны: Елмар Мящяррямов.

Йыьылмаьа верилмишдир: – 6 август 2007-ъи илдя.
Чапа имзаланмышдыр: – 22 август 2007-ъи илдя.
Сифариш: №.
Форматы: 60/84 – $^1/_{16}$. Щяъми: 7,5 ч.в. Тиражы: 500.

Китаб ТИКМ-дя йыьылыб-сящифялянмиш, «Нурлан» няшриййат-полиграфийа мцяссисясиндя щазыр диапозитивлярдян чап едилмишдир.
Мцяссисянин директору Н.Б.Мяммядли.
Тел. 497-16-32; 427-44-61; 050-311-41-89.
Цнван: Бакы, Ичяришящяр, 3-ъц Магомайев кцч., 8-ъи дюнэя, ев 4.

***Cavadov Hüseyn Vilayət оьлу***
***İnsan – taleyini özü yazan, nur istehsalı şəraitini yaxşılaşdırmaq vəzifəli – nur istehsalçısıdır!***

Бакы, Нурлан, 2007